Hər kəs ədalətli olacaq

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 7 (6100) 21 fevral 2025-ci il | Qiyməti 40 qəpik

## "İnsanlar üçün ən yaxşı şəraiti yaratmaq dövlətimizin borcudur"



**Əlbəttə ki, Vətən həsrəti ilə yaşamış insanlar üçün ən yaxşı şəraiti yaratmaq dövlətimizin borcudur.**

**Adalet.az xəbər verir ki, bu sözləri Prezident İlham Əliyev Xocalı rayonunun Ballıca kəndinə köçən bir qrup sakinlə görüşdə deyib. Dövlət başçısı qeyd edib: "Mənim də Prezident kimi əsas borcum bu gün bundan ibarətdir. İşğala son qoyduq, 2023-cü ildə antiterror əməliyyatı nəticəsində bu bölgəni də işğaldan azad etdik.**

**Ballıca və yüzlərlə digər yaşayış məntəqəsi artıq işğalçılardan tam azad olunmuşdur və indi həyatı bərpa edirik".**

## Ərdoğan: Türkiyə Ukraynanın ərazi bütövlüyünə dəstək nümayiş etdirir



**Mən Zelenskiyə Ukraynanın ərazi bütövlüyünə dəstəyimizi çatdırdım, danışıqlar prosesinin davamlı sülhlə başa çatması üçün hər cür dəstəyi verəcəyimizi vurğuladım.**

Adalet.az xəbər verir ki, bu sözləri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ukrayna Prezidenti Volodimir Zelenski ilə birgə mətbuat konfransında deyib. "Böyük dağıntılara səbəb olan Rusiya-Ukrayna müharibəsi bitməlidir. Ölkəmiz qarşıdakı dövrdə Rusiya, Ukrayna və ABŞ arasında baş tutması gözlənilən danışıqlar üçün ideal ev sahibi olacaq", - Ərdoğan bildirib. Türkiyə lideri qeyd edib ki, Zelenskinin səfəri müharibənin fundamental dinamikasının əhəmiyyətli dəyişikliyə məruz qalacağı bir vaxta təsadüf edir: "Müharibədə qalib, sülhdə məğlub olmur. Tərəflər arasında sülhün bərqərar olması üçün çox səy göstərdik. 2022-ci ilin mart ayında İstanbulda iki ölkə arasında birbaşa danışıqlara ev sahibliyi etdik. Qara Dəniz Taxıl Təşəbbüsünə başladıq. Son üç il ərzində biz bütün səviyyələrdə Rusiya və Ukrayna ilə birbaşa əlaqədə olmuşuq". Ərdoğan xatırladıb ki, ABŞ Prezidenti Donald Trampın müharibənin tez və danışıqlar yolu ilə başa çatdırılması üçün diplomatik təşəbbüsü var.

"Bu yanaşma da Türkiyənin siyasəti ilə üst-üstə düşür. Müharibə indi bitməlidir", - Türkiyə Prezidenti əlavə edib.

## Bakıda Asiya Parlament Assambleyasının plenar sessiyası keçirilib

Bax:səh-7

## MİDA-nın adından istifadə edənlər ifşa olunub



**Bakı şəhəri Səbail rayon məhkəməsi Azərbaycan Respublikasının vətəndaşı Şərifov Kənan Urfan oğlu barəsində həbs qətimkan tədbiri seçib.**

Adalet.az xəbər verir ki, Kənan Şərifov Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin müraciəti əsasında Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətində başlanılmış cinayət işi üzrə müəyyən edilərək saxlanılıb.

O, digərləri ilə birlikdə Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin adından saxta sənədlər hazırlayıb istifadə etməklə, müxtəlif ünvanlara, o cümlədən banklara göndərməklə çoxsaylı vətəndaşların külli miqdarda pul vəsaitlərini ələ keçirməkdə şübhəli bilinir.

## AZAL təyyarəsinin qəza təhqiqatı bu vaxta qədər açıqlanacaq

**AZAL-a məxsus təyyarənin Aktau yaxınlığında qəzaya uğramasının araşdırılmasına dair yekun hesabat 2025-ci ilin sonuna qədər təqdim ediləcək.**

Adalet.az Qazaxıstan KİV-lərinə istinadən xəbər verir ki, bunu Astanada keçirilən mətbuat konfransında respublikanın nəqliyyat nazirinin müavini Talqat Lastayev bildirib.

"ICAO-nun (Beynəlxalq Mülki Aviasiya Təşkilatı) tələblərinə, standartlarına və tövsiyə olunan təcrübəsinə əsasən, araşdırma bir il çəkir. Müvafiq olaraq, cari ilin dekabrına qədər araşdırma üzrə yekun hesabat tamamlanmalıdır", - o bildirib.

## Müharibənin Azərbaycana vurduğu ümumi ziyan



**Eyni zamanda, təcavüzkar müharibə nəticəsində mülki infrastruktura Birinci Qarabağ müharibəsi və sonrakı dövrlərdə, habelə İkinci Qarabağ müharibəsi dövründə ümumilikdə 5,2 milyard manatdan artıq məbləğdə maddi ziyan vurulub.**

Adalet.az xəbər verir ki, bu, hərbi cinayətlər törətməkdə təqsirləndirilən erməniəsilli şəxslər barəsindəki cinayət işi üzrə ittiham aktında qeyd olunub.

Qeyd edilib ki, təcavüzkar müharibə nəticəsində Azərbaycan Respublikasının mülki infrastrukturuna, iqtisadiyyatına, ekologiyasına, müdafiə arsenalına və digər sahələr üzrə Azərbaycan Respublikasına ümumilikdə 100 milyard manatdan artıq maddi ziyan vurulub.

**Aqil ABBAS**
**aqilabbas@rambler.ru**

## Ə, ADAM NƏ QƏDƏR DÖYÜLÜB ÜSTÜMƏ GƏLƏR?!



*Dünyanın iki vor zakon dövlətinin prezidentləri, yəni Tramp və Putin bu günlərdə saat yarım telefonla danışıblar. Təbii ki, nə danışdıqlarını bir özləri bilir, bəlkə də heç Tanrı da bilmir.*

*Açırsan televizyonu həm rus kanallarının, həm də Azərbaycan kanallarının siyasətçiləri, ekspertləri bu telefon danışığını bildikləri kimi yozurlar, müəyyən ehtimallar irəli sürürlər.*

*Mən proqnoz verməyi xoşlamıram, amma dedim dəstədən geri qalmayım, mən də ehtimalımı söyləyim.*

*Əvvəla, Amerika Zelenskinin əlindən bezib. Əslində bu şoumenin əlindən dünyanın bir çox liderləri bezib.*

Bax:səh-2

## GÜNÜN LƏTİFƏSİ

### "ERMƏNİ RADİOSU"NDAN BİR ANEKDOT

Aşot təyyarəçidi, bütün təyyarəçilər kimi hərbi şəhərcikdə yaşayır. Arvadı Haykanuşdan şübhələnir ki, o göydə olanda yanına kimsə gəlir.

Dostu Surene deyir:

**- Suren, deyəsən, mən göydə olanda arvad yanına kimisə buraxır. Tuta bilmirəm, mən neyləyim?**

Suren:

**- Texnikanı bilən adamsan. Sən çarpayınıza bir xətt birləşdir, iki adam yatanda evin üstündə qırmızı işıq yansın. Göydə olanda şəhərciyin üstündən dairəvi bir uçuş elə, damdakı işıq yansa bil ki, arvadın yanında kimsə var.**

Aradan keçir, həyəcan siqnalı ilə bütün təyyarəçilər havaya qalxırlar. Aşot Surenin məsləhət verdiyi kimi şəhərciyin üstündən dairəvi uçuş edir ki, görsün evinin üstündə işıq yanır, yoxsa yox. Amma evini tapa bilmir, çünki şəhərcikdəki bütün evlərin damlarında qırmızı işıq yanırdı.

# Gənclər və idman nazirinin səlahiyyətləri artırıldı



**"Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi haqqında Əsasnamə"də dəyişikliklər edilib.**

Bu barədə Prezident İlham Əliyev fərman imzalayıb.

Sənədə əsasən, gənclər və idman nazirinin səlahiyyətlərinə yeniləri əlavə edilir.

Belə ki, nazir dövlət büdcəsindən ayrılan vəsaitin, büdcədənkənar vəsaitin sərəncamçısı olaraq maliyyə vəsaitini bölüşdürür, ayrılmış vəsaitin həddi nəzərə alınmaqla Nazirlik işçilərinin vəzifə maaşlarına əlavələrin, maddi yardım və mükafatların verilməsini təmin edir; Nazirliyin fəaliyyət istiqamətləri üzrə müvafiq il üçün dövlət büdcəsinin və büdcədənkənar vəsaitin formalaşdırılması ilə bağlı təkliflər verir.

Nazirliyin Kollegiyası qərar formasında aşağıdakı normativ hüquqi aktları qəbul edir:

Nazirliklə digər şəxslər (qurumlar) arasında münasibətləri tənzimləyən normativ hüquqi aktları;

qəbul edilməsi Azərbaycan Respublikasının Prezidenti və ya Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən Nazirliyə tapşırılmış normativ hüquqi aktları;

bir neçə dövlət orqanının fəaliyyətini tənzimləyən vahid (birgə) normativ hüquqi aktları;

aidiyyəti dövlət orqanları ilə razılaşdırılmalı olan normativ hüquqi aktları;

nazirin təşəbbüsü ilə Nazirliyin Kollegiyasının müzakirəsinə çıxarılan bu Əsasnamənin 14.2-ci yarımbəndində nəzərdə tutulmuş normativ hüquqi aktları;

bu Əsasnaməyə uyğun olaraq, Nazirliyin Kollegiyasının qəbul etdiyi normativ hüquqi aktların ləğvi və ya onlarda dəyişiklik edilməsi barədə normativ hüquqi aktları.

# "Azərbaycan milli mətbuatının 150 illiyi" medalı təsis edildi, əsasnaməsi təsdiqləndi

**Prezident İlham Əliyev "Azərbaycan milli mətbuatının 150 illiyi (1875-2025)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" qanunda dəyişiklik edilməsi barədə qanunu təsdiqləyib.**

Sənədə əsasən, "Azərbaycan milli mətbuatının 150 illiyi (1875-2025)" Azərbaycan Respublikasının yubiley medalı" təsis edilib.

"Azərbaycan milli mətbuatının 150 illiyi (1875-2025)" Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə" təsdiq edilib.

"Azərbaycan milli mətbuatının 150 illiyi (1875-2025)" Azərbaycan Respublikasının yubiley medalının təsviri" təsdiq edilib.

"Azərbaycan milli mətbuatının 150 illiyi (1875-2025)" Azərbaycan Respublikasının yubiley medalı ilə media sahəsinin inkişafında xüsusi xidmətləri olan, bu sahədə səmərəli fəaliyyət göstərən və ya media ilə əməkdaşlıqda fərqlənən Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər təltif edilirlər.

"Azərbaycan milli mətbuatının 150 illiyi (1875-2025)" Azərbaycan Respublikasının yubiley medalı ilə Əsasnamədə göstərilən şəxslər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təltif edilirlər.

"Azərbaycan milli mətbuatının 150 illiyi (1875-2025)" Azərbaycan Respublikasının yubiley medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda onlardan sonra taxılır.

Dövlət başçısı sözügedən sənədlərlə bağlı fərman da imzalayıb.

Sənədə əsasən, "Azərbaycan milli mətbuatının 150 illiyi (1875-2025)" Azərbaycan Respublikasının yubiley medalı ilə təltif etmək səlahiyyəti Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyinin İcraçı direktoruna verilib.

Nazirlər Kabineti sözügedən qanundan irəli gələn məsələləri həll etməlidir.

# Sahibə Qafarova İndoneziya Nümayəndələr Palatasının sədri ilə görüşdü

**Milli Məclisin sədri Sahibə Qafarova Asiya Parlament Assambleyasının (APA) 15-ci plenar sessiyasında iştirak etmək məqsədilə ölkəmizdə işgüzar səfərdə olan İndoneziya Respublikası Nümayəndələr Palatasının sədri Puan Maharani ilə görüşüb.**

Bu barədə Adalet.az-a Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

Görüşdə APA-nın Asiya parlamentlərini birləşdirən mühüm parlament platforması olduğu qeyd edilərək, Bakının evsahibliyi ilə keçirilən 15-ci plenar sessiyada bir sıra vacib məsələlərin müzakirə olunacağı diqqətə çatdırılıb.Bu cür tədbirlərin ikitərəfli əlaqələrin müzakirəsi və genişləndirilməsi baxımından da əhəmiyyəti qeyd olunub.



Milli Məclisin sədri Sahibə Qafarova Nümayəndələr Palatasının sədri Puan Maharani ilə bundan öncəki görüşlərini məmnunluqla xatırlayaraq, belə görüşlərin və qarşılıqlı səfərlərin münasibətlərimizin inkişafına töhfə verdiyini bildirib.

Söhbət zamanı ölkələrimiz arasında Birləşmiş Millətlər Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı kimi mühüm beynəlxalq təşkilatlarda müsbət əməkdaşlıq və qarşılıqlı dəstəyin mövcud olduğu vurğulanıb.

Spiker Sahibə Qafarova Indoneziyanın Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılan Qoşulmama Hərəkatının Parlament Şəbəkəsində təmsil olunduğunu və Şəbəkənin tədbirlərində iştirak etdiyini bildirib. Azərbaycanın sədrliyi ilə Parlament Şəbəkəsinin qarşısında duran vəzifələr, təşkilatın institusional inkişafı istiqamətində atılan addımlar barədə də danışılıb.

Görüşdə parlamentlərimiz arasında qarşılıqlı fəaliyyətin dövlətlərimiz arasında əlaqələrin inkişafına mühüm və müsbət təsir göstərdiyi qeyd edilərək, qanunverici orqanlarımızın Parlamentlərarası İttifaq, İƏTPA, APA kimi beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq etdiyi bildirilib.

O cümlədən, hər iki ölkənin parlamentində dostluq qruplarının fəaliyyət göstərməsinin, həmçinin, deputatların qarşılıqlı səfərlərinin və sıx təmaslarının münasibətlərimizin daha da genişlənməsinə xidmət etdiyi bildirilib.

İndoneziya Nümayəndələr Palatasının sədri Puan Maharani Azərbaycanda olmaqdan məmnunluğunu bildirərək, plenar sessiyanın uğurla təşkil olunacağına inamını ifadə edib.

O, dünyada mövcud olan böhranlar fonunda sülh və təhlükəsizliyin təmin olunmasının çox mühüm əhəmiyyətə malik olduğunu, Azərbaycan və İndoneziyanının sülhpərvər dəyərlərə malik olduqlarını qeyd edib.

Söhbət zamanı spiker Sahibə Qafarova qonağa regionda mövcud olan vəziyyət, torpaqlarımızın işğaldan azad olunmasından sonra Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən nəhəng yenidənqurma və bərpa işləri barədə də məlumat verib.

**Görüşdə həmçinin gender məsələləri, qadınların idarəetmədə təmsilçiliyinin artırılması və qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.**

# *Azərbaycan Suriyadakı səfirliyinin fəaliyyətini bərpa etdi - 13 il sonra*

**Azərbaycan Respublikası 13 illik fasilədən sonra Suriyanın paytaxtı Dəməşqdəki Səfirliyinin fəaliyyətini bərpa edib.**

Adalet.az xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyi məlumat yayıb.

Bildirilib ki, artıq bu məqsədlə Səfirliyin müvəqqəti işlər vəkili artıq Dəməşq şəhərinə ezam edilib və fəaliyyətə başlayıb.

"Azərbaycan Respublikası beynəlxalq hüququn prinsiplərinə əsaslanaraq, Suriyada davamlı sülhün və sabitliyin bərqərar olmasını dəstəkləyir.

Azərbaycan və Suriya arasında dostluq və əməkdaşlıq əlaqələrinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyması və siyasi, iqtisadi, mədəni və digər sahələrdə tərəfdaşlığın inkişaf etdirilməsi üçün yeni imkanların yarandığı bu vacib dövrdə Səfirliyimiz Suriyanın keçid dövrü hökuməti ilə yaxından əməkdaşlıq edərək ikitərəfli əlaqələrimizin inkişafına dəstək verəcəkdir", - məlumatda qeyd olunub.

*Aqil ABBAS*

# Ə, ADAM NƏ QƏDƏR DÖYÜLÜB ÜSTÜMƏ GƏLƏR?!

*Dünyanın iki vor zakon dövlətinin prezidentləri, yəni Tramp və Putin bu günlərdə saat yarım telefonla danışıblar. Təbii ki, nə danışdıqlarını bir özləri bilir, bəlkə də heç Tanrı da bilmir.*

*Açırsan televizyonu həm rus kanallarının, həm də Azərbaycan kanallarının siyasətçiləri, ekspertləri bu telefon danışığını bildikləri kimi yozurlar, müəyyən ehtimallar irəli sürürlər.*

*Mən proqnoz verməyi xoşlamıram, amma dedim dəstədən geri qalmayım, mən də ehtimalımı söyləyim.*

*Əvvəla, Amerika Zelenskinin əlindən bezib. Əslində bu şoumenin əlindən dünyanın bir çox liderləri bezib.*

*Adam nə qədər döyülüb adamın üstünə gələr?! Bir dəfə, iki dəfə, üç dəfə, beş dəfə, yeddi dəfə… Axırda ən yaxın dostun, hətta qardaşın da deyər ki, bəsdi də, nə qədər gözünün altı qaralmış gələssən üstümə, dalaşa bilmirsən, dalaşma, çıx aradan!*

*Bir dəfə bir ata oğluna nəsihət verir:*

*- Ay bala, dalaşma. Atana söydülər, mənə söyürlər də. Anana söydülər, mənim arvadıma söyürlər də. Bir yumruq vurdular, mənim xətrimə cavab vermə. İkincini vurdular, bu dəfə də ananın xətrinə keç. Üçüncü yumruq vurdular, kişi deyilsən, nə durub baxırsan, ayaqların yoxdu, qaç də.*

*İndi Zelenski həmin atanın oğlu yerindədi. Axırda qaçacaq. Hansı ölkəyə, deyə bilmərəm. Amma onu bilirəm ki, qarabağlılar demiş, aradan cıracaq.*

*Amerika yardımlarını kəsəcək, Rusiya da tutduğu əraziləri Federasiyanın tərkibinə qatacaq, yerdə qalan Ukrayna da bölünəcək. Bir hissəsini ukraynalılara verəcəklər, bir hissəsini də Polşayla Macarıstana.*

*Putin də əvəzində Trampa dedi ki, nə istəyirsən elə, get Qrenlandiyanı götür, istərsən Kanadanı 51-ci ştat elə, Panama kanalı da sənin, biz bu işlərə qarışmayacağıq, sən də Zaqafqaziyadan əlini çək, mənim "polyama" girmə.*

*Amerikanın Ukrayna məsələsində geri çəkildiyini görən Fransa özünü yuyulmamış çömçə kimi atıb ortalığa, aranı qarışdırmaq istəyir. Özünü Avropanın ağsaqqalı kimi aparan, Avropanın "vor zakon"u olmaq istəyən Fransa həmişə müharibədə uduzub. İngilislərə də, almanlara da, ruslara da biabırçı şəkildə. Ruslar gedib Parisin baş meydanında hərbi qələbə paradı keçiriblər.*

*Belə bir məsəl var, it əl çəkdi, motal əl çəkmədi. İndi Fransa da həmin motal kimi əl çəkmək istəmir. Avropa liderlərinin bir parasını yığıb başına Ukraynanı müzakirə edir, Rusiyaya təzyiqi artırmaq istəyir. Bir tərəfdən də Ukrayna müharibəsini Zaqafqaziyaya köçürmək istəyir, Ermənistanı silahlandırır. Amma çi fayda?*

*Yeri gəlmişkən, iki yüzdü, üç yüzdü bilmirəm, Ermənistana missioner göndəriblər, əslində casus. Onlar da bütün günü sərhəd boyu gəzir, durbinlə bizim torpaqları, bizim postları izləyir.*

*Bir gözəl film var, deyəsən adı "K-19"du. Sovet sualtı gəmisində kiçik bir partlayış olur. Amerikalılar kömək etmək istəyir, lakin gəminin kapitanı bu köməyi qəbul etmir. Sualtı qayıq çıxır suyun üstünə, heyət də hamı çıxır gəminin üstünə şüalanmaqdan qorunmaq üçün. Bu vaxt bir Amerika vertolyotu yaxınlaşır gəmiyə, gəminin başında dövrə vurur və durbinlə, fransız missionerləri bizim postları izləyən kimi, gəminin üstündəki dənizçiləri izləyir, şəkillərini çəkir.*

*Bu vaxt çox maraqlı hadisə olur. Bütün rus motrosları şalvarlarını aşağı çəkib dallarını şəkil çəkənlərə göstərirlər.*

*İndi deyirəm fransız missionerləri bizim postları izləyəndə hərbçilərimiz də şalvarlarının qabağını açıb onlara ayrı şey göstərələr. Çox maraqlı olar.*

*Amma bir şeydən də qorxuram ki, fransızlar türkünkünü görəndən sonra hamısı axışıb gələ Ermənistana.*

*Yadıma bir anekdot düşdü. İngilis, fransız, iranlı, daha dəqiq desək, fars və türk bir kupedə gedirlər.*

*Hər kəs öz matahını tərifləyir.*

*İngilis deyir:*

*- Bizim əla viskimiz var.*

*Fransız:*

*- Bizim də mələk kimi qızlarımız var.*

*Fars:*

*- Bizim də dünyada məşhur xalılarımız var.*

*Sonra da üçü birdən türkdən soruşur ki, sizin nəyiniz var?*

*Türk:*

*- Bizim də ingilis viskisindən vurub, fransız qızlarıyla fars xalısının üstündə kef çəkən oğullarımız var.*

*Day bəsdi ey, yoruldum!*

# "Azərbaycanla birgə mexanizmimiz dezinformasiyaya qarşı gücümüzü birləşdirəcək"

**Türkiyə Prezident Administrasiyasının Kommunikasiya İdarəsinin rəhbəri Fəxrəddin Altun "Azərbaycan ilə Türkiyə arasında media sahəsində strateji əməkdaşlıq haqqında anlaşma memorandumunun 5 ili: Birgə fəaliyyətə baxış, gələcək hədəflər" mövzusunda Bakıda keçirilən dəyirmi masa iştirakçılarına məktub ünvanlayıb.**

Adalet.az xəbər verir ki, onun məktubunu Türkiyənin Azərbaycandakı Səfirliyinin media müşaviri Cihangir Alptekin İşbilir səsləndirib.

Məktubda 2020-ci ilin 10 dekabrında "Türkiyə ilə Azərbaycan arasında Media sahəsində Strateji Əməkdaşlıq haqqında Anlaşma Memorandumu" xatırladılaraq bunun kommunikasiya və media sahəsində iki ölkə arasında hərtərəfli yol xəritəsi olduğu diqqətə çatdırılıb:



"Geridə qalan müddət ərzində biz həm Türk Dövlətləri Təşkilatı, həm İslam Əməkdaşlıq Təşkilatı, həm də ikitərəfli əlaqələr çərçivəsində dəfələrlə görüşlər keçirmiş, əməkdaşlığımızı daha da gücləndirmək üçün səylərimizi birləşdirmişik". F.Altun 2021-ci ildə Birgə Media Platformasının ilk iclasında "İctimai diplomatiya", "Beynəlxalq media", "Strateji kommunikasiya", "Təhsil", "Qanunvericilik və tənzimləmə", "Rəqəmsallaşma və beynəlxalqləşmə" komitələrinin yaradılmasına diqqət çəkib.

"Bu mənada, institusionallaşmış birgə ictimai diplomatiya mexanizmimiz işimizin keyfiyyətini artıracaq, xüsusilə dezinformasiyaya qarşı mübarizədə gücümüzü birləşdirəcək. Bu kontekstdə dünya ictimaiyyətinin düzgün məlumatlandırılması böyük əhəmiyyət kəsb edir", - o vurğulayıb.

Türkiyə Prezident Administrasiyasının Kommunikasiya İdarəsinin rəhbəri yekun olaraq bildirib ki, 2025-ci il martın 4-də Bakıda "Daha ədalətli dünya mümkündür" adlı panel və dəyirmi masa toplantısı da keçiriləcək:

"Birgə media platformamızın 2024-cü il üçün fəaliyyətinin qiymətləndirilməsi və gələcək proqnozların müzakirə olunacağı bu toplantının faydalı olacağına ümid edirəm".

# "Azərbaycan və Türkiyənin media qurumlarının faydalı əməkdaşlıq əlaqələri var"



**"Azərbaycanla Türkiyənin media qurumlarının əməkdaşlığı çərçivəsində bu 5 il ərzində çox saylı birgə layihələr həyata keçirilib. Ankarada keçirilən Hərbi "Jurnalistika Təlim Proqramı", eləcə də "Media Savadlılığı" layihələri çərçivəsində hər iki ölkənin media qurumları arasında faydalı fikir mübadiləsi aparılıb".**

Adalet.az xəbər verir ki, bunu Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov Bakıda "Media Məkanında Strateji Əməkdaşlıq Anlaşma Memorandumunun 5 ili: Birgə Fəaliyyətə Baxış, Gələcək Hədəflər" mövzusunda dəyirmi masada deyib.

Əhməd İsmayılovun sözlərinə görə, hər il təşkil olunan ənənəvi Şuşa Qlobal Media Forumunda aktual məsələlər ətrafında təcrübə mübadiləsinin təşviqi də əməkdaşlığın önəmli aspektlərindəndir:

"Ölkəmiz üçün böyük əhəmiyyət daşıyan və Milli Mətbuat Gününə təsadüf edən Şuşa Qlobal Media Forumu bu sahədə əməkdaşlığa ciddi təkan verir. 2023-cü ilin oktyabrında Azərbaycanın 30-dan çox qurumunun media ilə əlaqələrdən məsul şəxslərinin Türkiyəyə səfəri təşkil olunub. Azərbaycan və Türkiyə arasındakı münasibətləri bənzərsiz əməkdaşlıq modeli adlandırmaq mümkündür. Biz bir-birimizi beynəlxalq platformalarda qətiyyətlə dəstəkləyirik. İnanıram ki, növbəti illərdə qardaşlıq əlaqələrimiz daha da möhkəmlənəcək".

## *H.Hacıyevin "Salam Xankəndi" videosunda erməniləri yandıran "mədəniyyət evi"*



**Xəbər verdiyimiz kimi, Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Xankəndi şəhərindən video paylaşıb.**

Hacıyev "X" hesabında Xankəndi Şəhər Prokurorluğunun binası qarşısından etdiyi paylaşıma "Salam, Xankəndi!" sözlərini yazıb.

Təbii ki, bu maraqlı video bütün sosial şəbəkə platformalarında sürətlə yayılıb.

Eyni zamanda , ermənilərin böyük qəzəbinə səbəb olub. Beləki, Xankəndi şəhərində yerləşən Mədəniyyət mərkəzinin binasının bərpası da videoda göstərilib. Ermənilər bunu " Qarabağdan ermənilərin tarixi izini silmək " kimi dəyərləndirərək əsəbləşiblər.

Qeyd edək ki, 2024-cü ilin oktyabr ayında Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti xəbər yayımladı. Xəbərdə bildirildi ki, Xankəndi şəhərində yerləşən Mədəniyyət mərkəzinin binası bərpa ediləcək və artıq bununla bağlı hazırlıq işlərinə başlanılıb, müvafiq layihə hazırlanıb.

***P.S.** Bunlar- bu axmaq və xəstə toplum anlamaq istəmir ki, Xankəndi Mədəniyyət Mərkəzi 1980-ci ildə, məhz Sovet Azərbaycanının sərəncamı, layihəsi və büdcəsi ilə tikilib. Bu tikinti xəstə təxəyyülünüzlə uydurduğunuz "qədim erməni kralı Tiqran"ın guya "eramızdan əvvəl" tikdirdiyi uydurma Tiqranakert qalası da deyil.*

**Ə. Aslan**

## *"Avropa Ukraynaya ordu göndirməyə hazırdırmı?"*

**Reuters agentliyinin məlumatına görə, ABŞ hökuməti avropalı tərəfdaşlarlna məktub göndərib. Məktubda, həmçinin onların Ukraynaya ordu göndərməyə hazır olub-olmaması soruşulub.**

"Əgər üçüncü dövlətlərin hərbi qüvvələri sülh razılaşması çərçivəsində Ukraynaya yerləşdiriləcəksə, onların sayı, yerləşdiriləcəkləri ərazilər və hansış müdfətə orada qalacaqları barədə məlumat verilməsi xahiş olunur"- deyə məktubda bildirilub.

Ağ Ev, danışlqların səmərəli keçməsi üçün, avropalıların Kiyevə hansı sayda hərbi texnika göndərə biləcəkləri ilə də maraqlanıb.

## *"Ukrayna doqquz vilayətini itirə bilər..."*




**Çikaqo universitetinin professoru Con Mirşaymer hesab edir ki, sülh müqaviləsi bağlanana qədər Ukrayna ümumilikdə doqquz vilayətini itirə biıər.**

Ekspert düşünür ki, hər halda nə vaxtsa Ukraynanı da danışıqlar masasına dəvət edəcəklər. Lakin buna qədər kifayət qədər zaman keçəcək.

"O vaxta qədər cəbhədə üstünlük qazanan Rusiya, artıq işğal etdiyi Krım və dörd vilayətə daha beş vilayət əlavə edə bilərlər. Bu isə Ukraynanın ərazilərinin yarısından çoxu demək olar"- deyə professor YouTube kanalında bildirib.

**Rüstəm Hacıyev**

Rüstəm Hacıyev



# Fransanın baş naziri çaşqınlıq içində...

**"Makronun təcili təşkil etdiyi sammitə yığışan avropa liderləri, kəsimə hazırlanan mal-qara sürüsünə bənzəyirdi". (Slivakiyanın "HD" nəşri)**

**Tramp-Putin alyansı avropada çoxlarının yuxusunu qatışdırıb**

**Avropa İttifaqı ölkələri ABŞ ptezidenti Donald Tramla Rusiya prezidenti Vladimir Putin əlaqələrinə qarşı nə dayanıqlıq göstərə bilmirlər, nə də bu əlaqələrə mane olmaq gücündə deyillər.**

**Fransanın baş naziri Fransua Bayru dünən bunu açıq şəkildə etiraf edib. "Biz, Putin və Tramp arasında güman etmədiyimiz alyansa şahidlik edirik, bu, Avropanın öz ərazilərində marginal vəziyyətdə düşməsi deməkdir. Avropa İttifaqının bu məsələdə zəiflik göstərməsini görmək isə dəhşətdir"-deyə "BFM TV " telekanalı baş nazirin sözlərindən sitat gətirir.**

**Fransanın baş naziri bildirib ki, bu günlərdə prezident Emanuel Makronun təşəbbüsüylə, Yeliseyevski sarayda təşkil olunmuş avropa liderlərinin sammiti də, kontinentin təhlükəsizliyi məsələsinə aydınlıq gətirmədi.**

**Slovakiyanın "Hiavny Dennik" mətbu orqanı qeyd edir ki, "Fransa prezidenti Emanuel Makronun Parisdə təcili təşkil etdiyi Avropa liderlərinin sammiti, kəsimə hazırlanan mal-qara sürüsünə bənzəyirdı". "HD" daha sonra diqqətə çatdırır ki, ABŞ Trampın Ağ evə qayıdışından sonra, Ukrayna münaqişəsinə marağını azaldıb, Avropa isə, antirusiya sanksiysları ilə öz iqtisadiyatını dağıdıb və yenə də köhnə mövqeyini qoruyub saxlamağa çalışır.**

**Fransanın Le Monte qəzeti bildirir ki, ABŞ-ın Ukrayna münaqişəsini sülh yolu ilə həll etmək istəyi ilə bağlı, Makronun təşəbbüsü ilə təcili Parisə toplaşan liderlər arasında Çexiya, Rumıniya və Sloveniya liderləri yox idi. Onlar Trampın bu qərarlarından narazı olduqlarını bilfirdikləri üçün, sadəcə olaraq bu sammitə dəvət olunmamışdılar.**

**Macarıstanın xarici işlər və xarici iqtisadi əlaqələr naziri Peter Siyarto, elə həmin gün bəyan edib ki, Parisə toplaşanlar, üç ildir Ukrayna münaqişəsinin sülh yolu ilə nizamlanmasına mane olan dövlətlərin nümayəndələridirlər. Onlar indi də Trampa qarşı hərəkətə keçiblər.**

**Daha əvvəlki yazılarımızda da qeyd etdiyimuz kimi, eks prezident Baydendən fərqli olaraq, Tramp "hər şeydən əvvəl Amerika" prinsipinə uyğun olaraq hərəkət edir və Makronun simasında avropalı tərəfdaşlarının təlaşa düşmələrinə heç əhəmiyyət vermir.**

**ABŞ prezidenti yaxşı bilir ki, Makron kimi simasızlar, bir az hopbanıb- düşəcək və sonra peşmanlıqla quyruqlarını büzüb yenə də ABŞ-ın ayağına gələcəklər.**

**Görünən odur ki, Avropa İttifaqında hər kəs öz başının hayındadır. Zibilə saldıqları, Rusiyanın təhdidləri qarşısında tək qalmaq təhlükəsi qarşısında qalan Ukraynanın qara günləri isə hələ qabaqdadır...**

***İz.ru saytının materiallarından istifadə olunub***

## *10 mindən çox şəxsin Azərbaycana girişi məhdudlaşdırılıb*



**Ötən il İnzibati Xətalar Məcəlləsinin və Miqrasiya Məcəlləsinin müvafiq maddələrinin tələblərini pozmasına görə 10 min 48 nəfərə ölkə ərazisinə girişin məhdudlaşdırılması qərarı verilib.**

Bu barədə Adalet.az-a Dövlət Miqrasiya Xidmətindən (DMX) məlumat verilib.

Belə ki, İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələrinin tələblərini pozmasına görə ölkə hüdudlarından kənara inzibati qaydada çıxarılmaqla inzibati cərimə tətbiq olunma ilə bağlı 2 min 440, Miqrasiya Məcəlləsinin müvafiq maddələrinin tələblərini pozmasına görə əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin ölkəyə girişinə məhdudiyyət qoyulma ilə bağlı 7 min 608 qərar qəbul edilib.

**Bunlardan 7 min 256-sı Miqrasiya Məcəlləsinin 16.1.8-ci maddəsinin tələblərini pozmasına görə (Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxarma tətbiq edilmədən inzibati cərimə növündə inzibati tənbeh tətbiq edilmiş şəxs cəriməni (hesablanmış dəbbə pulu daxil olmaqla) ödəmədikdə), 352-si Miqrasiya Məcəlləsinin digər maddələrinin tələblərinin pozulmasına görə olub.**



Elxan Şükürlü

# Əsas zərbə Zelenskiyə dəyəcək...

***Moskvaya göndərdiyi xüsusi nümayəndəsinin ABŞ-a qayıtmasından dərhal sonra Trampın Putin və Zelenskiylə telefon danışığı, ardınca da mətbuata açıqlamasında Putini tərifləyərək "yaxşı insan" adlandırması və onunla görüşə hazırlaşdığını bildirməsi 3 ildir Ukrayna savaşı üzərində aparılan Qərb təbliğatının rüsvayçı çöküşü və iflası deməkdir.***

***İndi hətta 3 ildir gözləri kor, qulaqları kar olmuş, gerçəkləri inkar etməklə özünü Ukraynanın, prezident Zelenskinin qələbəsinə inandırmış kəslər də yaxşı görür və anlayırlar ki, bu proses ən yaxşı halda Ukraynanın bölünməsi, Rusiyanın Ukrayna ərazilərinin bir hissəsini işğalının legitimləşdirilməsiylə nəticələnəcək.***

***Biz bu müharibənin ilk günlərindən elə ABŞ-ın ən nüfuzlu strateqlərinin yazdıqlarına istinadla Ukraynanı belə bir aqibətin gözlədiyini deyəndə, Qərb təbliğatının muzdurları, xüsusən də Ukraynanın ölkəmizdəki səfirliyi ilə əməkdaşlıq edən bəzi şəxslər bizi Rusiyaya işləməkdə suçlayaraq, sosial şəbəkələrdə təhqir etdirirdilər.***

***İndi Trampın məlum açıqlamalarından sonra isə həmin şəbəkə təmsilçiləri sahibsiz qalmış qotur eşşəklərtək nə edəcəklərini bilmirlər: hara gəldi sürtüşür, qulaqları düşmüş halda, məyus əhvalda çarə - arqument axtarışındadırlar...***

***Hazırda təsəlli üçün ABŞ rəsmlərinin Trampın söylədiklərinə düzəliş və Avropa təmsilçilərinin Ukraynaya dəstək bəyanatlarına istinad edilsə də, necə deyərlər, ox artıq yaydan çıxıb:***

***Trampın Ukraynanı Zelenskisiz Rusiya ilə sövdələşmə masasına yatırdığı və onu hər an qurban etməyə hazır olduğu faktdır!***

***Şübhəsiz ki, Trampın açıqlamaları, ilk növbədə, Rusiya əleyhinə formalaşmış yorğun Qərb koalisiyasında fikir ayrılığı və dərin çatlar yaradacaq, Ukrayna məsələsində vahid strategiyanın qəbulunu çətinləşdirəcək, Kremllə Avropa ölkələri arasında separat sövdələşmə meyllərini artıracaq.***

***Digər tərəfdən, ABŞ prezidentinin açıqlamaları daha çox Ukrayna cəmiyyətinin, siyasi elitasının və ordusunun əhvalına təsir edərək, onların müqavimət əzmini aşağı salacaq, Rusiya ilə danışıq tərəfdarlarının mövqeyini gücləndirməklə Ukrayna hakimiyyəti daxilində uzun müddətdir gedən ziddiyyətləri daha da dərinləşdirəcək.***

***Onsuz da Tramp Ukraynanın gələcəyini Zelenski ilə təsəvvür etmir.***

***Çünki Zelenski ABŞ-dakı 2020-ci il seçkilərində açıq şəkildə Trampı satmış, onun rəqibi Baydeni dəstəkləmişdi - Trampın 2019-cu ildə Baydenin oğlu Hanterin Ukraynadakı cinayət işini yeniləmək xahişini geri çevirərək, telefon danışıqlarını mətbuata sızdırmış və Baydenin əlinə oynamışdı...***

***İndi isə qisas almaq - Zelenskini cəzalandırmaq növbəsi Trampdadır.***

***Və Tramp da elə taxta çıxdığı gündən hər fürsətdə Zelenskini cəzalandıracağının mesajını verir. O, artıq bir neçə dəfə xatırladıb ki, özü prezident olsaydı, bu müharibə baş verməzdi və müharibənin də əsas səbəbi Ukraynanın NATO-ya üzv olmaq istəyidir.***

***Bununla da Tramp, faktiki olaraq, Ukrayna müharibəsinin əsas təqsirkarının Rusiya yox, Bayden komandası və onların əlinə oynayan Zelenski olduğuna eyham vurmuş olur.***

***Çox güman ki, yaxın vaxtlarda Ukraynada hərbi çevriliş? cəhd ssenariləri işə düşəcək.***

***Çünki Zelenski özü Putinlə danışığı qadağan edən fərman imzalayıb, Avropa isə Zelenskinin iştirakı olmadan aparılacaq danışıqları qəbul etməyəcəklərini bildiriblər.***

***İndi ya Zelenski geri addım atmalı - Putinlə danışığı qadağan edən fərmanını ləğv etməli, ya Ukraynanın iştirakı olmadan ABŞ-Rusiya danışıqlarına razılaşmalı, ya da Ukraynada yeni hakimiyyət formalaşmalıdır ki, hər üç ssenaridə də əsas zərbə məhz Zelenskiyə dəyəcək.***

## *Anbarlarda silah qalmayıb - Avropa təbil çalır*

**"Avropa ölkələrində və Ukraynada anbarlarda silah qalmayıb".**

Adalet.az xəbər verir ki, bunu "Rheinmetall" müdafiə konserninin rəhbəri Armin Papperger Britaniyanın "Financial Times" qəzetinə müsahibəsində deyib.

"Avropalıların və ukraynalıların anbarlarında heç nə yoxdur",- deyə o, vurğulayıb.

Bütün bunların fonunda Papperger hesab edir ki, Rusiya ilə Ukrayna arasında atəşkəs olsa belə, regionda silaha tələbat yüksək olaraq qalacaq.

# Vətəndaşlar içki və siqaretə nə qədər pul xərcləyirlər?

**"Dövlət Statistika Komitəsinin (DSK) məlumatına görə, bu ilin yanvar ayında pərakəndə ticarət dövriyyəsi 4,8 milyard manat olub. Dövriyyənin 2,6 milyard manatı ərzaq məhsulları, içkilər və tütün məmulatları, 2,2 milyard manatı isə qeyri-ərzaq mallarıdır".**



Adalet.az xəbər verir ki, bunu iqtisadçı deputat Vüqar Bayramov deyib. O bildirib ki, 2025-ci ilin ilk ayında içkilər və tütün məmulatlarına 230 milyon manatdan çox pul xərclənib:

"Bu, ümumi pərakəndə ticarət dövriyyəsinin 4.7 faizidir. Ötən ilin yanvar ayı ilə müqayisədə içkilər və tütün məmulatlarına 1,8 faiz daha çox pul sərf edilib. DSK-nin pərakəndə ticarət üzrə təsnifatında alkoqollu içkilər deyil, içkilər və tütün məhsulları birlikdə götürüldüyü üçün spirtili içkilərə nə qədər vəsaitin xərcləndiyi tam aydınlaşmır. Amma aydındır ki, burada alkoqollu içkilər xüsusi paya malikdir. İçki və tütün məhsullarına xərclənən vəsaitin çoxalmasına qiymət artımları təsir göstərsə də, istehlak həcmi də xüsusi paya malikdir.

Vətəndaşlarımız qazandıqları hər 100 manatın 5 manatını içkilər və siqaretə xərcləyirlər".

Deputat qeyd edib ki, Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanda spirtli içki istehlakının növbəti illərdə artacağını proqnozlaşdırır:

"Adambaşına istehlak indi 2.5 litr olduğu halda, bunun 2030-cü ildə 3.9 litr olacağı gözlənilir. İstehlak artdıqca isə xərc də çoxalır. Dəməli, spirtli içkilər və tütün məhsullarının istehlakını azaltmaqla həm qənaət etmək, həm də daha sağlam olmaq mümkündür. Ona görə alkoqol və tütün məhsullarını istehlak etməkdənsə, ixrac etmək daha faydalıdır.

Müqayisə üçün qeyd edək ki, spirtli içkilər və tütün məmulatlarının pərakəndə ticarət dövriyyəsində payı Gürcüstanda 3.4, Türkiyədə 3.3, Özbəkistan 3.2, Qazaxıstanda 2.4, Türkmənistanda 2.2 faizdir. İnkişaf etmiş ölkələrdən isə İtaliya 4.2, Kanada 3.7, Almaniya 3.5, Böyük Britaniya 3.4,Çində 3.0, Yaponiyada 2.7, ABŞ-da 2.0 faizə malikdirlər. Spirtli içki və siqaretə ən çox üstünlük verən dövlətlər isə Laos (10.8%), Serbiya (8.4%), Bosniya və Hersoqovina (8.3%), Çexiya (8.2%), Belarus (7.7%), Macarıstan (7.6%), İndoneziya (7.4%), Latviya (7.4%) və Rusiyadır (7.3%)".

**Nicat Novruzoğlu**

# "Zəngəzurda problemin olmaması İranın mövqeyi ilə bağlıdır"

**"Zəngəzurda bu günə qədər heç bir ciddi problem yaşamamağımız İranın mövqeyi ilə bağlıdır".**






Adalet.az xəbər verir ki, bu fikirləri ötən gün mətbuat konfransında Xocalı qatili, Ermənistanın keçmiş prezidenti Robert Köçəryan deyib. O bildirib ki, əgər İranın Zəngəzurla bağlı birmənalı mövqeyi olmasaydı, Əliyevi heç bir maneə saxlaya bilməzdi və Ermənistan hakimiyyəti də "biz o dağlar uğrunda vuruşmayacağıq" deyərdi. Azərbaycan prezidenti hazırda 300 min azərbaycanlıdan danışır, amma bizim hakimiyyət susur, heç nə demir. Hətta sətiraltı deyir ki, Zəngəzur ümumiyyətlə onlarındır.

Ermənistan hakimiyyətindən bununla bağlı hər hansı bir ətraflı cavab eşitmisinizmi? Mən əvvəldən bir şey dedim ki, əgər o statusu qəbul etmisənsə, o statusdan nəticələr də yaranır və nəticəsi belə olur: "Mən sənə nə desəm, etməlisən".

Xatırladaq ki, rəsmi Tehran "Zəngəzur dəhlizi"ni özünün "qırmızı xətti" olduğunu deyib. İranın xarici işlər naziri Abbas Araqçı deyib ki, qonşu dövlətlərin sərhədlərində hər hansı dəyişiklik onun ölkəsi üçün qırmızı xətt deməkdir və bu, "tamamilə qəbuledilməzdir". Politoloqların fikrincə, İran Zəngəzur dəhlizinin reallaşmasına hər vəchlə mane olmağa çalışır. Hətta Rusiyadan da bu məsələni dəstəklədiyi üçün narazıdır.

**Qeyd edək ki, Köçəryan əvvəlki, açıqlamalarında deyirdi ki, Rusiyanın Ermənistandakı hərbi mövcudluğu Azərbaycanı Ermənistan ərazisindən keçməklə Naxçıvana dəhliz açmaq cəhdindən çəkindirir.**

**Ə. Rəşid**

# "Hraparak": "Müxalifət meydanda döyüşə hazır vəziyyətdədir"

**"Ermənistanda müxalifət meydanı döyüşə hazır vəziyyətə gətirilib. Biri uzun sürən sükutu pozur, biri mitinq çağırır, üçüncüsü qurultay keçirir, digərləri isə başqa fəallıq formatlarını mənimsəyib".**

Adalet.az xəbər verir ki, bu fikri Ermənistanın nüfuzlu nəşri olan "Hraparak" yazır.

Nəşr bildirir ki, Buna təkcə qlobal geosiyasi dəyişikliklər və Nikol Paşinyan və Ermənistan Kommunist Partiyasının fəallaşması kömək etmir, həm də bəzi şayiələrə görə, Rusiya dairələrindən mümkün dəyişikliklərlə bağlı Ermənistana müəyyən siqnallar ötürülür. Xüsusən də, Putin-Tramp görüşündən sonra Rusiya Cənubi Qafqazla məşğul ola bilər! Ona görə də, bəziləri hesab edir ki, müxtəlifət fəaliyyəti ilə təsadüfən ortaya çıxan qüvvələrin aktivləşməsini əngəlləməlidir.

Siyasi meydan bu kimi göydəndüşmə hadisələrə hazır olmalıdır. Müxalifət meydanında aktivlik olsa Nikol Paşinyanın özünü təhlükədə hiss edər və gedişi saniyələrin işi ola bilər.

Nəşr vurğulayır ki, Paşinyan çox tez Qərbə xəyanət edib Rusiyanın qucağına qayıda bilər: "Dəməli, çevik siyasi təklif təqdim etməzdən əvvəl müxalifətin çox işi var. Rusiyaya Əliyevdən qorxan məğlub və köhnə hökmdarla işləmək həmişə faydalı olacaq"- deyə nəşr yazır.



Qeyd edək ki, hazırda ermənilərı Qarabağ və Zəngəzur məsələsindən sonra ən çox narahat edən Paşinyanın qondarma "soyqırımı"ndan imtina etməsidir. Paşinyanın dəfələrlə erməni dövlətçiliyini qoruyub saxlamaq istəyiriksə "Böyük Ermənistan" ideasından əl çəkməliyik deməsi hətta xaricdə yaşayan ermənilərin qəzəbinə səbəb olub.

Əslində, uydurma "Böyük Ermənistan" onların milli ideologiyasının əsasını təşkil edir və bunun kökündə Azərbaycan və Türkiyəyə qarşı ərazi iddiası dayanır. Bəzi xarici qüvvələrin də dəstəklədiyi "Böyük Ermənistan" ideyasına tərəf ancaq uydurduğu soyqırımla gedəcəyini anlayan revanşistlər bu ideyalardan əl çəkmək istəmir.

Odur ki , revanşist müxalifət səhnəyə qayıdır .

**Əntiqə Rəşid**

# *Rey Kərimoğlu:* "Murovdağ şəhidlərinin xatirəsinə 2 abidə ucaldılsın ki..."

*Artıq 4-5 gündür ki, sosial şəbəkələrdə Birinci Qarabağ müharibəsi zamanı- 1994-cü il 14 fevralında başlayan "Murov əməliyyatı" ilə bağlı müzakirələr bitmir. Hər gün yeni bir iddia ortaya çıxır.*

*Müsahibim İ Qarabağ qazisi, "Qarabağ qaziləri" ictimai birliyin mətbuat xidmətinin rəhbəri Rey Kərimoğludur.*

*Əvvəlcə bildirək ki, o müzakirələrə ötən gün tanınmış jurnalist Ləman Əliəşrəfqızının LAF TV -sində nöqtəni qoydu:" Bu işlə bağlı məhkəmə istintaqı olub. Briqada komandirinin müvaini Nəriman Zeynalov deyir ki, istintaq zamanı 250 nəfərə yaxın şəxs ya yaralanaraq, ya da donaraq şəhid olub. İstintaqda adlı siyahı da var. Qəhrəman döyüşçülərimizin sayəsində isə düşmən tərəfinin itkisi 800 nəfər olub. 2013 -cü ci ildə APA TV-də "Müharibə adamı" verilişində də bu haqda danışmışıq. Verilişdə Nəriman Zeynalov özü də danışıb. Onu da bildirim ki, bu, Nəcməddin Sadıqovun konkret xəyanətlərindən biridir".*

*Düzdür, hələ ki, jurnalistin fakt və sübutlarına şübhə ilə yanaşanlar da var, amma konkret olaraq yanaşmada təkzibedilməz faktlar ortaya qoyan səlahiyyət sahibi də yoxdur. Daha dəqiq, ictimaiyyət iki fikirin əsiri olub. Bir hissə R. Kərimoğlu kimi "Murov əməliyyatı"nda 14-fevral günü şəhid olanların sayını 200-250, digər qisim isə 1337-1500- ə qədər hesab edir.*

*Odur ki, yenidən jurnalist həmkarımıza üz tutduq:*

**- Rey bəy, axı ictimaiyyətin böyük bir hissəsi hələ də öz dediyini deyir, 1994-cü il 14 fevralda 1337-1500 itkimiz olduğunu israr edir...Niyə onlar sizin ortaya qoyduğunuz məhkəmə istintaqının materiallarına inanmır?**

- Bilirsən, "Murovdağ əməliyyatı" deyiləndə hamı ilk Google Axtarış Sistemində bunu axtarır. Məlumdur ki, vikipediya materialları dövlət strukturlarının rəsmi sənədləri ilə hazırlanmır. Hansısa bir jurnalistin və yaxud döyüşçünün bəzən dəqiq bilib-bilmədiyi açıqlamalar üzərindən yığılır. Məsələn, döyüşlərdə əlinə avtomat almayan, döyüş zolağına girməyən ancaq təminat bölməsində olmuş bir hərbiçi deyirmiş ki, Murovda şəhid olanların sayı 4 min olar. Həmin o "benzinovaz" sürücüsünə sonradan zəng edilir, soruşulur ki, sən o 4 min şəhidi gözünlə gördünmü? Deyir yox, o vaxt elə danışırdılar. Belə, döyüşçülərdən alınan müsahibələr ikinci feyk məlumatın yayılmasına şərait yaradır. Bəli, istintaq materialları durmuşkən, vikipediyalar etibarlı mənbə hesab edilə bilməz. Mənim faktlarıma, daha dəqiq, istintaq materiallarına şübhə edənlər vikipediyaya istinad edənlərdir. Amma, nəhayət ki, orda bu yalnışlıq artıq düzəlib.





**- Tutaq ki, sizin sitat gətirdiyiniz istintaq materiallarına ictimaiyyətin şübhəli qismi də inandı. Amma 30 ilə yaxın Baş Qərargah rəisi olmuş, adıgedən əməliyyatın planını quran, əməliyyatın başlama əmrini verən Nəcməddin Sadıkov istintaqa düz məlumat veribmi?**

- Bu əməliyyat Nəcməddin Sadıqovun konkret xəyanətlərindən biridir. Amma istintaq materiallarındakı yekun nəticədə göstərilən rəqəmlər Nəcməddin Sadığovun yox, məhkəmənin, istintaqın araşdırırmasından sonra ortaya çıxan rəqəmlərdir. Şübhəsiz ki, məhkəməyə Nəcməddinin təsiri böyük olub. Mümkün variantdır ki, 1500 itki Nəcməddin Sadıqovun öz layihəsidir ki, o vaxt bu şişirdilmiş rəqəmi ictimaiyyətə yaymaqla xalqın gözünü qırsın, onun döyüş əzmini yerlə bir etsin , özünə , ordusuna güvəni parçalasın...

Yeri gəlmişkən, o vaxt məhkəmə materiallarını araşdıran jurnalist Rövşən Kəbirlinin belə bir fikri var:

"Bu dəhşətli faciənin əsas günahkarı sabiq Baş prokuror Əli Ömərovdur. Məhkəmədə iş üzrə məsuliyyətə cəlb olunmuş zabitlər deyirdilər ki, onların dağlıq ərazidə qarlı şaxtalı havada hərbi əməliyyat aparmağın fəlakətlə sonunclana biləcəyini deyib hücum əmrinə etiraz etsələr də, o vaxt prezidentin nümayəndəsi kimi əməliyyata ümumi rəhbərliyi həyata keçirmək üçün bölgəyə ezam olunmuş Əli Ömərovun israrlı təkidi ilə (hücum etməyəcəyi təqdirdə briqada komandirini həbslə hədələyib) 1993-cü ilin dekabrın 30-31 tarixlərində hücum başlayıb. İlk günlər əməliyyat uğurla gedib amma əvvəldən ordumuzun hücum əməliyyatından məlumatlı olan ermənilər məqsədli şəkildə müqavimət göstərmədən geri çəkilərək qoşunlarımız tələyə salaraq çarpaz atəşlə ağır itkiyə məruz qoyub. Nəticədə pərən-pərən düşən ordu bölməmiz köməksiz, üstəlik təchizatısız xaotik vəziyyətə geriyə çəkilir. Çovğunlu və şaxtalı hava donvurmalara səbəb olur. Beləliklə, bir briqadanın canlı qüvvəsi bir neçə nəfər çıxmaqla əməliyyatdan sağ çıxmır, şəhid olur".

Əslində o vaxtkı baş prokurorun da açıqlaması məsələyə aydınlıq gətirə bilər və biz ictimaiyyət olaraq bunu gözləyirik.

Amma, fürsət düşmüşkən, mən bir istəyimi, bir tələbimi ictimaiyyətə və əlaqədar orqanlara çatdırmaq fikrindəyəm. Dövlətimizdən xahiş edirəm ki, 1994-cü ilin 14 fevralında, ümumilikdə "Murovdağ əməliyyatı"nda şəhid olan əsgər və zabitlərimizin xatirəsinə Murov dağında, yaxud ora yaxın ərazilərdə bir abidə kompleksi qurulsun və eynisi Bakıda Şəhidlər Xiyabanında - Türk Şəhidliyinin yanında ucaldılsın!

**- Niyə 2 abidə?**

-Murovdakı abidə kompleks orada şəhid edilən əsgərlərimizin şərəfinə olsun!Hər il şəhidlərimizin anım günündə keçmiş döyüşçülər, gənclər , arzu edən şəxslər gedib o yerləri ziyarət etsin! Döyüşçülərimizin hansı şərtlər altında, necə bir relyefdə, necə bir şəraitdə döyüşdüyünü görsünlər, təsəvvür etsinlər. Bakıdakı Şəhidlər Xiyabanında olacaq abidə isə oranın məhz bir şəhidlər abidə kompleksi olmasından irəli gəlir. Digər ziyarətçilər həmin abidəni də ziyarət etməlidir! Tezliklə, bu istək və tələbimizi təşkilatımız adından əlaqədar orqanlara yazılı şəkildə çatdıracağıq.

**-Maraqlı müsahibə üçün təşəkkür edirik..**

***P.S.** Maraqlıdır, həqiqiliyinə "inandığımız" o istintaq materiallarını ortaya çıxaran Azərbaycan Ali Məhkəməsinin hərbi kollegiyası niyə o sənədlərdə Nəcməddin Sadıqovun səhv qərar verdiyini əsas gətirərək onu məhkəməyə cəlb etmədi? Niyə onun haqqında cinayət işi açmadı? Niyə Qərargah rəisini mühakimə etmədi ki, niyə orduya, qarlı və sərt qışda (1993 dekabr- 1994 fevral) , həm də Azərbaycanın ən soyuq bölgəsində (oranı Azərbaycanın Sibiri də adlandırmaq olar) döyüş əmri verdi? Bütün əsgərlərin, döyüşün, əməliyyatın, eyni zamanda, Rey Kərimoğlunun düzgün hesab etdiyi sayı 200-250 olan şəhidin məsuliyyəti çiyinində olan məsul şəxs idi axı , N. Sadıxov....! Bəs niyə həbs edilmədi, vəzifədən kənarlaşdırılmadı, hərbi tribunalda əməllərinin cavabını almadı?Bunlar olsaydı, əlbəttə ki, ictimaiyyətin "şübhəli" qismi -" 1337-1500 şəhid var" deyən qismi də istintaq materiallarına inanardı.*

***Bu faciəli və biabırçı əməliyyatdan tam 1 il, 2 ay sonra (04.04.1995) Nəcməddin Sadıqov "Azərbaycan Bayrağı" ordeni ilə təltif olundu. İstintaq Sadıqovda heçmi bir nöqsan tapa bilmədi?***

***Bu təbii ki, bir jurnalist olaraq , mənim subyektiv fikirlərimdi, razılaşmayanlar ola bilər.***

**Əntiqə Rəşid**

### *"Yenidən hücum edərsə, Ukrayna avtomatik NATO-ya qəbul olunacaq"*

**Finlandiya prezidenti Aleksandr Stubb Ukraynanı yenidən silahlandırmaq və Rusiyaya təzyiq göstərmək üçün ilkin danışıqlara ehtiyac olduğunu bəyan edib.**

Adalet.az xəbər verir ki, o, bunu Münhen Təhlükəsizlik Konfransında deyib.

Stubb Ukraynada sülhün əldə edilməsi prosesinin necə inkişaf edəcəyi ilə bağlı fikirlərini bölüşüb: "Birinci mərhələ ilkin danışıqlardır.

Bu, Ukraynanı yenidən silahlandırmalı və Rusiyaya maksimum təzyiq göstərməli olduğumuz məqamdır.

Bu, sanksiyalar və dondurulmuş aktivlər deməkdir ki, Ukraynadanışıqlara güclü mövqedən başlasın. Nə qədər vaxt aparacağını bilmirik, amma bir az vaxt alacaq. İkinci mərhələ və biz hələ ona çatmamışıq, atəşkəsdir. Atəşkəs çox vaxt sülh prosesi ilə qarışdırılır", - deyə Stubb bildirib.

Onun sözlərinə görə, atəşkəs sərhədlərin demarkasiyası və beynəlxalq monitorinqi əhatə etməlidir: "Bu müddət ərzində əsirlərin mübadiləsi, oğurlanmış uşaqların geri qaytarılması və mümkün sanksiyalar kimi digər tədbirlər də müzakirə olunur".

Finlandiya dövlət başçısı həmçinin bəyan edib ki, Rusiya yenidən Ukraynaya hücum edərsə, rəsmi Kiyev avtomatik olaraq NATO-ya qəbul olunacaq.

"İkinci Dünya Müharibəsində Finlandiya suverenliyini saxladı, lakin bizim qoşula biləcəyimiz xarici siyasət ittifaqlarının seçimi ilə bağlı suverenliyini (müəyyən müddətə) və ərazisinin 10%-ni itirdi. İki qırmızı xətt var ki, onların üzərində heç bir müzakirə aparıla bilməz - Ukraynanın Aİ və NATO-ya üzvlüyü. Ukraynalılar artıq danışıqlar aparır və onlar rus yox, avropalı olacaqlar və nə vaxtsa Ukrayna NATO-da olacaq", - deyə Stubb bildirib.

## Köçəryan: «Biz Qarabağa ancaq bu yolla qayıda bilərik»

**Bu gün, fevralın 17-də Ermənistan Respublikasının ikinci prezidenti, Xocalı qatili Robert Köçəryan mətbuat konfransı keçirib.**

Adalet.az xəbər verir ki, keçmiş qatil Qarabağı könüllü tərk edən ermənilərlə bağlı da fikir bildirib. Köçəriyan Qarabağlıları Qarabağa qaytarmağın yeganə görünən yolu 9 noyabr bəyanatına əməl etməyin olduğunu vurğulayıb:"Əgər Azərbaycan yol deyirsə, biz çox rahatlıqla deyə bilərik ki, bu yol üçtərəfli bəyanatda cəmi 1 nöqtədir. (Köçəriyan -7. Daxili məcburi köçkünlər və qaçqınlar Dağlıq Qarabağın ərazisinə və ətraf rayonlara BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Ofisinin nəzarəti altında geri qayıdır - bəndini nəzərdə tutur- red-Ə.R.) Əgər siz o bəyanata tam qayıtmağa hazırsınızsa, gəlin oturub müzakirə edək və Qarabağlıların Qarabağa qayıdışını danışıqlar prosesinə qaytara biləcəyimiz yeganə yer budur. Mən o fürsəti görürəm, imkandan istifadə etməli olduğumuz halda bunu etmirik, çünki bu hakimiyyət Qarabağlıların qayıtmasını istəmir, düşünür ki, bu, onların həyatını çətinləşdirə bilər".

Köçəriyan bunun üçün beynəlxalq təşkilatların zəmanətinin olmasını da bildirib:"Qarabağlı erməni heç bir beynəlxalq zəmanət olmadan getməyəcək. Əgər söhbət geri qayıtmaqdan



gedirsə, bu, müəyyən zəmanətlər paketini nəzərdə tutur ki, bu da müzakirə mövzusudur",

Köçəryan ATƏT-in fəallaşmasını da hazırkı hökumətdən tələb edilməsini önə çəkib:"Biz fəal şəkildə dəyişən dünya ilə qarşı-qarşıyayıq, nə baş verəcəyini heç kim dəqiq deyə bilməz, amma istiqamət bəllidir və bu müddət ərzində danışıqlar prosesinə dönməz itkilər gətirəcək addımların atılması axmaqlıqdır. ATƏT-in Minsk Qrupu nəyin bahasına olursa-olsun, qorunmalıdır"-deyə o fikrini aydın şəkildə izah edib.

Qeyd edək ki, hələ 2023-cü ilin antiterror əməlyyatından sonra Ermənistanın baş naziri Nikol Paşinyan canlı efirdə Ermənistan vətəndaşlarının və diaspor ermənilərinin suallarını cavablandırarkən dedi ki,bu gün bu insanların qayıdışı real olsaydı, onlar Qarabağı tərk etməzdilər.

Nikol Paşinyan Qarabağdan olan ermənilərin geri qayıtmaq üçün obyektiv imkanları və istəkləri olmadığı təqdirdə tezliklə Ermənistan vətəndaşlığı üçün müraciət edəcəklərinə və ölkədə həyata tam inteqrasiya edəcəklərinə ümid etdiyini bildirib:"Qarabağdan getmiş ermənilərin geri qayıtması beynəlxalq platformalarda müzakirə olunur, lakin bu gün bu qayıdış real deyil".

**Ə. Aslan**



Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az

# Hər şeir yazan şair deyil...

**İndi hər yerindən duran ya oxuyur, ya da şeir yazır. Və onların ifasına, yazdığı şeirə baxıb görürsən ki, cəfəngiyyatdır, mahnılar da yaman gündədir.**

**Bax, onda adamın ayaqlarının altından yer qaçır ki, gör, musiqimiz və poeziyamız nə günə qalıb. Biz universitetdə oxuyanda Aydın Əbilov adlı Azərbaycan dilinin qrammatikasından dərs deyən müəllimimiz vardı. O deyərdi ki, mən şerin bütün qayda-qanununu yaxşı bilirəm. İstəsəm, şeir yaza bilərəm, amma mənim yazdığım şeir yox, söz yığını olacaq, bax ona görə də yazmıram. Bu, böyük alimin, gözəl mütəxəssisin fikirləridir. Amma buna baxan kimdir?! Şeir yazan var ki, on kitabı çıxıb, hətta Yazıçılar Birliyinin uzvüdür.**

**O, on kitabın içində bir bənd gözəl şeir tapa bilmədim və bir poetik misraya rast gəlmədim. Deməli, hər şeir yazan şair deyil. Vaqif Bəhmənlinin gözəl bir şeiri yadıma düşür: "Dünyanın yazmayan şairləri var". Elə insanlar var ki, şairdir, ancaq şeir yazmır. Qalaq-qalaq kitabı çıxanlardan onlar daha yaxşı şairdir. Çünki onlar yaxşı bilirlər ki, şeir, poeziya nə deməkdir. Ona görə də alinə Aydın Əbilov kimə qələm götürüb şeir yazmırlar. Bu gün şeiri həm də gözdən salan özəl televiziya kanallarıdır. Belə ki, bu kanallar istedadlı şairlərə yox, meyxana deyənlərə saatlarla vaxt ayırır. Meyxananın Azərbaycan şeirinə heç bir dəxli yoxdur. Təəssüf ki, özəl kanallar bu dəyərlərə əhəmiyyət vermir, meyxanaçıları şair kimi təqdim edir və onlar da ağızlarına gələnlər şeir kimi tamaşaçıya sırıyırlar.**

**Əgər onlar şairdirlərsə, bəs onda Məmməd Araz, Bəxtiyar Vahabzadə, Eldar Baxış, Nüsrət Kəsəmənli, Ramiz Rövşən, Seyran Səxavət, Vaqif Bəhmənli, Vaqif Bayatlı Odər kimdir? Özəl kanallar heç olmasa, ildə bir-iki dəfə Ramiz Rövşənə, Seyran Səxavətə, Vaqif Bayatlı Odərə, Vaqif Bəhmənliyə yarım saat vaxt ayırsa, məgər dünya dağılar? O vaxtı bunlar ayırmırsa, heç olmasa, Az. TV və İctimai Televiziya ayırsın. Çünki adını çəkdiyimiz o istedadlı şairlər illərlə televiziyada görünmürlər, bəzi tamaşaçılar elə bilirlər ki, onlar sağ deyillər. Ona görə də, vallah, hər şeir oxuyana, hər şeir yazana şair demək olmaz!..**

## Adamın dili şirin olsa...




**Deyirlər ki, şirin dil ilanı da yuvasından çıxarar. Bu sözlərdə böyük həqiqət var.**

Və həqiqət də ondan ibarətdir ki, şirindilli insanlar hamı tərəfindən sevilir. Nəyə görə bunu deyirəm! Bizim yaşadığımız Yeni Günəşli qəsəbəsində " D" massivində bir poçt var. Kommunal borcları ödəmək üçün ayda bir dəfə yolum o poçtdan düşür.Xidmət sahələrində bəzən görürsən ki, bu söz soruşursan sən başdangetdi, açı cavab verirlər. Amma bu poçtda abı- hava başqa cürdür.

Çünki uzun müddət burda işləyən Sevinc xanım və Turac xanım çox mədəni, alicənab , şirindil insandır. Bəzən ödəniş edənlərin sayı artır və növbə yaranır. Amma xanımlar insanlarla o qədər mədəni rəftar edir ki, hecadamın ruhu belə incimir. Mən inanmıram ki, kimsə onların xidmətindən narazı qalsın.

Belə ki, Sevinc xanım hər bir insana,"başına dönüm", " qadan alım", "qurban olum",- deyir. Və xidmət etdiyi yerdə elə bir aura yaradır ki, heç kim orda özünü pis hiss etmir.Poçta ödəniş etməyə gələn insanlar isə bu mehriban xanımın onlara doğma münasibət bəsəməsindən heyran qalırlar.Yaşlı bir pensiyaçı Sevinc xanıma yaxınlaşıb ona kömək etməsini istədi.

Dedi ki, hamı pensiyanı alıb, mənim kartımda pul olmadığına görə ala bilməmişəm. Sevinc xanım onu diqqətlə dinlədikdən sonra bildirdi ki, " Koroğlu" metrostansiyasının yaxınlığında " Dost" xidməti var, ora müraciət elə, sənə kömək göztərərlər. Onu düzgün istiqamətləndirdiyinə və səmimi münasibətinə görə ağsaqql ona təşəkkür elədi.

Bax xidmət sahələrində Sevinc xanım kimi, Turac xanım kimi mədəni və şirindil insanlar çalışmalıdır ki, əhali onlardan razı qalsın, xoş ovqatla həmin yerlərdən ayrılsınlar!

**EMİL FAİQOĞLU**

## Hər kitab bir ürəkdi...




**Bu gün kitab oxuyan adamlar dünyada o qədər də çox deyil.**

Bizim ölkəmizdə isə lap azdır. Çünki internet resursları, sosial şəbəkələr elə çoxalıb ki, informasiya bolluğunada inanlar yeni texnologiyalara çap mətbuatından, kitabdan artıq önəm verirlər. Amma vallah, kitabın yerinə o dediyimiz mənbələrin heç biri verə bilməyib və bundan sonra da verə bilməyəcək. Ona görə də orta və yaşli nəsildən olan insan bu gün kitaba daha böyük sevgi göztərir. Tələbə yoldaşım, istedadlı yazıçı - jurnalist Zemfira Ələkbərova da son vaxtlar bir- birindən gözəl romanlar, povestlər, hekayələr və publisistik yazılar qələmə alıb. Və onları kitab şəkilində çap edirib.



Zemfira xanımın" Qızılgülün göz yaşları" kitabında roman, povest, hekayə və publisistik yazıları toplanıb. "Qızılgülün göz yaşları" romanında hazırda geniş yayılmış narkomanlığın ailələrə necə bədbəxtlik gətirdiyindən, qadınlara qarşı zorakarlıqdan, qızları təhsildən yayındıran ,erkən yaşlarda ərə verilməsinin acı nəticələrindən söhbət açılır. Heç şübhəsiz, bütün bunlar oxucunu düsündürür, həyata açıq gözlə baxmağa sövq edir.

" Ölüm mələkləri" ndə isə vətənimizin əzəli və əbədi düşməni olan ermənilərin biz türklərə qarşı törətdikləri soyqırımdan, gənclərimizin vətənpərvərliyindən, onların düşmənə qarşı necə birləşib mübarizə aparmasından bəhs edilir. Düşünür ki, Zemfira Ələkbərovanın hər iki kitabı oxucular tərəfindən böyük maraqla qarşılanacaq!..

## Parka xələl gətirir...

**Bu gün Bakıda bir- birindən gözəl parklar və xiyabanlar salınıb.**



İndi də belə müsir parklar inşa edilməkdədir. Belə gözəl parklardan biri də metronun " Azadlıq" stansiyasının yaxınlığında salınıb. Fevralın 14- də bir çıskin yağış yağdığı gündə yolum o parkdan düşdü. Hava çox təmiz idi, belə gözəl havada parkda gəzmək adama ləzzət edirdi. Çünki burda çoxlu sayda şam və digər ağaclar var. Elə havanı da gözəlləşdirən , oksigenlə zənginləşdirən bu ağaclar, bu yaşıllıqlardır. Parkda müasir tələblərə cavab verən çoxlu oturacaqlar quraşdırılıb.Yağışla hava olsa da , burda çoxlu insan gözə dəyərdi. Hətta iki sevgili gənc- oğlan və qız yağışın yağmasına baxmayaraq, şirin söbət edirdilər.

Çiskin yağışsa, çox ləzzətlə yağırdı. Və mənim özum də bu təmiz havada , patkın içində 20 dəqiqə gəzdim. Yağışdan islansam da, amma təmiz havadan ləzzət alırdım. Bir qədər hərəkət edəndən sonra üfunət qoxusu hiss etdim. Yaxınlaşıb gördüm ki, burda bərbad gündə olan tualet var. Tualetin içi elə çirkab içindədir ki, ora hər adam girib təbii ehtiyacın ödəyə bilməz, ancaq naəlac qalıb girənlər də var.Görünür, park təmir ediləndə tualeti yenidən tikmək və müasir üslubda inşa etmək işgörənlərin ya yadlarından çıxıb, ya da sonraya saxlayıblar. Bu gün gözəl parka xələl gətirən və onu gözdən salan həmin tualetdir.

Yaxınlıqda yaşayan sakinlərdən biri olan Novruz Əhmədov dedi ki, patkımız çox gözəldir, ancaq tualet qoxusundan burda gəzə bilmirik. Ya bu tualeti təmiz saxlasınlar, ya da yenisini inşa etsinlər. Bax, onda burda dincəlməyin özgə ləzzəti var. Bax , bu parka xələl gətirən problem vaxtında aradan qaldırısa, insanların orda istirahətində heç bir əngəl yaranmaz!

## 104 nömrəli avtobuslar bərbad vəziyyətdədir...

**Metronun " Koroğlu" stansiyasının yaxınlığından "Həzi Aslanov" a qədər hərəkət edən 104 nömrəli marşrutda birmənalı olaraq deyə bilərik ki, bu avtobusların hamısı fiziki və mənəvi cəhətdən köhnəlib. Başqa sözlə demiş olsaq, həmin avtobuslar istismar müddətini çoxdan başa vurub. İkincisi də , avtobuslarda oturacaqlar sınıq- salxaq və bərbad vəziyyətdədir.**

Ona görə də, sərnişinlər marşrutun xidmətindən çox narazıdır.Bununla yanaşı, avtobusların salonu çirkli olur, antisanitariya hökm sürür. Çox təəssüf ki, daşıyıcı şirkət mövcud nöqsanları aradan qaldırmır, əksinə onlar çatışmazlığı göz yumur. Bakıda bərbad vəziyyətdə olan belə marşrutlar kifayət qədərdir.Ona görə də Yerüstü Nəqliyyat Agentliyi bu məsələləri nəzarətdə saxlamalı,bərbad vəziyyətdə olan marşrutu alıb, daha işgüzar şirkətə verməlidir.Təbii ki, yeni şirkət isə marşruta müasir, yeni avtobuslar buraxmalıdır ki, sərnişinlərə xidmətin keyfiyyəti yüksəlsin, insanlar onlardan razı qalsın!



## Şərafətin çayından yoxdu...

**Mən çaydan gözəl içki tanımıram. Belə bir deyim də var:" Çay nədir, say nədir, çıxdı beşə vu on beşə". Hamı istəyir ki, içdiyi çay dadlı- ətirli oldum. Pürrəngli, xoruzqiyruğu çayın isə özgə bir gözəlliyi var. Mən çox yerdə çay içmişəm, amma Yeni Günəşlidə Şərafətin çayxanadındakı çayın dadını heç yerdə görməmişəm.**



Bu çayxanaya dostlarımız Səməndər müəllimlə, polkovnik Yaşar müəllimlər, Şikar müəllimlə, Fəxrəddin müəllimlə tez - tez gedirik. Çünki burdakı çayın dadı hər yerdə olmur. Şərafət qardaşımızın çayı kimi dili də çox gözəldi. Allah onu gözəl xasiyyət kimi, gözəl də qabiliyyət verib. İçəri keçən kimi tanıdı- tanımadı hamını mehribanlıqla qarşılayır.Və sonra da müxtəlif otlardan bir çay dəmləyir ki, gəl görəsən! Çaynikin içinə dağların hər cür otunu- çiçəyini atır.

Onun dəmlədiyi çaydan Qoşqarın, Kəpəzin, Şahdağın ətri gəlir.Hər güldə, çiçəkdə bir gözəllik, bir qoxu var.Bax ona görə Şərafətin çayı belə dadlıdır. Onun dəmlədiyi çaydan hər dəfə içəndə polkovnik Yaşar bəy deyir ki, vallah, Şərafətin dəmlədiyi çaydan yoxdu. Bu sözləri tək Yaşar müəllim demir, ha! Bu sözləri çayxanaya gələnlər, o cümlədən Səməndər müəllim, Faiq müəllim, Şikar müəllim, Fəxrəddin müəllim də deyir. Onlar onu da deyirlər ki, əgər ölkəmizdə çayçılar arasında yarış keçirilsə, Şərafətin dəmlədiyi çay birinci yerə çıxar! Ona görə ki, onun dəmlədiyi çaydan Azərbaycanın və bütün Türk Dünyasının ətri gəlir. Yoxsa, Rasimin çayı? Onun çayi Arazın lilli suyuna oxşayır. Bilmirsən ki, içdiyin lilli südü, yoxsa çay?Uzun sözün qısası hansı çayxanada çay içsək Şərafətin cayının yerini vermir. Təbii ki, onun dəmlədiyi çaydan içəndə dostlarımız dönə - dönə deyir ki, doğrudan da Şərafətin çayından yoxdu...

## Əlverişsiz hava şəraiti...

**Ölkəmizdə hava şəraiti tez- tez dəyişir. Çünki indi kiçik çillədi.. Sinoptiklər isə məmləkətimizdə fevralın 14- dən havanın dəyişəcəyini, yağış yağacağını, dağlıq rayonlarda isə qar olacağını öncədən məlumat verib. Ona görə də əlverişsiz hava şəraiti ilə əlaqədar nəqliyyat vasitələrinin sürücüləri də maarifləndirilib.**



Baş Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr şöbəsinin inspektoru Elvin Hacıyev " Ədalət" in əməkdaşına bildirib ki, belə yağışlı- yağmurlu havada sürücülər daha diqqətli olmalı, şürət həddinə əməl etməli, magistral yolda ara məsafəsi saxlamalı, manevr və ötmə əməliyyatını məsuliyyət yerinə yetirməli, qarlı havada, yollar buz bağlayanda təkərləri qış mövsümünə uyğunlaşdırmalı, texniki cəhətdən nasaz avtomobilin sükanı arxasınada əyləşməməli, təcrübəsiz sürücülər həmin günlər nəqliyyat vasitələrini idarə etməkdən uzaq durmalıdırlar.

**Heç kimə sirr deyil ki, əlverişsiz hava şəraitində yolnəqliyyat hadisələrinin baş verməsi ehtimalı daha da artır. Göründüyü kimi, sürücülər birmənalı olaraq yol polisinin tövsiyələrinə əməl etməyə borcludurlar. Ən azından tövsiyələrə əməl etmək hər bir hərəkət iştirakçışının mənzil başına sağ - salamat çatması deməkdir.**

**EMİL FAİQOĞLU**



# Bakıda Asiya Parlament Assambleyasının plenar sessiyası keçirilib

**Bakıda Azərbaycanın sədrliyi ilə Asiya Parlament Assambleyasının (APA) 15-ci plenar sessiyası keçirilib.**

”Asiyada çoxtərəfli əməkdaşlığın gücləndirilməsində parlament diplomatiyasının rolu” mövzusuna həsr olunan tədbirin açılış mərasimində çıxış edən Milli Məclisin sədri Sahibə Qafarova bildirib ki, Azərbaycan BMT-nin qətnamələrini təkbaşına yerinə yetirib, öz ərazi bütövlüyünü bərpa edib.

Onun sözlərinə görə, Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, dünyanın indi ehtiyacı olan ən əsas məsələ beynəlxalq norma və prinsiplərə tam əməl olunmasıdır: ”Mənfi tendensiyaları geri qaytarmağın, dünyada sülhə, əminamanlığa nail olmağın yeganə yolu çoxtərəfli əməkdaşlıqlardır”.

Milli Məclisin sədri qeyd edib ki, qlobal ictimaiyyətin yekdil dəstəyi ilə Azərbaycanın COP29-a ev sahibliyi edən ölkə kimi seçilməsi, tədbir çərçivəsində Azərbaycanın rəhbərliyi ilə mühüm qərarların qəbul edilməsi ölkənin çoxtərəfliliyə sadiqliyinin zirvəsi olub.

S.Qafarova Milli Məclisin müxtəlif parlament təşkilatlarının işində fəal iştirak etdiyini diqqətə çatdırıb.

O bildirib ki, bu gün Azərbaycan parlamenti APA ilə yanaşı, daha üç parlamentlərarası təşkilata - İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasına, Türk Dövlətlərinin Parlament Assambleyasına və Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinə sədrlik edir.

O, xüsusilə, qeyd edib ki, Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılıb ki, bu da ölkənin çoxtərəfliliyə daha bir mühüm töhfəsidir.

S.Qafarova vurğulayıb ki, parlamentarizmin əsas məqsədlərindən biri parlamentlərin ölkələrin sərhədləri çərçivəsindən kənara çıxmasıdır: ”Biz hazırda APA-nın büdcəsinin formalaşdırılması haqqında qərarın əldə olunmasına da yaxınıq. Bütün bunlar APA-nın güclənməsinə şərait yaradacaq”.

### *APA Fələstin məsələsini diqqət mərkəzində saxlayır*

Açılış mərasimində çıxış edən APA-nın Baş katibi Mohammad Reza Majidi isə bildirib ki, Azərbaycan Asiya Parlament Assambleyasına sədrliyi üzərinə götürməklə güclü əməkdaşlıq nümunəsi nümayiş etdirdi.

O qeyd edib ki, Assambleyaya aid proqramlar Azərbaycanın sədrliyi ilə



tam yerinə yetiririb:

”Biz parlamentlərarası əməkdaşlığı daha da gücləndirməyə çalışırıq. Hazırda sıralarımız genişlənməkdədir. APA çox vacib parlament platforması olaraq Fələstin məsələsini diqqət mərkəzində saxlayır”.

### *Asiyanın səsini eşitdirməliyik*

Bəhreyn Şura Məclisinin sədri Əli Saleh Abdulla Əlsaleh isə Plenar Sessiyasında çıxışı zamanı bildirib ki, dünya əhalisinin 60%-nin yaşadığı Asiya dünyada bir çox sivilizasiyalarının beşiyidir:

”Qlobal qarşılıqlı əlaqələrin olduğu bu dövrdə regional münaqişələr, enerji təhlükəsizliyi, müstəmləkəçilik və hegemonluq siyasəti çağırışlar regional dövlətlərin sərhədlərini aşır və ağır nəticələrə malik olur. Biz Asiya xalqının nümayəndələri olaraq bu qitənin bütün maraqlı tərəflərinin və insanlarının səsini eşitdirməliyik”.

### *Bakı Bəyannaməsi qəbul edilib*

İki gün davam edən və 35 nümayəndə heyətinin, o cümlədən, ümumilikdə 280 nəfərə yaxın nümayəndənin iştirak etdiyi tədbirdə Asiya Parlament Assambleyasının Azərbaycanın sədrliyi dövründə böyük uğurlar qazanacağına inam ifadə olunub.

Tədbirdə APA-nın regional problemlərin həllində və regional inteqrasiyanın sürətlənməsində mühüm rolundan, qurumun regionda davamlı inkişafın, insan hüquqlarının, sülh və sabitliyin təşviqi, çoxtərəfli əməkdaşlığın gücləndirilməsi kimi məsələlərə önəm verdiyi bildirilib, bununla bağlı ümumi məqsədlərə çatmaq üçün həyata keçirilən tərəfdaşlığın vacibliyindən bəhs edilib.

Plenar sessiyada Asiya Parlament Assambleyasında Bakı Bəyannaməsi qəbul olunub.

2025-ci il üçün Sosial və mədəni məsələlər üzrə daimi komitənin sədrliyinə Rusiya Federasiyası, Büdcə və planlama daimi komitənin sədrliyinə Qətər Dövləti, İqtisadi və davamlı inkişaf daimi komitənin sədrliyinə Bəhreyn Krallığı, Siyasi məsələlər üzrə daimi komitənin sədrliyinə İran İslam Respublikasının namizədliyi irəli sürülüb və qəbul olunub.

**Qeyd edək ki, 2026-cı ildən quruma Bəhreyn sədrlik edəcək.**

**Nicat NOVRUZOĞLU**

*Aqşin Yenisey*



## *Rus təkcə içki düşkünü deyil, həm də cəza düşkündür*

***Ruslardan söz düşmüşkən:***

***İngilis antropoloqu Ceffri Qorerin rus xarakterinin necə ata-qana dolması haqqında yazır ki, rus xalqının həmişə onları cəzalandıran avtoritar bir liderə boyun əymək ehtiyacının səbəbi rusların öz övladlarını lap körpəlikdən yeri gəldi-gəlmədi kötəkləməsi ilə bağlıdır. Boşboşuna döyüldükdən sonra uşaqların əzizlənməsi, incidilmiş qəlbrlərinin ovudulması üçün onlara kiçik hədiyyələrin verilməsiylə ruslarda uşaq vaxtından cəza və mükafat arasında bir bağ olduğu düşüncəsini yaradır.***

***Ənənəvi tərbiyənin yaratdığı bu düşüncə zamanla bütün rus xalqının milli şüuruna çevrilib və ruslar milli gücə çevirdikləri bu ənənəvi əziklikdən pöhrələnən xarakterlərini tarix boyu onlara döyüş meydanında məğlub olan xalqlara da yoluxdurublar.***

***İngilislərin mühafizəkar puritan əxlaqı da tərbiyələndirmə üsulu olaraq uşaqların kötəklənməsini vacib sayır. Amma nə üçün rusları itaətkar edən kötəkləmə ingilisləri üsyankar etmişdi? Çünki müti babası balaca Qorkini axmaqlıq etməzdən əvvəl döyürdü. Necə ki, böyüyəndə daha yaxşı ötsünlər deyə körpə vaxtı saka qus?larının go?zlərini oyurlar.***

***Dikkensi isə əyyaş atası o, axmaqlıq etdikdən sonra əzişdirirdi.***

***Ədaləti qabaqlayan cəza insanı, xalqı əxlaqsızlaşdırır, dəyərsizlik mühiti yaradır. Dostoyevskinin, Qorkinin tipik rus qəhrəmanları müti və qəddardırlar. Qəddarlıqları mütilikIərinin qisası kimi üzə çıxır. Onlar uşaqlıqdan özlərinə dəyər verməkdən məhrum olduqları üçün başqalarına da dəyər verə bilmirlər, əvvəlcədən cəzalandırıldıqları üçün boyunlarına qoyulan suçlu, cinayətkar bi kimliklə gəzib-dolaşırlar.***

***Balaca Dikkensdə isə cəza suçdan sonrakı ədalətin icrasıydı, suça görə verilən ədalətli cəza ingilisdə ədalətsiz cəzaya qarşı dirənmək əxlaqını yaratmışdı. Rus uşaqlığından bəri suçdan əvvəl cəzalandırıldığı və buna görə əzizləndiyi, mükafatlandırıldığı üçün ”cinayət və cəza” axtarışı onda psixoloji ehtiyacdan doğur. Rus təkcə içki düşkünü deyil, həm də cəza düşkündür. Raskolnikov özünün milli cinayətkar instinktini ovutmaq üçün cəza axtarırdı, bundan ötrü o günaha batmalıydı. Sələmçi qarı olmasaydı da o, başqa bir bəhanə tapıb cinayət törədəcəkdi.***

***Tanrının lənəti və mərhəməti rusun həyatına günahla birlikdə daxil olur.***

***Rus həyata anadangəlmə cinayətkar olduğu düşüncəsiylə atılır və ömrü boyu öz cəzasını axtarır.***

***Bolşevizm Raskolnikov sürülərinin kütləvi cəza axtarışıydı.***

# "Coca-Cola" Rusiyaya dönür: Tramp mövqeyini bəlli etdikcə...

**Bildiyiniz kimi, Rusiyanın Ukraynada xüsusi hərbi əməliyyata başlamasından sonra McDonald's, Nike Inc., Adidas AG, Inditex S.A kimi bir çox Qərb şirkətləri (Zara, Pull&Bear, Massimo Dutti, Bershka), Rusiya Federasiyasındakı işlərini dayandırmaq və ya Rusiya bazarını tamamilə tərk etməklə bağlı qərar qəbul etmişdi. Rusiyanın Ukraynaya qarşı müharibəyə başlamasından bir ay sonra isə - 2022-ci ilin martında qazlı içkilər istehsalçısı ”Coca-Cola”-nın Rusiyadakı distribyutoru - ”Coca-Cola Hellenic Bottle Company” (Coca-Cola HBC) ölkədə içkilərin istehsalını və satışını dayandırdığını elan etdi.**

Adalet.az xəbər verir ki, ötən ilin aprel ayında ”Rospatent”ə ticarət nişanının qeydiyyatı üçün üç ərizə verdiyini açıqlayan şirkət növbəti açıqlamasını Mash TV -yə verib.

Şirkətin Rusiyanı tərk etməzdən əvvəl olduğu kimi eyni istehsal güclərindən istifadə etmək niyyətində olduğu və artıq yerli rəqiblərlə əməkdaşlıq və paralel idxalla mübarizə strategiyasını hazırladığı fikrini bildirib:Şirkətin geri dönüşü gözləniləndən tez baş verə bilər”.







Xatırladaq ki, Rusiyada məşhur ”Coca-Cola” içkisinə əvəz elə həmin ayın sonunda tapıldı. Beləki, Uzaq Şərqdə fəaliyyət göstərən böyük müəssisələrdən biri klassik kola dadlı qazlı içkilər istehsal etməyə başladı.”Slavda” şirkətlər qrupu yeni məhsulun - ”Cola Grink” içkisinin istehsalına və satışına başlandığını elan eetdikdən sonra şirkət qeyd etdi ki, içki təbii mineral su əsasında hazırlanır və klassik kola dadına malikdir.

Yeni brend, rus kolası ”Skit” zavodunda 0,5 litr və 1,4 litrlik qablaşdırmada istehsal edildi və buna baxmayaraq müharibənin 3 ili ərzində Rusiyada ”Coca-Cola” təxminən 4 dəfə bahalaşıb.

***P.S.** Bir neçə gün əvvəl ABŞ prezidenti Donald Tramp Kiyevə təklif edib ki, nadir torpaq metalları yataqlarının yarısının işlənməsi üçün ABŞ-a daimi konsessiya versin. Trampın təklifində yalnız ABŞ-ın artıq təqdim etdiyi hərbi yardıma qarşılıq olaraq Ukraynanın resurslarını alacağı bildirilir və gələcəkdə belə dəstəyin- silah, sursat və digər hərbi ehtiyacların təminatının davam edəcəyinə dair heç bir öhdəlik yoxdur.*

***Yəni bu şərtli yardım ABŞda Rusiyaya qarşı olan sərtliyi azacıq da olsa yumşaldıb. Bu yaxınlarda həmçinin bildirildi ki, McDonald's Ağ Evdən icazə aldıqdan sonra Rusiyaya qayıtmaq niyyətindədir.***

***Görək Rusiya, eyni zamanda Ukrayna ”Coca-Cola”-nın bu addımına hansı reaksiyaları verəcək***

**Əntiqə Rəşid**

## *“Virus infeksiyaları isə qriplə müqayisədə daha rahat keçir”*

**”Kəskin respirator virus infeksiyaları çoxsaylıdır. Hər il fəsli qrip də daxil olmaqla bunlardan bir neçəsi epidemik fəsildə yoluxma hallarının sayında dominantlıq edir”.**

Adalet.az xəbər verir ki, bu fikirləri 93 FM dalğasında yayımlanan ”Sağlam radio”da Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, infeksionist Təyyar Eyvazov açıqlayıb.

Onun sözlərinə görə, bunların içərisində qrip infeksiyası geniş yayılıb və bir sıra hallarda ağır keçir:

”Digər respirator virus infeksiyaları isə qriplə müqayisədə daha rahat keçir. Buna görə də, bu tip fəsli infeksiyalardan törənəcək xoşagəlməz halların qarşısının alınması məqsədilə birinci növbədə qripin spesifik profilaktikası aparılmalıdır. Təsadüfi deyil ki, hər ilin yay aylarında ÜST növbəti epidemik fəsil üçün dövr edəcək qrip virusu ştamlarının növünü proqnozlaşdırır və profilaktik peyvəndlər də məhz buna əsasən hazırlanır. Sentyabr-oktyabr aylarında qripə qarşı müvafiq peyvəndlər Səhiyyə Nazirliyi tərəfindən əldə edilərək, ölkəyə gətirilir və ambulator xidmət göstərən tibb müessisələrinə paylanılır. Bu peyvəndlər artıq neçə illərdir ki, dünyanın inkişaf etmiş ölkələrində dəfələrlə öz effektivliyini və təhlükəsizliyini sübut etmiş və qripə yoluxma hallarının sayının azaldılması və ağırlaşmaların profilaktikasında mühüm rol oynayır”. Mütəxəssis-ekspert bildirib ki, mövsümi viruslardan qeyri-spesifik qorunma yolları isə universal olub xəstələrlə təmasların azaldılmasına xidmət edən tədbirlərdən ibarətdir: ”Buraya maskann geyilməsi, sosial məsafənin gözlənilməsi, respirator və əl gigiyenası aiddir.

Hazırda ölkəmizə Səhiyyə Nazirliyinin xətti ilə qripə qarşı kifayət qədər effektiv və təhlükəsiz olan peyvəndlər gətirilib və ambulator-poliklinik yardım göstərən tibb müəssisələrinə paylanılıb. Qripə qarşı peyvənd olunmaq istəyən şəxslər yaşayış və ya iş yeri üzrə əhaliyə ambulator-poliklinik xidmət göstərən dövlət tibb müəssisələrinə müraciət edə bilərlər”.



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# Günlər yaman uzundur

Yazıma bu başlığı təsadüfdən seçmədim. Əslində bu başlıq mənə aid deyil, onun müəllifi var. Həmin müəllif də Azərbaycanın dəyərli yazıçısı, sözün həqiqi mənasında zəngin yazı dili olan mərhum İsmayıl Qarayevdir. İki gün öncə içimdə bir qəribə bir rahatsızlıq var idi. Özümə yer tapa bilmirdim.

Bir az televizorun qarşısında oturdum alınmadı sonra musiqiyə qulaq asmaq istədim yenə faydası olmadı keçib dayandım kitab rəfimin önündə.

İlk əlim toxunan kitabı götürdüm. Adı "Kölgə" idi. Müəllifinə baxdım. İsmayıl Qarayev və başladım vərəqləməyə. Özü də arxadan, mündəricata baxa-baxa. Sanki axtardığımı tapdım:



- Günlər yaman uzundur.

Bəli, həqiqətən axtardığımı tapdım. Çünki sıxındığım o gün mənim üçün çox uzun və hətta sonsuz gəlirdi. Ona görə də evimə, yazı-pozu otağıma sığışmırdım.

Oxuduğum "Günlər yaman uzundur" başlığı məni oturmağa məcbur etdi. Yavaşca yazı stolumun arxasında əyləşdim və başladım oxumağa bəri başdan deyim ki, bu hekayə hardasa 40 səhifəyə yaxındır. Amma hər səhifədə bir kitablıq, bir romanlıq söz, fikir var. Müəllifin zəngin Azərbaycan dili sözləri muncuq kimi dənələdi oxucuya. Elə bilirsən ki, yaşlı-başlı bir adam oturub sənlə üzbəüz və sənə bir həyatı həm göstərir, həm də danışır. Burda "göstərir" ona görə xüsusi vurğulayıram ki, həqiqətən hekayəni oxuduqca adamın gözünün qabağına səhnələr gəlir. Sanki ekranda sənədli bir filmə baxırsan. Sadəcə səssiz bir filmə. Həmin o yaşlı-başlı adamın səsi isə müəllifin səsidir, özü həmin o səssiz filmin bir növü dilmanclığını edir və...

Burda vurğulayım ki, bu hekayə bir jurnalistin talehindən bəhs edir, bir yazı adamının yaşamağa məhkum edildiyi həyatı göstərir. Mən tərəddüd etmədən bu hekayənin həmin o jurnalist qəhrəmanın məhz müəllifin özü olduğuna imza atıram. Çünki bütün detallar onun özünün və ailəsinin yaşadığı həyat hekayəti idi.

Təsəvvür edin ki, sayılan, seçilən bir qəzetin imzası sayılıb-seçilən bir müxbiri həqiqəti dediyi üçün şərlənir, böhtana tuş gəlir və rüşvət verməkdə vasitəçi kimi hakim qarşısına çıxarılır, həbs olunur. Onun xəbəri olmadıbı cinayətin iştirakçısı kimi 6 il cəza alması əslində hər zaman baş verən hadisələrdən biridir. Amma bu hadisənin içərisində müəllifin peşəkarcasına oxucuya çatdırdığı, göstərdiyi həqiqətlər var. Onlardan birincisi həbsxanadakı daxili qanunlardı. Orda haqqı, ədaləti yerinə qoyan gunahlı günahsızı bir-birindən seçib ona uyğun da münasibət bildirən insanlardır. Bax, həbsxanaya düşən Taleh Qocayev ilk dəfə orada ədalətin şahidi olur, onu şərləyənlər - yəni əsl günahkarlar gözünün önündə cəzalarını alırlar. Təbii ki, bu, heç nəyi dəyişmir, amma Talehin içindəki ümidi ölməyə qoymur. Bilir ki, gec-tez o öz ədalətinə qovuşacaq.

Bu hekayədəki ikinci məqam həbsxanadan çıxan adamın iş tapa bilməməsidi. Onun günahlı günahsız olmasına əhəmiyyət vermədən həbs olunduğuna görə heç kim işə götürmür. Ailə - yəni 4 uşaq və 1 xanım hər gün iş axtaran atanın hansı halda, hansı sifətdə, hansı ovqatda evə qayıtdığını görür və susurlar, çəkilirlər öz guşələrinə. O, Talehin bir az da sındırır, bir az da özünə, həyata üsyankar edir. Amma...

Bu hekayədə bir məmur obrazı da var. Talehin tanıyan məmur. Onun necə jurnalist olduğunu bilən məmur. Çox böyük bir kürsüdə oturur. Taleh onun da qəbuluna gedir və həmin məmur - yəni Murtuza Sadıqov onu dinləyir. Kömək etmək istəyi ilə əlini telefona atır. Lakin həbs olunmuş bir adamın işə götürülməsini xahiş etməkdən, tapşırıq verməkdən çəkinir. Qorxur ki, bu onun özünə problem olar. Bunun üçün yuxarılarla məsləhətləşmək lazımdır və Talehə deyir ki, sabah mənimlə əlaqə saxla. Bu məqam həmin məmurun vaxt qazanmaq hiyləgərliyidi - yəni nə köhnə tanışına "yox" deyə bilmir, nə də "hə". Bu iki sözün arasında vaxt qazanmaq üçün "savab" vədindən istifadə edir...



Mən hekayədə qarşılaşdığım ən böyük gerçəklikdən biri də yıxılana dostun, tələbə yoldaşının, hətta qonum-qonşunun da laqeydliyinin də bir daha şahidi oldum. Bu adamların hər biri, necə deyərlər "suyu üfürə-üfürə içirlər". Dünən adı ilə, peşəsi ilə fəxr etdikləri Talehin yanına məsləhətə, ehtiyaca gəldikləri Talehdən qaçırlar, ona dayaq durmurlar, əl uzatmırlar. Həqiqətən mən hekayəni oxuduqca onun necə bitəcəyini, müəllifin hansı sonluğu seçəcəyini dəqiqləşdirə bilmirdim. İlk düşündüyüm bu idi ki, yəqin hekayənin sonunda Taleh övladlarına "məni bağışlayın, sizin üçün heç nə edə bilmədim" qəbzini yazıb intihar edəcək. Çünki mən başqa bir yol ağlıma gəlmirdi. Ancaq...

Hekayənin sonu tamam fərqli oldu. O fərq də sahə müvəkkilinin həqiqi mənada İNSAN obrazı idi. Cavan sahə müvəkkili həbsdən çıxmış Talehin evinə baş çəkir və evin xanımı Talehlə sahə müvəkkili olan Bəxtiyarın qarşısına çay qoyur. Bəxtiyar çayı içəndən sonra evin xanımından - yəni Kəmalədən zənbil istəyir. Qeyd edir ki, xəstəxanadan çıxmış yaxın bir dostuna baş çəkəcək.

Evdən zənbil götürməyi unudub. Bu çox səmimi bir detaldı, Kəmalə də, Taleh də bu səmimi istəyi normal qarşılayır və ona zənbil verir. Bəxtiyar həyətə düşür və geri qayıdır.

Əlində güclə daşıyıb gətirdiyi zənbili otağın qapısının ağzına qoyur və yenə maşına qayıdır. Növbəti bir bağlamanı da gətirir. Taleh düşünür ki, yəqin Bəxtiyarın dostu bu binada yaşayır və evdə olmadığı üçün Bəxtiyar bazarlığı onlara əmanət qoymaq niyyətindədi. Lakin...

Bəxtiyar son dərəcə səmimi bir istəklə, sayqı ilə evin sahiblərinə üz tutur:

- Bunlar sizin üçündür, bir balaca qardaş payıdır. Çox xahiş edirəm, sözümü yerə salmayın...

Sonra üzünü Talehə tutur, geyinin, birlikdə çıxaq. Gedək bir xəlvət yerdə oturub bir az şənlənək.

Heç nə anlamayan ev sahibləri, xüsusilə Taleh çaş-baş bir vəziyyətdə ağlından min cürə fikirlər keçirə-keçirə Bəxtiyara qoşulub evdən çıxır. Və bir də görür ki, Bəxtiyar onu öz evinə gətirir. Evin xanımı qapını açıb onun yanındaca öncə Bəxtiyarı öpür, sonra ona əlini uzadıb: - Əmi, xoş gəlmisən, deyir. Və sonra evin balaca uşaqları onun üstünə yüyürüb boynuna sarılıb öpürlər. Talehi qonaq otağına keçirirlər. Süfrə hazır, hər şey yerli-yerində. Evin sahibəsi Reyhan xanım hazır süfrənin üstündən örtüyü götürür. Taleh bütün baş verənləri yuxu hesab edir. Amma yox, Bəxtiyar ona özünün və ailəsinin sevgisini dilə gətirir. Bildirir ki, biz böyük bir ailəyik. Sizin həyatınızı da gözəl bilirik. Haqsız həbs olunduğunuzdan da xəbərimiz var. Sonra Reyhan xanım ortaya bir çamadan gətirib qoyur, qapağını açır, çamadanda Talehin uşaqları və xanımı üçün geyimlər, hədiyyələr qoyulur. Sonra onun özü üçün alınmış ayaqqabı və köynəyi də gətirirlər. Nəhayət, Bəxtiyar deyir:

- Reyhanın qardaşı ticarətdə müdirdir. Ona demişəm, sabah sizi işə götürəcək. Gedin, orda şərait normaldır, yazınızı yazın, işinizdə də işləyin. Yazmaq üçün hər yerdə şərait var.

Bəli, bu sonluq mənim üçün gözləmədiyim, hekayə boyu ağlıma gətirmədiyim ən möhtəşəm sonluq idi. Bununla yazıçı insanlığın ölmədiyini, yaxşıların hər yerdə var olduğunu, ən vacibi isə ədalətin qalib gələcəyini zəngin bir dillə oxucuya çatdırır.

Bax, onda uzun olan günlərin maraqlı sonluğu həm oxucunun, həm də bu həyatı yaşayanın canından yorğunluğu da, ağrı-acını da, ümidsizliyi də çıxarır. O uzun gün bir sevinc qoyur ortaya. Hər kəsə dar ayaqda gərək olan SEVİNC!

Bəli, İsmayıl Qarayevin indi oxuyub başa çatdığım və barəsində fikirlərimi bölüşdüyüm bu hekayə mənim də sıxıntımı ümidə caladı. Heç vaxt ümidsiz olmayın. Necə deyərlər, gecələrin sabahları da var.

## *ABŞ mətbuatı Azərbaycanı İsrailin mühüm müttəfiqi adlandırdı*

**Azərbaycan İsrailə dost ölkə olmaqla yanaşı, ABŞ-dən sonra ikinci ən əhəmiyyətli müttəfiqdir.**

Adalet.az xəbər verir ki, bu barədə İsrailin ərəb dünyası və İran üzrə tanınmış eksperti, İsrail Müdafiə Qüvvələrinin Kəşfiyyat Korpusunun sabiq polkovnik-leytenantı, bu ölkənin nüfuzlu Bar-İlan Universitetinin şərqşünaslıq elmləri üzrə professoru və Universitetin Yaxın Şərq və İslam Tədqiqatları Mərkəzinin direktoru, Begin-Sadat Strateji Araşdırmalar Mərkəzinin tədqiqatçısı doktor Mordexay Kedar ABŞ-nin "Jewish News Syndicate" nəşrində dərc olunmuş "Azərbaycan İsrailin təhlükəsizliyi üçün niyə vacibdir?" adlı məqaləsində yazıb.

Qeyd edilib ki, Azərbaycan ilə İsrail arasındakı münasibətlər qarşılıqlı hörmət və dostluq əsasında formalaşıb və bu, iki ölkə arasında birgə fəaliyyət, strateji əməkdaşlığın rəmzinə çevrilib.

Bildirilib ki, həm Azərbaycan, həm də İsrail üçün faydalı olan bu dostluq əlaqələrini qiymətləndirməmək olmaz.

Müəllifin fikrincə, Azərbaycan İsrailin Qərb müttəfiqlərindən fərqli olaraq, İsrail-Fələstin münaqişəsinə yanaşması ilə seçilir. Demək olar ki, bütün Qərb ölkələri İsrail terror aksiyalarına cavab verdiyi hallarda belə ona Fələstinlə bağlı təzyiq göstərsə də, Azərbaycan heç vaxt İsrail-Fələstin münaqişəsinin onun İsraillə münasibətlərinə mənfi təsir etməsinə imkan verməyib.

1990-cı illərin əvvəllərindən Azərbaycanın İsrailin enerji təhlükəsizliyinin əsas təminatçısı olduğu xatırladılıb.

Azərbaycanın İsrailə verdiyi neftin bu ölkənin enerji təhlükəsizliyi üçün önəmli olduğu vurğulanıb. Lakin bu tərəfdaşlıqdan yalnız İsrailin faydalanmadığı, Azərbaycanın da İsrail məhsullarını daima aldığı, 2000-ci illərin sonundan Azərbaycanın İsrailin ən böyük silah idxalçısına çevrildiyi diqqətə çatdırılıb.

**Məqalədə Azərbaycanın İsrail üçün başqa bir sahədə, yəni Yerusəlim və Ankara arasında vasitəçilikdə də əvəzsiz olduğu qeyd edilib. Müəllif Türkiyə və Azərbaycan xalqlarının özlərini iki dövlətdə yaşayan bir millət hesab etdiyini, Türkiyənin Azərbaycanın ən böyük müttəfiqi olduğunu yazıb. Azərbaycanın həm İsrail, həm də Türkiyə ilə yaxın əlaqələrinin onu hər iki ölkə üçün ideal vasitəçiyə çevirdiyini bildirib.**

## *AB Suriyaya bu sanksiyaları ləğv edir*



**Avropa Birliyi bir sıra sahələrdə Suriyaya tətbiq edilən sanksiyaları dayandırmaq niyyətindədir.**

Bu barədə "Röyters" məlumat yayıb.

Agentliyin əldə etdiyi sənəddə AB Şurasının Suriyaya qarşı energetika, nəqliyyat, müharibədən sonrakı rekonstruksiya, habelə bu sahələrlə bağlı maliyyə və bank əməliyyatlarının aparılmasına sanksiyaların dayandırılmasından söz açılır.

# Sağ sözün sahibi

**Sanki Allah onu hamı üçün doğma yaratmışdı. O qədər doğma idi ki, onunla ilk tanışlıqdan hər kəs özünü ya onun bacısı, ya da qardaşı sayırdı. Davranışı, səmimiyyəti, diqqəti və qayğıkeşliyi fərqləndirirdi onu. Mən tanıdığım müddətdə bir dəfə də olsun onun səsinin azacıq da olsa yüksəldiyini eşitmədim, hiss etmədim. Telefon söhbətlərimizdə ilk kəlməsi "Salam, qardaş" olardı və mən də bu səsin sahibinə bacı deyirdim. Özümə bacı bildiyim Fərqanəyə aid olan səsə elə öyrəşmişdim ki, bəzən heç dəxli olmadan da zəng vurub hal-əhval tuturdum. Ömrünün son illərində daha çox telefonla danışırdıq. Nagini də özündə ehtiva edib.** Kitabın tərtibçiləri, redaktoru, elə bil ki, xüsusi bir diqqətlə, qayğı ilə sıralayıblar bu şeirləri.

Oxuduqca haldan-hala düşürsən, xatirələr təzələnir və ən vacibi vaxtsız itirdiyimiz bir şairin kövrək, həzin misraları həm də onun həyatının şəkili kimi durur qarşımızda. Fərqanə yazır ki:

*Bilirsən, dərd dolu körpü özümdən,*  
*Hayandan gəlirəm, hara gedirəm.*  
*Kəndiri özümdən, ipi özümdən,*  
*Neyləyim, çəkilib dara, gedirəm.*

*Keçmə qabağıma, kəsmə yolumu,*  
*Bu gün dostlarımın hayı olacaq.*

*Mənim kimim var ki, bu dar şəhərlə,*  
*Könlümü şeirlə ovundururlar.*

*Dönüb gələcəyəm Kür tərəflərə,*  
*Bir həsrət könlümü yenə də sıxır.*  
*Guya məktub idi sənə yazdığım,*  
*Nəyə əl atıram şeirlə çıxır*

Burda bir məqamı da vurğulayım ki, Fərqanə xanım ana itkisindən sonra ANA-ya daha çox üz tutan, ona daha çox kövrək misralar həsr edən şairlərimizdən biri idi və şəxsi söhbətlərimizə mən bu mövzu ilə bağlı soruşanda kövrəlib vurğulamışdı ki, biz təkcə ana-bala deyildik, həm də bacı idik, rəfiqə idik. Bu söz mənim üçün içimdəki sualın birmənalı cavabı olmuşdu.

Ona görə də Fərqanə xanımın ana mövzusunda şeirlərini oxuduqca həmişə dediyi sözü özümdən asılı olmadan xatırlayıram. Və bir də Fərqanə xanım dünyasını dəyişən qələm dostlarına da, vaxtsız itirdiyimiz söz adamları ilə bağlı das həmişə bir sarsıntı yaşayırdı. Onların yoxluğu ilə barışa bilmirdi. Bir də görürdün ki, həmin o kədər onun mövzusuna çevrilib.

O yoxluq onun qələmində misralanıb. Yəqin bu da onun iç dünyasındakı çoxlarımızda olmayan itki ilə barışmamaq hissindən boy verirdi, özünü göstərirdi. Təbii ki, barışmazlıq Allahın iradəsinə qarşı çıxmaq deyildi, asilik deyildi. Amma burda bir az özü, öz duyğularını dilə gətirmək gerçəkliyi var idi. Bunu da Fərqanə Mehdiyeva edirdi, gizlətmirdi sızıltısını, hətta




**mərd xəstəlik onun təbəssümünü oğurlamışdı, onun sevincinə qənim kəsilmişdi. Amma buna baxmayaraq o, özünü ayaqda tuta bilirdi. Hətta kimlərinsə halına da yanırdı, onlara diqqət də göstərirdi. Dəfələrlə gənc yazarlardan kimisə göndərirdi yanıma və zəng edirdi ki, qardaş, bu istedaddır, onun yazılarının çapına kömək et.! Bax belə bir ürəyin sahibi idi Fərqanə Mehdiyeva!**

Elə bugünlərdə - yəni ötən istirahət günü dəyərli dostumuz, yazıçı-publisist Aləm Kəngərli bizi bir araya yığdı, oturduq ədəbiyyatdan, sənətdən, özümüzdən danışdıq, Fərqanəni də xatırladıq və həmin görüşdə Aləm Kəngərli redaktor olduğu və mənim barəsində yalnız məlumat bildiyim bir kitabı bağışladı mənə. Bu Fərqanənin ölümündən sonra işıq üzü görən "Gedirəm torpağı qucaqlamağa" adlı şeirlər kitabı idi

Düzünü deyim ki, kitabın adı bir anlıq məni gücsüz, təpərsiz, hətta nəfəszis etdi. Bilmirəm, kim tapmışdı o adı.

Amma qəribə idi. Üz qabığındakı şəkil o adla bir-birini elə tamamlamışdı ki, sanki Fərqanə indicə torpağı qucaqlayacaq. Mən yaşadığım həmin anın içərisində Fərqanənin səsini eşitdim. O hər söhbətimizdə torpaqdan, qovuşmaq istədiyi anasından, ümumiyyətlə, olumdan, ölümdən bəhs edərdi mənə. İndi kitabın adını oxuyanda həmin o söhbətlər onun öz səsində, yaddaşımda təzələndi və elə ona görə də həmin tədbirdən sonra bir xeyli düşündüm. Kitab rəfimdəki kitabları vərəqlədim. Yazıdığı avtoqrafları təkrar oxudum və qayıtdım Aləm Kəngərlinin mənə verdiyi kitaba

"Ulduz" jurnalının AYB ilə birgə layihəsi əsasında işıq üzü görmüş bu kitab Fərqanənin şeirlərinin təkcə mənzərəsini yox, həm də səsini, rən-

*Bəlkə də, düşürsən savabına sən,*  
*Sonbeşik şeirimin toyu olacaq.*

*Qıyma gözlərinin yaşına dönüm,*  
*Bu da qismət imiş qınaq olmağa.*  
*Kəsmə qabağımı, başına dönüm,*  
*Gedirəm Tanrıya qonaq olmağa.*

*Bu ayıq könlümü çətin yatdırım,*  
*Qələmim gecələr sınar, yorular.*  
*Bəlkə söz-sovum var, denən, çatdırım,*  
*Şairlər Allaha yaxın olurlar.*

*Bu da bir tilsimdir, çıxa bilmirəm,*  
*Beləcə qaçıram ölümə sarı.*  
*Hünərin çatırsa, bağla yolumu,*  
*Mən də sənin kimi yaşayım barı,*  
*Mən də adam kimi yaşayım barı.*

Bu şeiri oxuduqca təkcə bir ailənin, bir evin yaşamı deyil, həm də bir şairin bütün oxucularına duyğularını, hislərini ünvanlamasına şahid olursan.

Burda həm də ömür-gün yoldaşı ilə bir halallaşma, vidalaşma, hardasa baş verənlərlə bağlı həqiqətən üzücü olan etirafı da görmək mümkündür. Ona görə də şeir adamı tutur, adamın canına, qanına hopur. Şəxsən mən bu məqamda heç nə edə bilmədiyim üçün susmaqdan başqa bir çıxış yolu tapa bilmirəm. Ona görə də yenə üzümü tuturam həmin kitaba. Həmin kitabda isə Fərqanə anasına üz tutur, ona yazır:

*Göz aça bilmirəm iş-güc əlindən,*  
*Əllərim qoynumda bükülüb qalıb.*  
*Dağı aşırıram, işə nə var ki,*  
*Ana, şeirlərim tökülüb qalıb.*

*Kimi bazar tikir, kimi ev-eşik,*  
*Hamı da fırlanır bu Yerin üstə.*  
*Yarandığım gündən evim tikilib,*  
*Mən sətir qoyuram sətirin üstə.*

*Sağ olsun, sağ olsun yenə də dostlar,*  
*Başımın üstünü kəsib dururlar.*

anasına üz tutub deyirdi ki, "Apar məni yanına".

Mən Fərqanənin özündən sonra özünü mənə olduğu kimi xatırladan bu kitabını oxuduqca fikirlərimi necə bitirəcəyimi, düşüncələrimi necə kağıza köçürəcəyimi təxmin edə bilmədim. Elə ona görə də kitabdakı şeirlərdən birinin işığında onun məşhur "Təndir" şeirinin təsiri altında özüm də bilmədən indi sizə təqdim etdiyim şeiri oxumağa başladım:

***Deyirlər, üzü bərisən,***  
***Bir az qəlbinə dağ götür.***  
***Birdən yadına düşərəm,***  
***Yoluna ağ varaq götür.***

***Görən bilməz dilimi lal,***  
***Yığ yolların gülünü al,***  
***Şər qarışsa, könlümü al,***  
***Əllərinə çıraq götür.***

***Deyəsən, bəxtim gətirir,***  
***Qarşıma çıx sətir-sətir.***  
***Öləni hamı götürür,***  
***Barı sən məni sağ götür.***

**Bəli, bu şeir mənə çox məqamları xatırlatdı, çox dərin bir mənanı sərgilədi. Ən azından bir daha əmin oldum ki, həyat gəlimli-gedimli olduğu kimi, olumlu-ölümlü mənasını da gizlətmir, arxa plana çəkmir və insana, xüsusilə, söz adamına hiss, duyğu sahibinə pıçıldayır ki, heç kim ortada qalmır. Kimsə kimisə yerdən götürür, amma ölü kimi götürməkdənsə sağ kimi götürmək daha vacibdir, daha qiymətlidir. Deməli, Fərqanə bacımın özü bəlkə də hiss edib və yaxud hiss etmədən bizə pıçıldayıb bunu, deyib ki, məni sağ götürün. Biz sağ olduqca, söz var olduqca xatırlanacaqdı. Biz onu söz olan hər yerə özümüzlə götürəcəyik, sağ sözün sahibi kimi.**

**Əbülfət MƏDƏTOĞLU**

## *Seyran Səxavətin romanları ilə bağlı dissertasiya müdafiə edilib*



**Türkiyədə yazıçı, şair və publisist Seyran Səxavətin romanları ilə bağlı dissertasiya müdafiə edilib.**

Türkiyənin Egey Universitetinin Sosial Elmlər İnstitunun Türk dünyası ədəbiyyatları kaderasının magistr tələbəsi olmuş Sayad Həsənli tərəfindən hazırlanmış dissertasiya Seyran Səxavətin sosial-psixoloji romanlarına həsr olunub.

"Seyran Səxavətin həyatı, yaradıcılığı və sosial-psixoloji romanları" ("Seyran Sahavet'in Hayatı, Sanatı ve Sosyo-Psikolojik Romanları") başlıqlı elmi iş "Ön söz", "Xülasə", "Giriş", üç fəsil, "Nəticə" və tövsiyələrdən ibarət olub.

Tədqiqatın "Giriş" hissəsində Seyran Səxavətin həyatı və ədəbi fəaliyyəti ümumi şəkildə nəzərdən keçirilib. "Seyran Səxavətin həyatı, ədəbi şəxsiyyəti və əsərləri" adlı birinci fəsildə müəllifin həyatı, ədəbi kimliyi və fəaliyyəti həm onun xatirələrinə, həm də Azərbaycanın digər görkəmli ədəbi şəxsiyyətlərinin fikirlərinə və biblioqrafik mənbələrə əsaslanaraq analiz edilib.

"Seyran Səxavətin romanları" adlı ikinci fəsildə isə yazıçının sosial-psixoloji romanları - "Daş Evlər", "Nekroloq" və "Yəhudi Əlifbası" romanlarının hər biri, beynəlxalq roman analizi texnikası əsas götürülərək ad-məzmun, sujet xətti, obrazlar aləmi, tema, zaman-məkan, dil və üslub, baxış bucağı və təhkiyəçi nöqteyi-nəzərindən təhlil edilib. Bundan əlavə, romanların müqayisəli təhlilinə yer verilib.

"Sosial-psixoloji romanlarında cəmiyyət və fərd problemi" başlıqlı üçüncü fəsildə isə ədəbiyyat, cəmiyyət və fərd anlayışlarının elmi ədəbiyyatda necə işlənildiyi araşdırılıb və mövzunun əhəmiyyəti vurğulanıb. Bu fəsildə yazıçının romanlarında fərd və kollektiv, özgələşmə anlayışları sosial-psixoloji çərçivədə, obrazlar və yazıçı-təhkiyəçi-tarix əsasında araşdırılıb.

"Nəticə" hissəsində tədqiq edilən əsərlərin analizi zamanı əldə edilən əsas məqamlar təqdim edilib, həmçinin gələcəkdə bu istiqamətdə elmi araşdırmalar aparmaq niyyətində olan tədqiqatçılara tövsiyələr verilib.

Qeyd edək ki, Azərbaycan ədəbiyyatının önəmli imzalarından olan və özünəməxsus üslubu ilə seçilən Seyran Səxavətin "Daş Evlər", "Nekroloq" və "Yəhudi Əlifbası" romanlarının tədqiq edildiyi bu dissertasiya Seyran Səxavətin əsərləri ilə bağlı ən geniş və hərtərəfli araşdırmalardan biri olmaqla yanaşı, onun romanlarının sosial-psixoloji aspektdən incələndiyi ilk tədqiqatdır.

**Dissertasiya Türkiyənin Milli Dissertasiya Mərkəzində ("Ulusal Tez Merkezi") yayımlanıb.**

## *Türiyədəki kütləvi zəhərlənmədən sonra Azərbaycanda içkilərə nəzarət gücləndirildi*

**Türkiyənin bir sıra şəhərlərində saxta spirtli içkilərdən kütləvi zəhərlənmə və ölüm hadisələri baş verib. Yayılan məlumatlarda bildirilir ki, Ankara şəhərində saxta spirtli içkidən həyatını itirənlərin sayı 59, müalicəsini davam etdirənlərin sayı isə 37 nəfərə çatıb. Baş verən hadisələrə əsas səbəb kimi sənayedə istifadə olunan və ölkədə daha ucuz və əlçatan hesab edilən metanoldan istifadə etməklə hazırlanan saxta spirtli içkilərin istehlakı göstərilir.**

Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin İnformasiya təminatı və innovativ həllər şöbəsindən Adalet.az-a bildirilib ki, Azərbaycana Türkiyədən, eləcə də digər xarici ölkələrdən idxal edilən spirtli içkilər risk əsaslı nəzarət tədbirlərinə cəlb olunur, saxta spirtli içkilərin ölkəyə gətirilməsinin qarşısı qətiyyətlə alınır.

Məhsullardan götürülən nümunələrin laborator müayinəsi uyğun olduğu təqdirdə həmin məhsulların idxalına icazə verilir.

Məlumat üçün bildirək ki, 2024-cü ildə Türkiyədən ümumilikdə 645 min 120 litr (23 min 700 litri rakı, 620 min 890 litri pivə, 530 litri şərab), 2025-ci il yanvarın 1-dən fevralın 17-dək 46 min 300 litr (5 min 150 litri rakı, 41 min 150 litri pivə) spirtli içki idxal olunub və həmin məhsullar təhlükəsizlik və keyfiyyət göstəricilərinə görə müvafiq müayinələrə cəlb edilib, istehlak üçün uyğun olduğu öz təsdiqini tapdıqdan sonra satış şəbəkələrinə çıxarılması üçün müvafiq icazələr verilib.

Agentlik bildirib ki, bu sahədə nəzarət və tənzimləmə tədbirləri davam etdirilir.



VAQİF YUSİFLİ

# "AXIRINCI GEDİŞ"

## (Şövkət Zərin Horovlunun yeni romanı haqqında)

**Bir şair kimi tanıdığım, oxucular arasında da rəğbətlə qarşılanan Şövkət Zərin Horovlu həm də nəsr janrında da qələmini sınamış və bir neçə romanlar müəllifidir. İki il bundan öncə onun "Axırıncı gediş" adlı yeni romanı nəşr edilib . Bu roman haqqında söz açmamışdan əvvəl onun müəllifi barədə bir neçə kəlmə..**

Belə deyirlər ki, hər bir söz adamı öz doğulduğu torpağa, onun havasına, suyuna, çölünə, çəməninə bənzəyir. Qadın yazarlar arasında Şövkət Zərin Horovlu da doğulduğu, boya-başa çatdığı Cəbrayılın havasına, suyuna, torpağına, çinarına bənzəyir. Bir də sahilində axar sularına dönə-dönə tamaşa etdiyi Araza. Ədəbiyyata şair kimi gələn Şövkət xanımın şeirlərində də o havadan, o sudan, o torpaqdan, o çinardan, Arazdan gələn misralar görərsən.

***Dəysin qulağıma Arazın səsi,***
***Ovutdu qəlbimi isti nəfəsi.***
***Ey nəğməli söyüd, qocaman palıd,***
***Həyata göz açıb doğulduğum yurd,***
***Sizinçün mən yaman qəribsəmişəm,***
***Qürbətdə ağlamaq olubdur peşəm..***

Neçə illər idi ki, Şövkət xanım Cəbrayılın çinarlarına, kəhrizlərinə, havasına, suyuna həsrət qalmışdı, Elə Cəbrayıl da, o çinarlar da öz şair qızına həsrət çəkirdi. Amma Ordumuzun şanlı qələbəsindən sonra Cəbrayıl da, onun doğulduğu Horovlu da işğaldan azad olundu.

Burada mən Şövkət Zərin Horovlunun şeirləri barədə söz açmaq istəmirəm. Qısaca onu deyə bilərəm ki, Şövkət Zərin Horovlu poeziyamızın milli ənənələrinə bağlı şairdir. Müqayisə bəlkə də yerinə düşər, deyim ki, onun şeirlərində bizim XX əsr ədəbiyyatımızın üç xanım incisi Mirvarid Dilbazinin, Nigar Rəfibəylinin, Mədinə Gülgünün poetik ənənələrindən gələn çalarlar da hiss olunur. Yeni Azərbaycan qadınının istək və arzuları, milli və bəşəri hissləri yeni Şair-Ana obrazında təcəssüm edir. Ənənəyə bağlılıq onun qoşma və gəraylılarında, Şəhriyarın "Heydərbabaya salam" ahəngində yazdığı "Yaddaş ağrıları", həmçinin "Nənəmin son günləri", "Ana layla çalır yuxularında" poemalarında daha çox hiss olunur. O, bəziləri kimi qoşmaya baxıb onun şəklini çəkmir, özü əsl qoşma yaradır.

***Şövkətəm, titrəyir əlimdə qələm,***
***Həsrətdən od tutub, alışır sinəm.***
***Qoynunda gəzdiyim, a dağım, dərəm,***
***Bir də görüşümüz nə vaxta qaldı?***

Şövkət Horovlu şeir yaradıcılığı ilə yanaşı,öncə qeyd etdiyim kimi,nəsr əsərləri də yazır və artıq bir neçə romanın, povestin də müəllifidir.

Şairin nəsrə ya da nasirin şeirə keçməsi çox vaxt birmənalı qarşılanmır. Bunu bəzən şairin ya da nasirin adət elədiyi janrda daha uğur qazana bilməməsi ilə izah edənlər də tapılır, bəzən də tamamilə qanunauyğun bir hal hesab edirlər. Amma fikrimizcə, Şövkət xanımın nəsr əsərləri yazması da şeirdə tam ifadə edə bilmədiyi mətləbləri daha geniş, epik planda əks etdirmək cəhdiylə bağlıdır. Şövkət xanım həyat yoldaşı, tanınmış alim Hüseyn müəllimlə bir neçə il Əfqanıstanda olmuş və sonralar "Açılmamış zərf" xatirə povestində o çətin, son dərəcə gərgin illəri- SSRİ dövlətinin Əfqanıstana müdaxiləsi, kommunist recimi yaratmaq iddiasından doğan işğalçılıq siyasəti) bütün görüntüləri ilə əks etdirib. Bu, onun ilk nəsr əsəriydi. Və bu əsərdə Şövkət xanım təkcə xatirə, gündəlik, olanların təsviri ilə kifayətlənmir, Əfqanıstanda gördüyü, ünsiyyətdə olduğu insanların da obrazını yaradır. O xalqın adət-ənənələrini, həyat tərzini, məişətini də bildiyi qədər əks etdirir.

Görünür, "Açılmamış zərf" xatirə povestində Əfqanıstanda baş verən hadisələri daha dolğun və mükəmməl şəkildə əks etdirmək niyyəti "Axırıncı gediş" romanının yaranması ideyasına gətirib çıxarıb. Çünki bədii əsərdə müəllifin öz obrazına ehtiyac qalmır , o, düşündüklərini, əsərdə ifadə etmək istədiyi fikirləri bədii obrazlarla canlandırır.

"Axırıncı gediş" romanı barədə fikir və mülahizələrimizi bir neçə bölgüdə ümumiləşdirək.

1.Fikrimizcə, "Axırıncı gediş" romanı tarixi səpgidə yazılıb. Yəni bu əsər birmənalı şəkildə tarixi romandır. Müəllifin təsvir etdiyi hadisələr, tarixi şəxsiyyətlər, zaman və məkan koordinatları bu fikri söyləməyə imkan verir. Əlbəttə, hər hansı tarixi romanda müəyyən sənədlilik prinsipi gözlənilir, lakin yazıçının bədii təxəyyülü də burada bədii uydurmalara yol verir. Ancaq bu iki xətt arasında əlaqə və bağlılıq itməməlidir.

Vaxtilə N.A.Dobrolyubov yazırdı ki: "Bu iki tələbi elə birləşdirmək uydurmanı tarixə elə daxil etmək lazımdır ki, uydurma tarixə əsaslansın, tarixi hekayəyə müəyyən tellərlə bağlansın və bunları elə təqdim etmək lazımdır ki, oxucu öz qarşısında tarixdən ona məlum olan canlı şəxsiyyətləri görsün. Tarixi romanın vəzifəsi budur" .

"Axırıncı gediş" romanında da biz bu iki tələbə əməl edildiyini görürük. Nadir şah, Əmənulla xan, Zair şah, Sərdar Məhəmməd, Davud xan-bunlar əsərdə tarixi şəxsiyyətlərdir.

Romanda Əbdülqədir xan, Osman və onun oğlanları , Mirzə Cəlaləddin konkret tarixi şəxsiyyətlər olmasalar da, təsvir edilən dövrün tarixi ruhunu özlərində əks etdirirlər.

2. Hər bir romanda, o cümlədən, tarixi hadisələrdən bəhs edən romanda müəyyən bir İDEYA-əsərin başlıca leytmotivi olmalıdır. Bu əsas ideya=bu leytmotiv romanda səsləndirilən Azadlıq ideyasıdır. İstər-istəməz mən böyük yazıçımız Ənvər Məmmədxanlının "Xürrəmilərin ağ şahini" tarixi dramında -edam kürsüsünə yol alan Babəkin Afşinə söylədiyi bu çağırışı xatırlayıram:

"Ey Afşin, sən heç vaxt dərk etməyəcəksən ki, azadlıq yanğısı nə deməkdir. O dəhşətli yanğı ki, ürəyi yandırıb külə dbndərir. İstər o şirin olsun, istər acı-yalız o idi mənim səcdəgahım!". Azərbaycan ədəbiyyatında, xüsusilə, bir çox tarixi romanlarda səslənən Azadlıq ideyası üçün bu fikir məncə, başlıca leytmotivdir.

Şövkət xanımın "Axırıncı gediş" romanında da Azadlıq ideyası bütün süjetdə, əsərin qəhrəmanlarının fikir və düşüncələrində aparıcıdır.



Romanda Əfqanıstanın azadlığı uğrunda, orada yaşayan xalqların zülmdən, istismardan xilas olması, elmi, mədəniyyəti, təhsili və ən başlıcası iqtisadi həyat şəraitinin yaxşılaşdırılması naminə apardıqları mübarizə kifayət qədər geniş işıqlandırılıb. Bu baxımdan "Gilan" Cəngəllilər hərəkatı iştirakçılarının, Mir Saleh Ağanın, Əbdülqədirin, Osmanın, Mahmudun, polkovnik Şahvələdin, Maqsud Ağanın, Mirzə Cəlaləddinin, Ağa Rzanın -bunların hər birinin azadlıq hərəkatında öz rolu var. Romanda ustad Cəlaləddinin azadlıq sevənlərin yığıncağında söylədiyi bu fikirlər məncə, romanın ideyasını, bu ideya ətrafında birləşən insanların kredosunu doğru səciyyələndirir: "Ədalətdən, bərabərlikdən ağzı dolusu danışan səltənətin zahiri parıltısı xalqı aldadır. Əslində, bu deyilənlərdən heç bir əsər-əlamət yoxdur. Bir tərəfdən ictimai bərabərsizlik, bir tərəfdən avamlıq, savadsızlıq, dini çəkişmələr, bu əliqabarlı, qarnı ac xalqı az qala kor eləyib. Hər yumruq oynadana kor-koranə itaət eləyirlər .O da bir həqiqətdi ki,bu səltənəti devirib xalqın xeyrinə işləyən bir cəmiyyət qurmaq üçün hissə qapılmaq olmaz".

3.Hər hansı tarixi hadisələrdən söz açan romanda zaman və məkan koordinatları da mühüm əhəmiyyət kəsb edir. "Axırıncı gediş"də zaman -hadisələr cərəyan etdiyi illər, aylar təxminən yetmiş ili əhatə edir.Romanda Səttarxan hərəkatı yada salınır, 1921-ci ildəki "Gilan" Cəngəllik hərəkatından söz açılır. Bu hərəkatda iştirak edən Əbdülqədirin öz yurdundan-yuvasından uzaq düşüb Əfqanıstana gəlməsi, burada da haqq-ədalət uğrunda mübarizə aparması, oğlu Osmanın da atasının yolunu davam etdirməsi- gizli şəkildə "İşıq" qəzetini nəşr etdirməsi-bütün bunlar bir əsrin hadisələridir.

Romanda deyildiyi kimi: "Tarix təkrarlandığı kimi bəzən talelər də təkrarlanır, bir-birinə oxşayır". Burada bir həqiqəti unutmaq olmaz. Şərqdə-İranda Səttarxan hərəkatı, Xiyabaninin azadlıq uğrunda mübarizəsi, "Gilan" (Cəngəllilər" qiyamı olmaaydı, digər Şərq ölkələrində də yeni inqilab dalğaları baş verməzdi və Şövkət Horovlu da Əfqanıstanda baş verən hadisələrin bu təsirlərdən yarandığını dönə-dönə qeyd etməzdi.

Romandakı hadisələrin əsas məkanı Əfqanıstandır, amma bəzən yerdəyişmələr də nəzərə çarpır. Bu da obrazların xatirələrində əks olunur.

4. Azərbaycan tarixi romanlarının əksəriyyəti Ordubadi ənənəsi ilə bağlıdır. Ordubadinin romanlarında konkret tarixi hadisələrin təsviri ilə yanaşı, sevgi xətti də möhkəm yer tutur.

Şövkət Zərin Horovlu da bu ənənəyə sadiq qalıb. Bu o deməkdir ki, müəyyən tarixi dövrdə yaşayan insanlar təkcə döyüşmürlər, vuruşmurlar, azadlıq havasına yaşamırlar, həm də sevirlər,sevilirlər, onların ideyaları, fikir və düşüncələri müəyyən hərəkatda öz rolunu oynayırsa, ürəkləri də, hissiyyatları da coşur, çağlayır. "Axırıncı gediş"də Mahmud-Səriyyə, Ağayi Rza-Şiringül sevgi xətləri buna misal ola bilər.

Özü də müəllif bu sevgi xətlərinin bir-birilə uzlaşmasını xalq dastanlarında olduğu kimi (çətinliklərdən, uzun ayrılıqdan keçəndən sonra) təsvir edir.

Doğrudur, bir-birini hədsiz məhəbbətlə sevənlərin heç də hamısı vüsala yetmir, amma ölüm və ayrılıq da sevginin əbədiliyinin qarşısında acizdir.

Şövkət Zərin Horovlu Əfqanıstanda cəmi üç il (1977-1980) yaşamışdır. Bu üç il ərzində onun bir yazıçı kimi müşahidə qabiliyyətinə söz ola bilməz. "Axırıncı gediş" romanında təsvir olunan hadisələr, müxtəlif xarakterli insanlar onun real yazıçı müşahidələrinin dolğunluğunu sübut edir, təbii ki, bədii təxəyyül də burada öz sözünü deyir.

Ümumtiyyətlə, bir şair kimi tanınsa, sevilsə də, onun bir nasir kimi də romandan romana inkişafının şahidi oluruq.

Bunu biz Şövkət xanımın "Axırıncı gediş"dən əvvəl qələmə aldığı "Arazda gələn səs" və "Köynək" romanlaprında a müşahidə edirik. Adını çəkdiyim hər iki əsərdə Qarabağda, keçən əsrin 90-cı illərində baş verən hadisələrin təsviri əsas yer tutur.

**Şövkət Zərin Horovlunun bu il martın 20-də, bahar bayramında 84 yaşı tamam olacaq. Amma ona yaradıcılıq yaşı ilə yanaşaq, o, yorulmaq bilmir və mənsub olduğu xalqın ədəbiyyatına o qədər bağlıdır ki yaş da ona təslim olur.**

## *Bakıda da yayılan dəhşətli xəstəlik: YUXU...*

**2013-cü ildə Qazaxıstanda qəribə bir xəstəlik yayılır: xəstəliyə yoluxan insanlar iş yerlərində, məktəb partası arxasında yuxuya gedirlər və onları bir neçə sutka ərzində oyatmaq olmur. O dövrdən Qazaxıstan və Rusiya alimləri fəal iş aparsa da, xəstəliyin səbəbini hələ də müəyyən etmək mümkün olmayıb. Bununla belə, tibbi tədqiqatlar həmin insanların sağlam olduğunu göstərir.**

Yuxu xəstəliyi 20-ci əsrin ən dəhşətli epidemiyalarından biridir.

1916-cı ilin əvvəllərində Avstriya və Fransada yaranıb bu xəstəlik və bir il ərzində o qədər çox xəstə insana yoluxub ki, bunu artıq epidemiya adlandırmaq olardı. Sayları əvvəlcə yüzlərlə, sonra minlərlə, sonra isə milyonlarla olan xəstələrin anlaşılmaz vəziyyəti avropalı həkimləri çaş-baş salmışdı.

"Yuxu xəstəliyi" kimi tanınan bu epidemiyanın əlaməti insanların saatlarla, günlərə yatmasına səbəb olurdu və çox vaxt pasiyentlər oyanmırdı.

Ölməyənlər bir neçə həftə, hətta aylar belə qəribə "asma animasiya"da yata bilirdilər və xəstəliyin kəskin mərhələsi keçəndə yenə də normal insanlara oxşamırdılar. Onlar artıq gecə-gündüz yatmırdılar, heç bir söz deməndən, heç bir duyğu ifadə etmədən hərəkətsiz otura bilirdilər. Oyanandan sonra heç biri başlarına gələnləri xatırlaya bilmirdi.

Bu epidemiya elm adamları üçün əsl sirr halına gəldi, çünki bu xəstəliyin müalicəsi hələ də yoxdur.

Xatırladaq ki, 1916-1917-ci illərdə bu xəstəliyə 5 milyon insan yoluxmuşdur. Kəskin fazada olan xəstələrdə ölüm nisbəti 20-40% arasında dəyişirdi. İnsanlar əsasən tənəffüs çatışmazlığından ölürdülər, lakin ölümün əsas səbəbi hələ də "yuxu xəstəliyi" sayılırdı.

1923-25-ci illərdə Rusiyaya da gəlib çatmışdı. Moskvada, Bakıda, Kişinyovda, Kiyevdə belə simptomlar müşahidə edilirdi və Köhnə-Yekatrina xəstəxanası müalicə üçün ayrılmışdı və çox gizli şəkildə xəstələr ora aparılırdı. Hər dörd nəfərdən biri yuxudan ayıla bilmirdi.

Professor Mixail Marqulis bu xəstəxananın rəhbəri olaraq təyin edilmişdi. Rəsmi rəqəmlər 100-dən çox ölüm olduğunu yazsa da, bolşevik rəhbərlər məlumatları "tam məxfi" saxlamağa qərar verir.

**Xəstəlik 1927-ci ilə qədər davam edir, lakin ən maraqlısı odur ki, həkimlərin səyi ilə deyil, özözünə yox olur - müəmmalı və gözlənilməz şəkildə.**

# Ədəbiyyatımızı yaşadan nəcib Azərbaycan qadını

**O, əsl elm fədaisi idi. 68 illik ömrünün 44 ilini Azərbaycan ədəbiyyatı tarixinin, əlyazma toplularının tədqiqatına həsr etmişdi. Söhbət filologiya üzrə fəlsəfə doktoru, dosent Sevər Heydər qızı Cabbarlıdan gedir.**

Dramaturgiyamızın təşəkkülü və yüksəlişi tarixində yeni mərhələnin təməlini qoyan, görkəmli dramaturq Cəfər Cabbarlının nəslindən idi Sevər Cabbarlı. O, görkəmli ədibin qardaşı nəvəsi idi. Elə Cəfər Cabbarlının "Oqtay Eloğlu" əsərinin qəhrəmanı Sevərin adını daşıyırdı.



1957-ci il fevral ayının 10-da Bakı şəhərində ziyalı ailəsində anadan olan Sevər Cabbarlı 1964-cü ildə Cəfər Cabbarlı adına 161 saylı orta məktəbə daxil olub və 1974-cü ildə həmin məktəbi bitirib.

1974-cü ildə Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin İran filologiyası şöbəsinə daxil olub. 1978-ci ilin iyun ayından 1979-cu ilin iyul ayına kimi Əfqanıstanda hərbi hospitalda mütərcim kimi fəaliyyət göstərib. 1980-ci ildə ali təhsilini tamamlayıb. 1981-ci ilin yanvar ayından AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunda elmi fəaliyyətə başlayıb. 1983-1985-ci illər ərzində yenidən Əfqanıstana ezam olunub və burada mütərcim kimi çalışıb. 1985-ci ildən 1991-ci ilə qədər ailə vəziyyəti ilə əlaqədar məzuniyyətdə olub.

1991-ci ilin iyun ayından M.Füzuli adına Əlyazmalar İnstitutunun "Farsdili əlyazmaların tədqiqi şöbəsi"ndə elmi fəaliyyətini davam etdirib. Sevər Cabbarlının əsas tədqiqat sahəsi ədəbiyyat və folklor mətnşünaslığı, XVIII-XIX əsrlər əlyazma toplularının (məcmuə, cüng və bəyaz) araşdırılması olub. 1994-cü ildə "XVIII-XIX əsrlər Azərbaycan əlyazma topluları" mövzusunda namizədlik dissertasiyasını müdafiə edərək filologiya üzrə fəlsəfə doktoru elmi adını alıb. Alimin əsas elmi nailiyyəti Azərbaycan ədəbiyyatı tarixinin öyrənilməsi, XVIII-XIX əsr əlyazma toplularının araşdırılması, XIX əsrdə yaşayıb yaratmış Azərbaycan şairlərinin əsərlərinin tədqiqi və çapa hazırlanması olub. Ədəbiyyat, folklor və mətnşünaslıq sahələri üzrə tədqiqat işləri aparan Sevər Cabbarlı 42 elmi əsərin müəllifi idi.

28 iyun 2006-cı ildə ədəbiyyat nəzəriyyəsi və mətnşünaslıq ixtisası üzrə dosent elmi adı alıb. Alim 2022-ci ilin martın 18-də 27 mart "Elm Günü" münasibətilə və məhsuldar elmi fəaliyyətinə görə fəxri fərmanla təltif olunub.

"XVIII-XIX əsrlər Azərbaycan əlyazma topluları", Şeyx Səfi təzkirəsi, Əlövsət Dərbəndi. "Töhfeyi-əhbab və sovqati-əsbab", Mirzə Yusif xan Təbrizi. "Yek kəlmə", Məmo bəy Məmayi. Şeirlər, Seyyid Zərgər. "Mizanül-ədalət", Novbəri. Seçmə şeirlər, Novbəri. "Növhələr", Mirzə Sadıq Rahil. "Bəhrül-həqaiq" yaxud "Şərhi-Gülüstan", "Xəridətül-əcaib və fəridətül-ğəraib" nəşrləri məhz Sevər Cabbarlının tərtibatı əsasında ərsəyə gəlib.

Apardığı elmi tədqiqatları həyatının mənası hesab edən görkəmli alim Sevər Cabbarlı 2025-ci ilin yanvarın 7-də 68 yaşında vəfat edib. Adında da, elmi fəaliyyətində də Azərbaycan ədəbiyyatını yaşadan Sevər Cabbarlı özündən sonra zəngin elmi irs buraxdı və bu irs onu daim yaşadacaq.

Sevər xanım həm də sadə insan, qayğıkeş ana idi. S.Cabbarlının bir qız və bir oğul olmaqla iki övladı var. Qeyd edək ki, o, Milli Məclisin deputatı Könül Nurullayevanın anasıdır.

Yeri gəlmişkən, Sevər xanımın anası, professor Aşura İsmayılova da 50 il BDU-nun Şərqşünaslıq fakültəsində pedaqoji fəaliyyətlə məşğul olub. Neçə-neçə gənc elm adamının formalaşması və inkişafında önəmli rol oynayan fədakar alim səmərəli elmi-pedaqoji fəaliyyəti ilə daim fərqlənib. Təsadüfi deyil ki, bu gün ölkəmizin ən müxtəlif elm və təhsil ocaqlarında A.İsmayılovanın çoxsaylı yetirmələri uğurla fəaliyyət göstərir.

Sevər xanım həm də nəcib ziyalı, ən yüksək insani keyfiyyətləri özündə cəmləşdirən Azərbaycan qadını idi. İnsani və mənəvi keyfiyyətləri ilə onu tanıyanların ehtiramını qazanmışdı.

"Nəcibliyi, ziyalılığı ilə hər kəsin sevgisini qazanan işıqlı insan". Hər kəs Sevər xanımı bu cür xarakterizə edir. Onu tanıyanlar, birgə çalışdığı insanlar yalnız xoş sözlər söyləyir ki, bu da Sevər xanımın daxilən necə zəngin və alicənab bir xanım olmasından xəbər verir. Sevər xanımın təmənnasız xeyirxahlığı, insanlara əl tutması nəciblik və fədakarlıq nümunəsi idi.

**Sevər Cabbarlının yoxluğu tək onun yaxınları üçün deyil, həm də onu tanıyanların, sevənlərin itkisidir. Onun əziz xatirəsi sevənlərinin qəlbində daim yaşayacaq.**

**Nicat NOVRUZOĞLU**

# *İnsult riskini azaltmağın sadə yolu*

**Daimi diş ipi işemik insult riskini əhəmiyyətli dərəcədə azalda bilər.**

Adalet.az xəbər verir ki, Kolumbiya Universitetinin Tibb fakültəsinin alimləri belə nəticəyə gəliblər. Onların araşdırmaları 2025-ci il Beynəlxalq İnsult Konfransında təqdim edilib.



Məlumatların təhlili göstərir ki, diş ipindən istifadə işemik insult riskini 21% azaldır. Xüsusilə nəzərə çarpan (44%), beyin arteriyası ürəkdə əmələ gələn qan laxtası ilə bağlandıqda baş verən kardioembolik insult ehtimalının azalması idi. Tədqiqatçılar həmçinin müəyyən ediblər ki, müntəzəm olaraq diş ipi istifadə edən insanlarda atrial fibrilasiyaya 12% daha az rast gəlinir.

Alimlər aşkar edilmiş korrelyasiyanın dişlərin fırçalanması və ya diş həkiminə baş çəkmə tezliyindən asılı olmayaraq davam etdiyini vurğulayaraq, diş ipinin təsirini ağız boşluğunda iltihabi prosesləri azaltmaqla izah ediblər. Tədqiqatçıların kəşf etdiyi kimi, iltihab damar sərtliyinin artması, həmçinin ateroskleroz, infarkt və vuruşların inkişafı ilə əlaqələndirilir.

Mirzə Müşfiq,
Azərbaycan Jurnalistlər Birliyinin üzvi, "Tərəqqi" medallı



# Xatirələrdə yaşayan insan

**...Jurnalistika sahəsinə yenicə qədəm qoyduğum yetmişinci illər idi. Çalışdığım yerli "Məhsul" qəzetinin redaksiyası rayon mərkəzində yerləşir, biz əməkdaşlar müxtəlif sahələrdən məqalələr yazırdıq. Məni daha çox istedadlı gənclər, istehsalat qabaqcılları, ziyalılar maraqlandırırdı. Təcrübəli qələm yoldaşlarım işgüzar söhbətlər zamanı ziyalılardan söhbət düşəndə ilk sırada həkim Telman Şirinovun adını çəkirdilər.Düzü, mən hələ Telman həkimi görməmişdim, tanışlığım da yox idi. Sən demə, Telman həkim rayon mərkəzində, elə redaksiyanın yaxınlığında yaşayırmış.**

Bir gün nahar fasiləsi zamanı redaksiyanın qarşısında dayanmışdıq. Yanımızdan uca boylu, yaraşıqlı, son dərəcə sadə geyinmiş bir nəfər salam verib keçdi. "Bu kimdir?"- soruşdum. " Hər gün barəsində danışdığımız Telman həkimdir, tibb elmləri namizədi", - dedilər. Şəxsən tanış olmasaq da, bu ziyalı insanla ilk görüşümüz belə oldu. Onda heç ağlıma da gəlməzdi ki, tezliklə Telman həkimlə aramızda səmimi dostluq münasibətləri yaranacaq...Aramızda təxminən 15 il yaş fərqi olsa da, bu bizim dostluğumuza, səmimi söhbətlərimizə, yaradıcılıq münasibətlərimizə əsla mane olmurdu.Sonralar Telman həkimin maraqlı ömür yolu ilə yaxından tanış olduqca, mən bu ziyalı, xeyirxah insanı hər dəfə sanki yenidən kəşf edirdim.



Telman Xudaş oğlu Şirinov 15 iyun 1936 - cı ildə Biləsuvar ( o vaxtkı Puşkin) rayonunun Əmənkənd kəndində anadan olmuşdu. Biləsuvar rayonunda orta təhsilini başa vurduqdan sonra 1959-cu ildə Nəriman Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutuna ( indiki ADTU) qəbul olunmuşdu. İnstitutu bitirdikdən sonra təhsilini Moskvada A. V. Vişnevski adına İnstitutunun aspiranturasında daavm etdirmiş, 1970 - ci ildə Tibb elmləri namizədi alimlik dərəcəsi almışdı.Əmək fəaliyyətinə doğma rayonunda başlayan və uzun illər burada işləyən Telman həkim daha sonralar Bakıda müxtəlif institut və xəstəxanalarda həkim - cərrah, həkim - reanimotoloq, kardioloq və şöbə müdiri kimi çalışmışdı. Yenidən Biləsuvara qayıtdıqdan sonra taleyini ğmrünün sonuna kimi çalışdığı rayon mərkəzi xəstəxanası ilə bağlamışdı.

Həkim ixtisasına yiyələnərək insanların sağlamlığının keşiyində dayanmaq, onlara sevinc bəxş etmək Telmanın əb böyük arzusu idi. Xəstələr bu sadə, xoşgülüş həkimə inanır, onun əllərində şəfa tapırdılar. Telman həkimin gündəlik fəaliyyətində xəstələrə diqqət və qayğı, isti münasibət əsas yer tuturdu. Elə bunun nəticəsidir ki, bu gün də rayonumuzda insanlar onu ehtiramla xatırlayır, dərin hörmətlə yad edirlər.

Telman həkimin ömür-gün yoldaşı Lətifə xanım da onun həmkarı idi. Tələbəlik illərindən birbirlərinə könül vermişdilər. Bir həkim kimi Lətifə xanım da öz sadəliyi və nəcibliyi ilə rayonda böyük hörmət qazanmışdı. Bu iki nəcib, xeyirxah insan arasında olan saf məhəbbət ömürlərinin sonuna kimi beləcə də davam etdi. Onlar həyatda da, işdə də bir-birlərini gözəl tamamlayırdılar. Tale bu ziyalı ailəyə sonradan həyatda bacarıq və qabiliyyətləri ilə öz layiqli yerlərini tutmuş övladlar bəxş etmişdi. Övladlarının hər birinin çox yaşıdlarının həsəd apardığı xüsusi istedadı var idi.

İxtisaca fizik olan Namiq Şirinov hələ orta məktəbdə təhsil ala-ala , eyni zamanda Novosibirsk Universitetinin nəzdindəki Qiyabi Fizika - Riyaziyyat Məktəbini əla qiymətlərlə başa vurmuşdu. Bakı Dövlət Universitetin tələbəsi olarkən Moskovada iki illik Qiyabi Praktiki Psixologiya Məktəbini də bitirmişdi. Universiteti fərqlənmə diplomu ilə bitirən Namiq Şirinov elə məktəb tələbələri üçün dərslik kimi nəzərdə tutulan " Atomlar... kvantlar...insanlar " adlı ikicildlik elmi kitab yazmış, daha sonradan roman və povest, hekayələr kitablarının müəllifi kimi Azərbaycan Yazıçılar Birlyinin üzvü olmuşdur.

İndi respublikada çox məsul vəzifə tutan Namiq Şirinov məktəbi gümüş medalla bitirmişdi. Natiq də, elə Namiqin özü də , - hələ orta məktəb illərindən şahmatın sirlərinə dərindən yiyələnmiş usta şahmatçı kimi tanınırdılar. Dəfələrlə müxtəlif yarışlarda iştirak etmiş, uğurlar qazanmışdılar. Hər ikisi şahmat üzrə idman ustalığına namizəd idi. Riyaziyyata böyük həvəs göstərən Natiqin Moskvada dərc olunan nüfuzlu "Kvant "jurnalında müxtəlif məqalələri dərc olunmuşdu.

Telman həkim həm də yaradıcı insan, hələ tələbəlik illərindən poeziya vurğunu, söz xiridarı idi. İncə rübabı vardı. Gərgin iş saatlarından sonra şeir yazmaq, ürəyinin atəşini misralara köçürmək onun ruhunu dincəldirdi. Ustad Şəhriyarın yaradıcılığını çox yüksək qiymələndirir, o zirvəni əlçatmaz sanırdı.

Bu sevginin işığında yazdığı " Şəhriyarnamə" poema-dastanı 2001 - ci ildə nəşr olunaraq rəğbətlə qarşılanmışdı, əl - əl gezirdi. Bu poema dastana yazdığı ön sözdə görkəmli yazıçımız Əlibala Hacızadə: "Mən sənin " Şəhriyarnamə"ni birnəfəsə oxudum,xoşum gəldi. Şəhriyar şeirinin işığında sənət zirvəsinə qalxırsan", - deyə Telman Biləsuvarlı yaradıcılığına yüksək qiymət vermişdi.2008 - ci ildə nəşr olunan "Atatürklə belə gəldi bu dünya" kitabına görə isə Telman Biləsuvarlı 2009 - cü ildə Türkiyə Yazarlar Birliyinin üzvü seçilmişdi. Bu, rayonumuzda əlamətdar bir ilk idi.

Söz xiridarı , özünə Biləsuvarlı ləqəbini götürmüş Telman həkim istedadlı oğlu Namiq Yanarın qeyd etdiyi kimi, təbi gələndə, " bu çətin, səbr və iradə" tələb edən yoldan ayrıla bilmirdi. İlham pərisi onun daimi sirdaşı idi, - desəm, əsla yanılmaram.

Düz 20 il əvvəl mənə öz avtoqrafı ilə verdiyi " Bir söz istəyirəm" şeirlər toplusu 2003 - cü ildə işıq üzü görərək, oxucularına sevinc gətirmişdi. Namiq Yanarın ön sözdə qeyd etdiyi kimi, bu toplu " Telman Biləsuvarlının fikir, düşüncə, xəyal və arzu karvanının sarbanı" idi.

Yüksək ziyalı, həkim-şair Telman Biləsuvarlı bir şeirində vətənpərvərlik hisslərini belə ifadə edirdi:

***Başımızın üzərində dalğalanan bayrağımız,***
***Qanımızla bəhrələnən, azad olan torpağımız,***
***Çətin gündə dayağımız, qaranlıqda çırağımız,***
***Ən şərəfli ünvanımız, - gözəl Azərbaycanımız!..***

Telman həkimdə güclü həyat eşqi, qurub - yaratmaq, özündən sonra iz qoymaq arzusu vardı:

***Yüz yaşda at minsəm, qəraylı taxsam,***
***Futbolda qol vurub, qabağa çıxsam,***
***Ayda kosmonavtın əlini sıxsam,***
***Telman öz həddini aşdı, - deməyin.***

Bir şeirində isə qocalığın gəlməsini çox tutarlı "insanın nimdaş paltarda görünməsi", - kimi təsvir edirdi.Özünü musiqi janrında da sınamışdı Telman həkim.

Bir çox bəstəkarlar tərəfindən "Mübarək", "Bəlkə görüşdük", " Can verir bala Təbrizim", "Qaratelim" və başqa şeirlərinə mahnılar bəstələnmişdi. Onun mübariz şair Xəlil Rza Ulutürkün şəhid oğlu

**Təbrizə həsr etdiyi " Can verir bala Təbrizim" mahnısı 1995 - ci il 05 iyulda Respublika Sarayında Xəlil Rza Ulutürkün Prezident səviyyəsində keçirilən gecəsində gözəl müğənnimiz Səkinə İsmayılova tərəfindən ifa edilmişdi. Bu mahnıların sədası həkim - şairin gələcək nəsillərə ən böyük töhfəsi, ərməğanıdır.Həmişə ruhən cavan olan Telman həkim hər görüşmüzdə gələcək arzularından danışardı.Ömür vəfa qılsaydı, biz bu nurlu insanın hələ çox böyük uğurlarının şahidi olacaqdıq. Amma, nə edəsən ki, həyat əbədi deyil...Gözəl həkim, istedadlı şair Telman Biləsuvarlı 2012- ci ildə dünyasını dəyişsə də, dostlarının, onu tanıyanların xatirəsində həmişə yaşayır. Bizi ötən, o unudulmaz günlərə qaytaran xatirələrsə çox şirin olur...**



**Elnarə Qaragözova**
**Filologiya üzrə fəlsəfə doktoru, dosent**

# XALQ ŞAİRİ BƏXTİYAR VAHABZADƏ VƏ AKADEMİK AĞAMUSA AXUNDOV: DİLİMİZİN TƏƏSSÜBÜ POEZİYA VƏ ELM TANDEMİNDƏ

**Bəxtiyar Vahabzadə irsi milli ədəbiyyatımızın sütunlarından biridir desək, yəqin ki, yanılmarıq. Şairin yaradıcılığı haqqında saysız dəyərli araşdırmalar dərc edilmiş, ölkə mətbuatında və xarici dərgilərdə maraqlı tədqiqatlar, araşdırmalar işıq üzü görmüşdür. Bəxtiyar Vahabzadə irsi dilçi alimlərin də diqqətindən kənar qalmamışdır.Qeyd etməliyik ki, Bəxtiyar Vahabzadənin özü də daim dil məsələsinə həssaslıqla yanaşmışdır. Dil mövzusu şairin yaradıcılığından qırmızı xətlə keçir. B. Vahabzadənin "Mənim anam", "Ana dili", "Oğluma", "Əlifba", "Latın dili" şeirlərində dilin cəmiyyət, millət üçün önəmi, dilin qorunmasının vacibliyi poetik şəkildə ümumiləşdirilmişdir. Şairin "Ana dili" şeiri bir çağırış, haray kimi səslənir:**

***Bu dil, - bizim ruhumuz, eşqimiz, canımızdır,***
***Bu dil, - bir-birimizlə əhdi-peymanımızdır.***
***Bu dil, - tanıtmış bizə bu dünyada hər şeyi.***
***Bu dil, - əcdadımızın bizə qoyub getdiyi***
***Ən qiymətli mirasdır, onu gözlərimiz tək***
***Qoruyub, nəsillərə biz də hədiyyə verək. [6,8]***

"Mənim anam" şeiri həcmcə kiçik olsa da özündə qalın romanlara sığacaq bir fikri, paralelliyi ehtiva edir: ana-dil. Bunların hər ikisi eyni dərəcədə müqəddəsdir, toxunulmazdır, unudulmazdır. İkisi də bir-birinə bağlıdır, ayrılmazdır:

***Savadsızdır,***
***Adını da yaza bilmir***
***Mənim anam...***
***Ancaq mənə,***
***Say öyrədib,***
***Ay öyrədib,***
***İl öyrədib;***
***Ən vacibi:***
***Dil öyrədib***
***Mənim anam... [6,52]***

Bəxtiyar Vahabzadə üçün dil anadır, vətəndir. "Bakı vaxtı ilə" şeirində radioda doğma dilin sədalarını eşidən şair özünü vətəndə hiss edir. Doğma dil onu qanadlarına alıb ana yurda aparır.

Şairin dilə qarşı həssaslığı, dili korlayanlara, onu sevməyənlərə qarşı kəskin mövqeyi həm poetik irsində, həm də publisistik yazılarında öz əksini tapmışdır. Bu baxımdan onun "Ana dilim - ana köküm", " İftiraya cavab" və s. publisistik məqalələri maraq doğurur.

B.Vahabzadə "Ana dilim-ana köküm" məqaləsində yazır: "Hansi dilin zərurətindən danışsaq, bizi alqışlayır və beynəlmiləlçi adlandırırlar. Amma çaşıb ana dilinin zərurətindən danışan kimi, anasının dilini bilməyən, ona həqarətlə baxanlar bizə şübhə ilə yanaşır, ən yaxşı halda bizi "geri qalmış adam", özünü isə irəli getmiş, mədəni və müasir adam hesab edir.[8,21] B.Vahabzadənin "İftiraya cavab" məqaləsi Çingiz Aytmatovun qırğız dilində məktəb və bağçaların açılması, ana dilinin dövlət dili səviyyəsinə qaldırılması fikirlərinə " milli təkəbbür və milli məhdudiyyət" damğası vuran məqaləyə cavab olaraq yazılmışdır. B.Vahabzadə ana dilinin təbliğinin əhəmiyyətini vurğulayaraq yazır: " ...dil yalnız ondan istifadə edəndə, həmin dildə danışanda yaşayır və inkişaf edir. Həm də dil təkcə məişət mövzusunda danışanda, sadəcə olaraq ondan istifadə edəndə yox, ondan dövlət dili kimi istifadə edəndə yaşayır...Ziyalısı ana dilində danışmayan xalqın nəinki dili, özü də ölümə məhkumdur."[8,31]

Akademik Ağamusa Axundovun şairin poetik irsi ilə ilgili fikir və mülahizələri xüsusi əhəmiyyət kəsb edir. Alimin Bəxtiyar Vahabzadə poeziyası haqqında fikirlərinə keçmədən öncə alimin ədəbiyyatın inkişafında və yaşamasında ədiblərin roluna və vəzifələrinə dair fikirlərini xatırlatmaq yerinə düşər: "Gələcək nəsillər bizim dövrümüzün dilinə qiymət verərkən, yenə də birinci növbədə bizim ən qüdrətli müasir yazıçılarımızın dilinə əsaslanacaqlar. Deməli, bədii əsərlərin dili yalnız bu və ya digər bir əsərin sadəcə ifadə tərzi deyildir. O, eyni zamanda, nəsillərin nəsillərə yadigarıdır. Beləliklə, bədii dilin



gözəlliyi yazıçıların üzərinə öz peşələri ilə bağlı olan professional bir məsuliyyət qoymaqla məhdudlaşıb qalmır, o eyni zamanda bədii yaradıcılığı özünə sənət götürənlərin üzərinə vətəndaşlıq məsuliyyəti qoyur." [1,202].

Ağamusa Axundov şair və yazıçıları dildən istifadə bacarığına görə bir neçə kateqoriyaya bölür. "Elə yazıçılar vardır ki, onlar ümumxalq dilindən öz istedadları və həssaslıqları sayəsində məharətlə istifadə edirlər. Belə yazıçıların üslubu gözəl olur, onların dili də gözəl bədii dil adlanır. Bəzi yazıçılar öz istedadlarının dərəcəsindən asılı olaraq, ümumxalq dilinin ən gizli nemətlərini yaxşı seçə bilmir, üzdən gedirlər. Belə yazıçıların da özünə məxsus üslubu, dili olur. Lakin bir də istedadsız və tənbəl yazıçılar vardır ki, özlərinin az-çox yeni və müvəffəqiyyətli sözlərini qüdrətli sənətkarların parlaq üslublarının işığında oturub yazırlar. Əlbəttə, bunlar yazıçı olmaqdan daha çox, sayğac işlətməyi, debit, kredit və s. bu kimi şeyləri öyrənib müxtəlif rəqəmləri əvvəlcədən müəyyən edilmiş ayrı-ayrı qrafalara düzən hesabdar kimi bir şeydirlər."[1,203] Bəxtiyar Vahabzadə məhz "ümumxalq dilindən öz istedadları və həssaslıqları sayəsində məharətlə istifadə edən" şairlərdəndir. Ağamusa Axundov "Şair və dil" məqaləsində B. Vahabzadənin "İztirabın sonu" poemasının dilini təhlil edərək şairin şeirlərindəki cəlbediciliyin sirrinin məhz bununla bağlı olduğunu qeyd edir.

Ağamusa Axundov "Şeir sənəti və dil" kitabında da Bəxtiyar Vahabzadə poeziyasına müraciət etmiş, şairin müxtəlif şeirlərinin linqvistik təhlilini vermişdir.

Alim şairin heca vəzninin ondördlük, yeddilik və beşlik ölçülərindən məharətlə istifadə etdiyini, həmin şeirlərin ustalıqla qələmə alındığını qeyd edir. Ağamusa Axundov Bəxtiyar Vahabzadənin əruz vəznində yazdığı şeirlərini də yüksək qiymətləndirir: "Həmin vəzndən şairlərimizin orta və gənc nəslinə mənsub olanlar da məharətlə istifadə edirlər. Məsələn, 1970-1973-cü illərdə B. Vahabzadə "Əsgər-şair", "Sevdim, bildim ki ", "Düşüncə" kimi gözəl avazlı şerlər yaratmışdır." [3,68]

Qeyd etməliyik ki, Ağamusa Axundov Bəxtiyar Vahabzadə poeziyasının yalnız linqvistik cəhətlərindən deyil, bədii məziyyətlərindən də söz açmışdır. Bu baxımdan onun "Ədəbiyyat və incəsənət" qəzetinin 1 avqust 1986-cı il 31-ci sayında dərc edilmiş "Şeirin hikməti" məqaləsi maraq doğurur. Məqalə xalq şairi Bəxtiyar Vahabzadənin "Seçilmiş əsərləri"nin ikinci cildinin çap olunması münasibətilə yazılmışdır. Akademik Bəxtiyar Vahabzadə poeziyasını təhlil edərkən şairin dildən istifadə incəliklərinə də toxunur. "Şairin bədii obrazlarla, ən çeşidli məcazlarla zəngin olan poetik dili heyrətli bir sadəliklə, aydınlıqla seçilir. "Heyf " şeirindəki misralarda olan kimi:

***Heyf o ilahi, qövsi qaşlara***
***Sınacaq kədərli düşüncələrdən***

Tək bir "sınacaq" sözünü köməyi ilə şair bütöv bir bədii portret çəkmiş, fikirdən sınmış qaşları, o qaşların sahibini oxucunun gözləri önündə canlandırmışdır. Bəxtiyar eyni bir predmeti bəzən ən müxtəlif sözlərlə rəngləyir. Lakin sözlərin müxtəlifliyi onların təyin etdiyi predmetin qavranılmasını mürəkkəbləşdirmir, əksinə daha da əyaniləşdirir" [5,6]

Ağamusa Axundov Bəxtiyar Vahabzadə poeziyasını "xəncər tiyəsi kimi iti olan bir işıq selinə" bənzədir, bu poeziyanın fəlsəfi dərinliyini, düşüncə vüsətini yüksək qiymətləndirir, bu dərinliyin, vüsətin oxucu beynini işıqlandırdığını, qəlbləri riqqətə gətirdiyini bildirir. Akademik Bəxtiyar Vahabzadə poeziyasının əsas xüsusiyyətlərini ümumiləşdirərək, belə demək mümkünsə, qısa tərifini verir: "Bəxtiyarın poeziyasını anamız torpağa oxşatmaq olar. Elə bir torpağa ki, sinəsində boynubükük bənövşə də bitirir, ildırıma baş əyməyən palıd da. Bəxtiyarın şeirləri ən kövrək və həzin hisslərin incə tərənnümü olduğu kimi, yüksək pafoslu, publisist nəfəsli, haylı-haraylı vətəndaş sözləridir. Gözəl lirik şeirlər müəllifi Bəxtiyarın şeirlərində məhəbbətin fəlsəfəsi poeziyanın bənzərsiz gözəlliyi ilə bəzənir." [5,6]

Akademik Ağamusa Axundovun elmi irsi çoxspektrli və polifonik səciyyəsi ilə seçilir. Fikrimizcə, bu irsin dərindən tədqiqi və tətbiqi həm dilçilik, həm də ədəbiyyatşünaslıq elmi üçün yeni üfüqlərin açılmasına vəsilə olacaq, yeni elmi tədqiqatların bünövrəsini qoyacaq.

**İstifadə edilmiş ədəbiyyat:**

**1. Axundov, A. Şair və dil //Azərbaycan.- 1961- №1.- S.202-208**
**2. Axundov, A. Azərbaycan sovet şeirind ə qafiyə //Azərbaycan.- 1978.- №12.- S.182-189.**
**3. Ağamusa Axundov. Şeir sənəti və dil.- Bakı, 1980.**
**4. Axundov A. Dilin estetikası.- Bakı, 1985.**
**5. Axundov, A. Şeirin hikm əti /A ğamusa Axundov // Ə d ə- biyyat v ə inc əsə n ət.- 1986.- 1 avqust.- S.6.**
**6. Vahabzadə B. Seçilmis əsərləri. 2 cilddə. 1-ci cild. Bakı, 2004.**
**7. Vahabzadə B. Seçilmis əsərləri. 2 cilddə. 2-ci cild. Bakı, 2004**
**8. Vahabzadə B. Gəlin açıq danışaq...(məqalələr toplusu).Azərnəşr. Bakı, 1988**

**Bu gün Azərbaycanın müxtəlif guşələrində orta məktəb şagirdlərinin təhsil problemləri ilə məşğul olan, onlara yeni biliklərə yiyələnməkdə yardım göstərən təhsil kursları var. Həmin kurslar öz fəaliyyətlərini birbaşa Dövlət İmtahan Mərkəzinin proqramı ilə əlaqələndiriblər. Ona görə də bu təhsil kurslarının məzunlarının əksəriyyəti qəbul imtahanlarında yüksək nəticələr göstərirlər. Bir az da konkret desək, təhsil kursları öz şagirdləri ilə daha sıx və daha ciddi məşğul olurlar, tələbkarlıqları daha yüksəkdir.**

Həmin təhsil kurslarından biri də ölkəmizin cənub bölgəsində, yəni Astara şəhərində fəaliyyət göstərir. "Astara Hazırlıq Mərkəzi" rayonda çalışan savadlı və təcrübəli müəllimləri bir araya gətirərək onlara müraciət edən şagirdləri imtahanlara yüksək səviyyədə hazırlayırlar. Fəaliyyəti ilə öz müsbət imicini qazanmış "Astara Hazırlıq Mərkəzi"nə hər kəs müraciət edə bilər.

ASTARA
hazırlıq mərkəzi

# TƏHSİLİMİZİN İNKİŞAFINA DƏSTƏK VERƏN MƏRKƏZ

9 ildir fəaliyyət göstərən "Astara Hazırlıq Mərkəzi" müxtəlif profillər üzrə hazırlıq xidmətləri təqdim edən təhsil müəssisəsidir və aşağıdakı istiqamətlər üzrə fəaliyyət göstərir:
- Məktəbəqədər təhsil (4-6 yaş uşaqlar üçün)
- İbtidai hazırlıq (I, II, III, IV sinif şagirdləri üçün)
- Təkmilləşdirmə hazırlığı (V, VI, VII, VIII sinif şagirdləri üçün)
- Liseylərə hazırlıq (Təkmilləşdirmə sinifləri üçün)
- Kolleclərə hazırlıq (VIII-IX sinif şagirdləri üçün)
- Abituriyent hazırlığı (VIII, IX, X və XI sinif şagirdləri üçün)
- Aylıq sınaq imtahanları (Bütün siniflər üçün)
- Marşrut xidməti (Kursu uzaq məsafələrdən də əlçatan və təhlükəsiz etmək üçün)



**Elektron xidmətlər:**
- Hərbi liseylərə qəbul
- Bakalavr, subbakalavr və magistrların ərizə qəbulu
- Qabiliyyət imtahanlarına qeydiyyat (ali, 9 və 11 illik)
- Rezidentura səviyyəsinə ərizə qəbulu
- Məktəbdənkənar təhsil müəssisələrinə şagird qəbulu
- Müəllimlərin iş yerinin qarşılıqlı dəyişdirilməsi
- Xarici diplomların təsdiqi
- Şagird yerdəyişməsi (IV və VI siniflər istisna)
- Peşə təhsilinin bərpası
- I sinfə elektron sənəd qəbulu



**Üstünlüklər:**
- Doğru çalışmaq yolunu öyrədən peşəkar müəllimlər
- Mütəmadi keçirilən Kuizlər, Blok və Buraxılış imtahanları
- Şagirdlərin çətinlik çəkdiyi mövzular üzrə ÖDƏNİŞSİZ əlavə dərslər
- Mükəmməl online sınaq platforması
- Təhsil keyfiyyətinə nəzarət sistemi
- Abituriyentlərin inkişaf dinamikası ilə bağlı valideynlərə hesabatların verilməsi
- Qəbul imtahanı öncəsi Təkrar Kampaniyası
- Abituriyentlərin ixtisas seçimində peşəkar məsləhətlər

**Ünvan**
**Astara şəhəri, Səməd Vurğun küçəsi 44**
**E-mail: astaratm@gmail.com**
**astarahm.edu.az**
**Telefon: +99455 509 11 32; +99450 540 11 32**

# İnsan unudulanda...

## (Adil Cəmilin son şeirləri barədə)

**Adil Cəmilin 60 illiyinə mən daha çox darıxdım. Uzun illər tanıdığım və şeirlərini sevdiyim bir insan üçün təsəllim nə ola bilərdi. Bir xudmani məclisdə İlyas Tapdıq, Oqtay Rza, Kələntər Kələntərli (Allahdan rəhmət diləyirəm mərhum-lara) və Adil Cəmil olmaqla söz - məqama yetişdi, Oqtay Rza dedi ki, Allahverdi, şairin - əlini Adil Cəmilə uzatdı - 60 illiyi gəlir, bəlkə bir söz deyəsən? Mən: - sağlıq olsun, bu söz mənlikdir, - cavab verdim. Sonra düşündüm, götür - qoy elə-dim və qərara gəldim vaxt daralsa da monoqrafiya yazım. Fikrimi Adilə çatdırdım. O, sevindi və dedi: - İstərdim siz yazasız barəmdə, qələminizə hörmətim var. Belə-liklə, ay yarıma Adil Cəmilin yaradıcılığı haqqında "Sözün Adil Cəmili" ("Elm və təhsil" nəşriyyatı, 2014, 286 səh.) monoqrafiyamı nəşr etdirdim. (Kitabın adını Adil Cəmil özü seçdi). Əsər haqqında mətbuatda da məqalələr getdi, təqdir olundu. Daha sonralar şairin poeziyası barədə məqalə yazıb çap etdirdim.**



Vaxtın necə keçdiyini təsəvvür etmədim, sən demə, illər 70-ə tələsərmiş. Amma mütəmadi olaraq telefon açır, hal-əhval tuturdum, o isə nədənsə susurdu, şair üçün belə halı təbii sayıram. Şair Adil Cəmilin 70 yaşı mətbuatda Yazıçılar Birliyində qeyd edildi. Mər-kəzi kitabxanada sərgisi açıldı. "Gəlin, unutmayaq ki..." yazan şair haqqında ilk monoqrafiya qələmə alan müəllif yada düşmədi. Hətta əyalətdə yaşayan şair dostum, tələbəmdən məktub aldım bu günlərdə, adını çəkməməyimi xahiş elə-miş-dir: "Ustadım, eşitdiyimə görə Adil Cəmil sizi tamamilə unutmuş, tədbirlərinin heç birinə sizi dəvət etməmişdir. Hətta Sərvaz Hüseynoğlu Adil Cəmil haqqında bəsit məqaləsinin "Ədəbiyyat qəzeti"ndə çap etdirmişdir.

Qeyri - professionallıqla yazılmış bir yazıda 220 misra şeir nümunəsi vermişdir. Necə ola bilər Adil Cəmil, sizi xatırlamasın... Səbəbi nədir görəsən? Unutqanlıq, cəsarətsizlik, yoxsa?!

Düzü, məktub məni məyus elədi: Səhhətimin yerində olmayan günlərində möhtəşəm bir kitabı ərsəyə gətirən ədəbiyyatşünas, pedaqoqu yada salmamaq? Halbuki, monoqrafiyada ən çox vurğuladığım Adil Cəmilin şəxsiyyəti, insanlıq fenomenliyidir. Axı, şəxsiyyəti olmayan insan necə şair, yazıçı, alim olar bilər?

Amma mən Adil Cəmili şair kimi bu gün də təqdir edirəm. Bu günlərdə "Ədəbiyyat qəzeti"ndə silsilə şeirlərini oxudum və kövrəldim ki, 70 yaşına bu tezliklə çatdı. "Gəlin, unutmayaq", "Biz gəldi gedərik", "Qalmadı" şeirlərini şair hansı hisslərin ovqatında yazmışdır: tənhalığınmı, qocalığınmı?

*Tənhalıq yad deyil, bəşər əhlinə,*
*Bu böyük dünyada hər insan təkdir.*
*Bədən ölüb gedir, ruh yaşayırsa,*
*Ölüm ölüm deyil, yer dəyişməkdir.*

*Adamın əl izi üst-üstə düşmür,*
*Adamın səsi də eyni səs deyil.*
*Dünyada xeyirxah bir iz qoyanda*
*Məzar ölənlərə dar qəfəs deyil, -*

yazan şairin fəlsəfəsi oxucunu düşünməyə vadar edir, çün insan unudulanda fiziki çəkisini itirsə də ruhu yaşayır:

*Gəlin unutmayaq, unutmayaq ki,*
*Adamlar ölürlər unudulanda.*

Alman filosofu Hegel yazırdı ki, həyatda ən böyük cəza unudulmaqdır. Mən yaşımın bu çağında belə unudulmaq istəməzdim, çün unudulanda canlı həyat da nəzərində sönür, daha doğrusu, tənhalaşırsan, deməli, qocalmısan ki... Adil Cəmil "Biz gəldi - gedərik" şeirini 70 yaşında qələmə aldı və keçmiş günlərini, illərini həzin bir duyğu ilə xatırlayır:

*Cavanlıq dediyin gözəllik imiş,*
*Çoxdan itirmişik biz gözəlliyi.*
*Qocalıq başlara qar ələyəndə*
*Solur təravətli üz gözəlliyi.*

*Bu dərd çarəsizdir, getmə dərinə,*
*Hay verən tapılmaz dərdi - sərinə.*
*Bənzəyir kül olmuş ocaq yerinə -*
*Gözləri yandıran göz gözəlliyi.*

*Qocalıq məni də atıbdır oda*
*Adili başqa kim salardı yada?*
*Biz gəldi - gedərik, amma dünyada*
*Həmişə tər qalır söz gözəlliyi.*

Hələ 70 yaş həyatda "gəldi - gedərik" hökmünü verməк deyil, baxmayaraq qocalıq ömür qapısını azansız döyür, bu səsdən ruhdan düşməyə dəyməz. Həyatın diqtəsidir, yaxşı da - zamanda ötərdir, gəldi - gedərdi, bir şərtlə insan vücudunda sevgi - məhəbbət, istək, həvəs olsun.

*Bir canıq, möhtacıq quru nəfəsə,*
*Sevgidir gətirən bizi həvəsə!*
*Ömür - gün qısadır, yolları kəsə,*
*Kim deyər yollarım kəsə qalmadı.*

Bu "yollarda" Adil Cəmil yaxşı insanlarla, bəd adamlarla da rastlaşıbdır və bəlalərini "Eynəkli ilan"a bənzətmişdir. Gözlüklü ilanları görmüşük, vahiləmişik. Belə eynəkli - gözlüklü ilanlar - insan xislətində son dərəcə qorxulu olur, zəhər tu-luğu azu - yığına çevrilir, "kimi sancmasa yaşaya bilmir, nə üçün yaşadığını dərk etmir".

**Şair Adil Cəmilin şeirləri məni çox-çox uzaqlara apardı, üzünə hər an tay-batay açılan qapıların "qapanması"na qədər. Nə üçün belə oldu: olmaya yaşmı gü-nahkardır, Dünyamı, yoxsa İnsanlarmı?! Dünyanı günahlandırmağa dəyərmi? Günahkar biz özümüzük! Unuduruq bir vaxt ünsiyyət bağladığımız insanları, "ye-nilərinin" axtarışına çıxırıq. Halbuki, bir zaman yetişəcək onları da yaddan çıxa-racağıq! Amma sonuncu vaqeəni istəməzdim.**

**Allahverdi Eminov**

---


**Musa Xanbabazadə**
**Filoloq-ədəbiyyatşünas**




# TƏNHALIĞA ƏYİLMƏZ QADIN

## (Qafar Cəfərlinin "Tənha qadın" hekayəsi üzrə)

**"Tənha qadın" tanınmış yazıçı-dramaturq Qafar Cəfərlinin çoxsaylı hekayələri arasında öz xüsusi bədii çəkisi, komfozisiya quruluşu, şirin axıcı dili ilə seçilir. Yazıçı hekayədə ustalıqla, təfərrüata varmadan Nərmin adlı dul bir qadının iç dünyasını və bu dünyanın oxucuya müsbət tərəflərini işıqlandırır, Nərminin yaşadığı tənhalığın dəhşətlərini nasiranə şəkildə epikləşdirir. Epikləşdirir müəllif Nərminin universitet bufeti və Nihatla görüşünü, üç il Nihatla bir dam altda xoşbəxt yaşadığını, rəfiqələri Gülnarın toylarında hər ikisinə "bir ömür xoşbəxtlik" arzuladığını, Nihatın qəzaya düşüb ölməsindən sonra Nərminin tənha yaşadığını, övlad həsrətilə yanıb-qovrulduğunu, nəhayət, uşaq həsrətinə son qoyulduğunu. Əlbəttə, hekayənin canıruhu bu qısa-yığcam epizodlarda yox, Nərminin təklik və tənhalıq yaşamağında, təklik və tənhalıq ağrılarına mərdanəliklə sinə gərməsindədir.**

Hekayədə iki obraz üz-üzədir, iki obraz ölüm-dirim uğrunda çarpışır. Biri təcrübəsiz, fəqət inadlı Nərmin, digəri isə yaşı min illərlə ölçülən Tənhalıq. Biri Ölüm, digəri isə Dirim. Məğlubiyyəti heç biri qəbul etmir. Mübarizədən heç biri çəkilmir. Hər ikisi qələbə, uğur arzusundadır.

Tənhalıqla döyüş-savaşda bir arxası, bir yardımçısı yoxdur Nərminin. Məsləhət verəni, yol göstərəni varsa da, heç biri gözə dəymir, heç biri özünü bu ağır yük altına salmaq istəmir. Tək-tənhadır Nərmin. Qohumu-doğması olsa da yüz-yüz, olsa da min-min. Heç Nərmin özü də kimsədən kömək istəmir və bu döyüşdən qələbə ilə çıxmasına əmindir. Gücünə təkcə güc qatır Nihatın yoxluğu, Nihatla bağlı xatirələri: "Çay dolu fincanı götürüb qonaq otağına keçdi. Fincanı divanın qarşısındakı yazı masasının üstünə qoydu. Otağın hər tərəfi Nihatla bağlı xatirələrə bürünmüşdü. Otaqdakı divarda, servantda, kitab şkafında, televizorun üstündə Nihatla olan xoşbəxt anları əks edən şəkillərə baxmaqdan doymurdu". (səh 158)

Tənhalıq görünməz ağır əlləri ilə sıxır-sıxırdı Nərmini. Dərd yükləyirdi ürəyinə. Yaxıb-yandırırdı Nərmini. Həyat və məişətdən qoparmağa çalışırdı onu. Lakin Nərmin bir an da olsun belə yaddan çıxarmırdı Nihatını-ömrünün-həyatının bu ilk sevgi varidatını. Çünki Nihat sağikən, varikən hər nə, hər şey etmişdi Nərmin üçün.Nərminə həyat dolu, istək dolu xatirələr qoyub getmişdi Nihat. Gülnar bir gün Nərminə gələcəkdə ailə quracağını təklif etsə də, Nərmin bunu qəti rədd etmiş, halı pisləşmiş, haldan-hala düşmüş və sözarası Gülzara xatırlatmışdı ki, Nihatla keçirdiyi üç il bir qadın olaraq qalan bütün həyatına bəs edir (səh 158). Yazıçı təqdimatından da hiss olunur ki, Nihat bir qadın və bir xanım olaraq Nərminə çox şey vermişdi. Bircə övladdan başqa (səh158).

Ərsizlik və övladsızlıq əzir, yeyir ac qurd kimi Nərmini. Nərmin yaxşı bilir ki, ər-arvad birliyi gətirir evə-ocağa diriliyi. Qaldırır evdən hər əyər-əskikliyi, hər cür geriliyi. Evə buraxmır çirkinlik və əyriliyi. Dözür ərsizliyə, dözür Nərmin. Yüzcə günün ərsizliyi yaşatmadı Nərminə hünərsizlik. Qeyrətsiz etmədi bu yüzcə gün bir an belə Nərmini.Ərsiz yaşaya-yaşaya belə ərli oldu Nərmin, hünər-təpərli oldu Nərmin. Dözürdü ərsizliyə. Fəqət dözmürdü övladsızlığa. Dözmürdü ailə həyatından bir nişanə-ya qız, ya da oğlan uşağının yoxluğuna. Bu, odsuz-ocaqsız yandırır, kül edirdi Nərmini. Və bir gün Nərmin xəyalən Nihata müraciət edərək ah dolu, fəryad dolu bir səslə övladsızlıq dərdini belə bəyan edir: "...bir bunu bil ki, sənsiz yaşamaq mənə çox ağırdır, çox. İşləməsəydim bu dərdə dözə bilməzdim, inan mənə. Məni ən çox ağrıdan bilirsən nədir? Bizim ailə həyatımızdan heç bir nişanə qalmadı!!(səh160)



Sirdaş, qardaş idi Nihatın yoxluğu ilə Nərmin. Ağrı və ehtiyaclarını, hər kiçik-böyük problemini yalnız Nihatla bölüşür, ondan yardım-məsləhətlər alır. Səhhətinin gün-gün pisləşdiyini, həkim müayinəsinə getdiyini, dəvadərman qəbul etdiyini - hamısını, birbir Nihata söyləyir: "Dedilər (həkimlər nəzərdə tutulur-M.X) problem, əsəb stresdir. Hələ bəzi müayinələrin cavabı sonraya qaldı. Məncə, dəqiq diaqnozum onda bilinəcək. Zəng edib çağıracaqlar. Dəva-dərman da yazdılar. Dünəndən qəbul edirəm, hələ ki,təsirini görmürəm". (səh160)

Tənha qadınların halına acıyır Nərmin. Həm onların sosial durumları, həm də kişilərin onlara riyakar münasibətləri kəsir Nərminin səbrini, artırır gün-gün əzab-cəbrini. Xüsusən, kişilərin dul qadınlara qeyri-səmimi münasibətləri, onlara yataq partnyoru kimi yanaşması hiddətləndirir, hövsələdən çıxarır Nərmini və o anlayır ki, dul qadınların iyrənc bir həyata yuvarlanması kişi tayfasının ən bağışlanılmaz səhvi və günahıdır: "Niyə kişilər xanımları duymur,onların hislərini dəyərləndirib ruhlarını oxşaya bilmirlər. O, zərif məxluqun qəlbini ağrıtmaq, onun hislərini tapdalamaq böyük günah olduğunu kişilər nə vaxt anlayar, görəsən? Niyə cəmiyyətimiz bu günə qalıb, niyə? (səh162).

Tənha qadınlar, o cümlədən Nərmin də bilir ki, böyük yaradan onların da ümidlərini göyərdəcək, onların da qarşılarına elə bir namuslu kişi çıxaracaq ki, dərdini biləcək, kədərinə qəmxarlıq edəcək və o kəs bu və ya digər bir qadının ürəyinin lap dərinliklərində bir ümid işığı kimi parlayar və dul bir qadını özünə, öz ağuşuna haraylayar və dodaqlarında qeyri-ixtiyari olaraq bu və buna bənzər poetik misralar səslənəcək:

*Qadın, qadın!Sən tənha.Mən tənha.*
*Gəl sığınaq Allaha, gedək üzü sabaha.*

Nihatda tapmışdı özünü Nərmin. Nihatda tapmışdı xoşbəxtlik və səadətini Nərmin də. Nihat olmayan yerdə yoxdur Nərmin də, yoxdur xoşbəxtlik də. Nihatsız dünya boşalmışdı Nərmin üçün. Yetim, kimsəsiz idi Nərmin. Arxasız-köməksiz idi Nərmin. Can atırdı Nərmin Nihata doğru. Tələsirdi Nihata qovuşmağa: "Hər gün əzablar içində ölürəm, yanıb kül oluram. Birdəfəlik ölməyim yaxşı olmazmı? Bu cür yaşamağım kiməsə lazımdırmı? Yox, yox heç kimə lazım deyil. Sən (Nihat nəzərdə tutulur-M.X) vəfasız çıxdın, mən isə səni tək qoymaram, yox qoymaram. Gəlirəm yanına, Nihat, məni qarşıla".(səh163) Və Nərmin tənhalığın dəhşətlərindən qurtulmaq üçün ölüm qoxusu gələn havanı içinə çəkir. Ayaqlarını bir-bir ölüm pillələrinə qoyur. Özünü pəncərədən atmaq istəyir, elə bu an mobil telefonuna ard-arda bir neçə mesaj gəlir.Tez pilləkəndən düşür. Tumbanın üstündəki telefonu əlinə alır. Mesaj blokunu açır. Ekranda yazılanları həyacanla oxuyur: "Nərmin xanım! Müayinə zamanı sizin üçaylıq oğlan uşağına hamilə olduğunuz təsdiq olundu. Təbrik edirik. Müayinənin nəticəsi ilə bağlı sənədi gəlib götürə bilərsiniz".(səh.164)

Bu xoşxəbər mesaj sevindirir Nərmini yer-göy qədər. Sevinir Nərmin ona görə ki, artıq onun üzünə gülür qədər. Sabahda, birigündə ana statusu qazanacaq, təkliyin-tənhalığın binəsinə od vuracaq. Əridəcək həsrətlərin-hicranların buz bağlamış divarlarını. Pərdə-pərdə axıdacaq uşaq qığıltısına həsrət ev-eşiyə ana laylalarını. Minnətdarlıq edəcək öz şirindənşirin Nihatına-ilk eşqinin, sevdasının toy-büsatına. Atacaq biryolluq təklik və tənhalığı. Tapacaq könül rahatlığı, könül abadlığı. Yurduna-vətəninə layiq bir övlad kimi böyüdəcək Nihatının yadigarını.

Qafar Cəfərlinin "Tənha qadın"ı nikbin sonluqla bitir və bu sonluq itirir-batırır Nərminin ruhuna hopmuş bədbinliyi, özünə laqeydlik və biganəliyi. Qalib gəlir bu hekayədə, eyni zamanda, Nərminin uşaq-övlad nisgili, Nərminin divanəliyi, uşaq məcnunluğu, ana cünunluğu. Və Nərmin həyatının analıq dövrünə qədəm qoyur analıq sevgisi, analıq məhəbbətilə. Yol gedir Nərmin sabahlara son qoyaraq amanlara-ahlara. Yol gedir Nərmin-tənhalığa əyilməz qadın yeni-yeni ümid və istəklərə.

***P.S.*** Məqalədə istifadə olunan nümunələr Qafar Cəfərlinin "Qıl körpüsündə rəqs" (Bakı- "Ecoprint-2024) kitabından alınmışdır.

***P.P.S.*** Yaradıcılığına bələd olduğum və bəyəndiyim yazıçı, dramaturq Qafar Cəfərli yazdığı bədii, publisistik və dramatik əsərləri ilə oxucalara yaxşı tanışdır.

Onun hekayələr, povestlər, romanlar, novellalar və publisistik yazılardan ibarət bir neçə kitabı işıq üzü görüb, pyesləri Lənkəran və Füzuli Dövlət Dram Teatrlarında tamaşaya qoyulub. Əsərlərinə filmlər çəkilib. Qafar Cəfərli özü də filmlərdə və seriallarda ("İzi itməyən cinayətlər" layihəsi üzrə çəkilən filmlərdə, "Günəşim ol" serialında) aktyor kimi çəkilib. Bütün bunlar onun hərtərəfli istedadından xəbər verir.

**Bu yazımda mən Qafar Cəfərlinin "Tənha qadın" hekayəsi ilə bağlı çoxdan beynimdə dolaşan fikir və düşüncələrimi sizlərlə bölüşdüm. Məqsədim həm də bu yazımla dostum Qafar Cəfərlini yeni - 68 yaşının (7 mart 1957-ci ildə anadan olub) tamam olması münasibəti ilə təbrik etmək, ona şəxsi həyatda və yaradıcılıqda uğurlar diləmək idi.**



# BAYAT



№ 36 (896)



*Fərqanə Mehdiyeva*

*Özü Cənnətdə, Sözü bu dünyada olan Fərqanə xanımın ruhuna ehtiramla...*

## TƏNDİR

Keçib boğazımız gəlib kəndirə,
Dərdimiz bəllidir, dərman tapılmır.
Evin dalındakı qərib təndirə,
Gör neçə zamandır çörək yapılmır

Bu uzun-uzadı ömür yolunda,
Anamla qoşaca çalışıb təndir.
Ələ düşməyəndə kibrit əvəzi
Anamın içindən alışıb təndir.

Qaçanda ağlayan uşaq səsinə,
Əlindən birbəbir düşüb kündələr.
Beləcə böyüdüb anam bizləri,
Qəlbinin odunda bişib kündələr

Təndirin tüstüsü çıxanda başdan,
Anam gözlərindən su çiləyibdi.
Küt gedən kündəni ovutmaq üçün,
Ərkyana təndiri şillələyibdi.

Əyninə özgə don geyməyən anam,
Təndir tüstüsündən yüz don geyinib.
Başını bir kəsə əyməyən anam,
Təndirə çatanda min yol əyilib.

Doğma anasıtək sevib təndiri,
Könlünə şipşirin ovqat olubdu.
Anam getməyəndə təndirə yaxın,
Təndirin sinəsi çat-çat olubdu.

Kündələr üstündə qıvrılan əllər,
Bəs bu gün görəsən nələri anır?
Bir zaman təndirdə qovrulan əllər,
İndi ehtiyacdan alışıb-yanır.

Analar neyləsin, Allahın altda
Bir az da çoxalıb um-küsüləri.
Əriyən, azalan ömürləritək,
Azalır dam altda un kisələri

Təndir anam kimi doğmadır mənə,
Mən onu müqəddəs ocaq sanacam.
Gün gəlsə olmasa anam həyatda,
Günb gəlsə olmasa anam həyətdə
Mən yanıb, közərib təndirdən betər,
Qaçıb o təndiri qucaqlayacam.

Anam bölə bilər bir tikəsini,
Anam mərd önündə dizin qatlayar.
Damdan əskiltməyin un kisəsini,
Amanın günüdü, anamdan qabaq
Həyətdə təndirin bağrı çatlayar.

## SİZ MƏNİ QOYMAYIN ŞAİR OLMAĞA

Bu da xasiyyətdi, cəhətdi deyin,
Sənə söz deyənin nə həddi, deyin.
Başına bir sənət qəhətdi, deyin,
Siz məni qoymayın şair olmağa

Yandırın kağızı yanacaq edin,
Sındırın qələmi oyuncaq edin.
Üçbəndli şerimi üçbucaq edin,
Siz məni qoymayın şair olmağa

Keçin qabağıma yolumu tutun,
Bir az ərk eləyib qolumu tutun.
Hərəniz bir yandan əlimi tutun,
Siz məni qoymayın şair olmağa

Bacarın içimdən çıxarın məni,
Bir az da incidib çıxarın məni,
Girdiyim küncümdən çıxarın məni,
Siz məni qoymayın şair olmağa

Qəbrinin qapağı açıqdı, deyin,
Qurduğun yurd-yuva uçuqdu, deyin.
Ay ANA, ATAmız yazıqdı, deyin,
Siz məni qoymayın şair olmağa

Şairlər bölünməz, bütün olurlar,
Tüstüsü çıxmayan tütün olurlar.
Şair balaları yetim olurlar,
Siz məni qoymayın şair olmağa

Taleyin köçümə köçü çatmadı,
İstədim "beş" alam, "üç"ü çatmadı.
ATAmın, ANAmın gücü çatmadı,
Siz məni qoymayın şair olmağa.

## QIZLARI QOYMAYIN ŞEİR YAZMAĞA

Sevin, sevginizi kəsir qoymayın,
Ürəyi nanə tək əsir, qoymayın,
Ömrünü misradan asır qoymayın,
Qızları qoymayın şeir yazmağa.

Yazırsa..Tanrıdan söz alıb nədi,
Soyuq bir baxışdan sozalıb nədi,
Sevdi qismətləri azalıb nədi,
Qızları qoymayın şeir yazmağa.

Qoymayın yüyürsün həsrətə tərəf,
Arazdan baş alıb qarışır Kürə,
Bir misra yazırsa ölür min kərə,
Qızları qoymayın şeir yazmağa.

Qızlar bu dünyanın gülü olublar,
Qızlar bir ocağın külü olublar,
Divanə olublar,dəli olublar,
Qızları qoymayın şeir yazmağa.

Bacarın dərdini,odunu alın,
Yaralı soyunu adını alın,
Dağılmış yerini,yurdunu alın,
Qızları qoymayın şeir yazmağa.

Taleyin qışından qoyun büstünü,
Başının daşından qoyun büstünü,
Üşüsə şeirlə örtün üstünü,
Qızları qoymayın şeir yazmağa.

Xəyalı göylərdə yerini yazır,
Qovrula-qovrula sirrini yazır,
Hələ beş dərdindən birini yazır,
Qızları qoymayın şeir yazmağa.

## ŞƏKİLDİ

Hərdən yana-yana tökub baxıram,
Deyirəm..eh..bu da filan şəkildi.
Gənclik həsrətilə yanıb,qovrulan
Bənizi saralan,solan şəkildi.

Ayıl xəyallardan, azca bəri düş,
Hərəsi bir cürə sifəti dönmüş.
Çiynində günlər var..anası ölmüş
İllərdən-illərə qalan şəkildi.

Bircə söz soruşum gör nə deyəcək
SÖZə çevriləcək, ŞEİRə dönəcək.
Nə vaxtsa, daş üstən gülümsəyəcək
İndidən gözləri dolan şəkildi.

Gözündə eynək yox, əlində əsa
Atam çəkdirmişdi bir vaxt hardasa.
Anam yox, qaldırıb divardan asa
Ruhu yağmalanmış, talan şəkildi.

Ağzım uzun ömrə sulandı vallah
Qarşımda ocaq tək qalandı vallah.
Dünyada nə varsa yalandı vallah
Dünyada tək bircə qalan şəkildi....

## BAŞDAŞI DÜZƏLDƏNLƏ SÖHBƏT

Usta, alverin çox olar,
Bu qara rüzgarla çağla.
İstəyirsən lap beh verim,
Yaxşısını mənə saxla.

Hardan gəlib çıxdım bura,
Bir özgə yolum olmadı?
İndidən alım, sonralar

Bəlkə heç pulum olmadı
Bax üzümə baxır o daş,
Sındırma, könlü xoş olsun.
Eləsini saxla, qardaş,
Başıma yaraşan olsun.

Bəlkə, almasam da olar,
Bu ehtiyac bir həvəsdi.
Qəbrimin üstə qoymağa,
Başıma düşən daş bəsdi!...

Birin behlə, çıxım gedim,
Kimsəyə gərək olmasın.
Nə qəribə peşən varmış,
Görüm, mübarək olmasın!...

Yonduğun məzar daşları,
Sənə dərd, azar verməsin.
A müştəri gözləyənim,
Heç Allah bazar verməsin!

## GEDƏSƏN DÜNYANIN AXIRINACAN

Bu nağıl dünyanın dilindən tutub
Gedəsən dünyanın axırınacan.
Bir dəli sevginin əlindən tutub
Gedəsən dünyanın axırınacan.

Özündən kənara hərdən çıxasan,
Göydən ayrılasan, Yerdən çıxasan.
Pünhan saxladığın sirrdən çıxasan,
Gedəsən dünyanın axırınacan.

Əl atıb çəmənin gülün götürüb,
Əyilib ocağa külün götürüb.
Əlinə bir kağız, qələm götürüb
Gedəsən dünyanın axırınacan.

Bu yerin altının üstən tutasan,
Yıxılsan bir qəfil səsdən tutasan.
Ağlına gəlməyən kəsdən tutasan,
Gedəsən dünyanın axırınacan.

Qurumaz gün üzü, bu dərdi sər ki,
Xatirən açlıa yoluna səpgi -
Alıb əllərinə bir daş, bir çəki,
Gedəsən dünyanın axırınacan.

## YARAŞDI BƏXTİMƏ QƏŞƏNG AYRILIQ

Dağlara, daşlara dedim dərdimi,
Qarışıq yuxumu yozan olmadı.
Hər çatan bir pozan aldı əlinə,
Səni taleyimə yazan olmadı -
Mən sənin ömrünə çata bilmədim.

Könlünü açmadı o yazın yolu,
Dolandı boynuma Arazın qolu.
Tutub əllərindən upuzun yolun -
Mən sənin ömrünə çata bilmədim.

Çəkdi ürəyimi şişə ayrılıq,
Sındı çilik-çilik şüşə ayrılıq,
Yaraşdı bəxtimə qəşəng ayrılıq,
Mən sənin ömrünə çata bilmədim.

Qəlbi qırıq, para ömür yaşadım,
Allah, üzü qara ömür yaşadım,
Qızara-qızara ömür yaşadım -
Mən sənin ömrünə çata bilmədim.

Mən sənə yüyürdüm, qaçdım min dəfə,
Bağlı pəncərəmi açdım min dəfə.
Çox da ürəyindən keçdim min dəfə,
Mən sənin ömrünə çata bilmədim.

Bir göz qırmıpında itib qayıtdım,
Dəniz gözlərində batıb qayıtdım,
Dünyanın axrına çatıb qayıtdım,
Mən sənin ömrünə çata bilmədim.

## BİLİRSƏN SÖZ ADAMIYAM

Ay sinəmə dağ çəkənim,
Gəl məni düzlə aldatma.
Yoxsa sənə üz vermişəm,
Üzümü üzlə aldatma.

Donmuşam yumşaq deyiləm,
Əyilmişəm şax deyiləm,
Mən daha uşaq deyiləm,
Deyib də "gözlə" aldatma.

Dünyanın düz adamıyam,
Tanrının öz adamıyam,
Bilirsən Söz adamıyam,
Sən məni sözlə aldatma.

## İNDİDƏN

O nakam nə yatdı nə yuxu görə,
Bir yuxu görmüşdü yozun indidən.
Ağlağan şeirimin sətirlərindən,
Gülümsər şəklini asım indidən.

Deyin biri yoxdu biri var idi,
Yolunda boranı qarı var idi,
Deyin cərgəmizdə yeri var idi,
Tutun qəlbinizdə yasın indidən.

Bir yığım istəyi solar heç olar,
Nə boyda arzusu gedər köç olar,
Ona nə desəniz sonra gec olar,
Ona nə yazırsız yazın indidən.

## XATİRƏ GECƏMƏ GƏLƏCƏK DOSTLAR

Mən də çoxaldacam qəmin birin də,
Çalacaq qulağı desəm yerin də,
Günlərin birində, günün birində,
Xatirə gecəmə gələcək dostlar.

Məlahət əlində çiçək dəstəsi,
Dostların mən ollam elə siftəsi,
Yaxıb, yandıracam gör neçə kəsi,
Xatirə gecəmə gələcək dostlar.

Kim deyər,keçirdi bir ömrü hədər,
Üzləri bürüyər qəribə kədər,
Özümdən savayı şəklimə qədər,
Xatirə gecəmə gələcək dostlar.

Çoxunu gözləyər bu qəribəlik,
Anam tələsəcək əlində çəlik,
Bütün zal susacaq bir dəqiqəlik,
Xatirə gecəmə gələcək dostlar.

Yanacaq, astaca bir şam yanacaq,
Yanacaq sənətim,peşəm yanacaq,
Bəlkə, hamıdan çox Qəşəm yanacaq,
Xatirə gecəmə gələcək dostlar.

Torpağım titrəyər varaq sayağı,
Çəkib sinələrə çal-çarpaz dağı,
Ay Allah, gündüzün günorta çağı,
Xatirə gecəmə gələcək dostlar.

**Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

№ 7 (2430) 21 fevral 2025-ci il



# ALİ BAŞ KOMANDAN GÜCLÜ OLANDA...



**Dünyada çox müharibələr olub və o müharibələrdə udan da, uduzan da dövlətlər yaxşı məlumdur. Amma məlum olmayan odur ki, böyük müharibələrin qələbə sirlərini çox dövlətlər gizlədib. Və bu gün də gizlətməyə çalışırlar. Çünki onlar düşünürlər ki, o qələbənin taktiki və sirli məqamlarını hansısa ölkə öyrənə və bundan istifadə edə bilər. İkinci Dünya müharibəsində bilirsiniz SSRi niyə faşist Almaniyasına və onun müttəfiqlərinə qalib gəldi? SSRİ ona görə qalib gəldi ki, bu ölkədəki bütün xalqlar rəhbərləri Stalinə inanırdılar, çünki onlar döyüşə atılanda "Vətən uğrunda!", "Stalin uğrunda!" deyirdilər. Bəlkə də Stalin kimi böyük sərkərdə və rəhbər olmasaydı SSRİ 1941-45-ci il İkinci Dünya Müharibəsində qələbə qazana bilməz, Reyxstaqa bayraq sancmağı bacarmazdılar.**

Sözümüzün canı ondan ibarətdir ki, Azərbaycan da İkinci Qarabağ savaşında, daha doğrusu, 44 günlük böyük müharibədə öz Ali Baş Komandanı, prezident İlham Əliyevə güvənmişdi. Çünki Azərbaycan xalqı yaxşı bilirdi ki, onun müdrik prezidenti İlham Əliyev Heydər Əliyev siyasi xəttini davam etdirərək bu müharibədən qalib çıxa bilər. Məhz buna görə də İlham Əliyevin böyük siyasi təfəkkürü və idarəetmə qabiliyyəti, eləcə də onun ümumxalq sevgisi bu döyüşlərdə böyük qələbəmizə təkan verdi.

Əlbəttə, Ali Baş Komandan güclü olsa, onun çıxartdığı qərarlar müdrik olsa həmin xalq da istər-istəməz həm müharibədən, həm də siyasi və iqtisadi böhrandan uğurla çıxar. Prezident İlham Əliyev bir daha tarixdə sübut etdi ki, xalqa söykənməkdən və xalqa güvənməkdən böyük güc yoxdur. Çünki xalqa söykənmək, xalqa güvənmək dağa arxalanmaq deməkdir. Gözümüzün qabağında üç ildir ki, Rusiya ilə Ukrayna arasında böyük müharibə gedir. ABŞ başda olmaqla bütün Avropa ölkələri Ukraynaya həm hərbi, həm maddi, həm də mənəvi cəhətdən dəstək verirlər. Amma yenə Ukrayna müharibədə dönüş yarada bilmədi və ərazilərini itirməkdə davam edir. Çünki Ukrayna prezidenti bizim prezident kimi siyasi cəhətdən güclü və müdrik deyil, ona görə də cəbhədə çox böyük məğlubiyyətə düçar olub.

Tarix bir daha sübut edir ki, 44 günlük İkinci Qarabağ savaşı İlham Əliyevin dünya tarixində qızıl hərflə yazılmış şah əsəridir. Bu şah əsərin müəllifi Ali Baş Komandan, Azərbaycan ordusu və xalqımızdır.

2020-ci il sentyabrın 27-də başlayan İkinci Qarabağ savaşı nəinki ermənilərin, hətta onların havadarlarının kürkünə birə salmışdı. Ən azından ona görə ki, ermənilər və onların havadarları gözləmirdilər ki, 44 gündə Azərbaycan Ordusu ildırım sürətilə hərəkət edərək işğal altında olan Qarabağı azad edəcək. Bu onların və havadarlarının heç ağlına belə gəlməzdi. Çünki təpədən dırnağa qədər silahlanmış və 30 ildə işğal etdiyi ərazilərimizdə yüksək müdafiə xətti qurmuş ermənilər düşünürdülər ki, bu müdafiəni yarmaq üçün ən azından Azərbaycana 5-6 ay vaxt lazımdır. Amma onlar bilmirdilər ki, onların düşündüyü bu zaman çox uzaq məsafədir və qüdrətli ordumuz "Ohanyan səddi"ni bir neçə gün içində darmadağın edərək işğal altında olan qəsəbələrimizi, kəndlərimizi azad edəcək.

Artıq sentyabrın 27-30-u arasında ilk böyük qələbənin sevincini Ali Baş Komandan və ordumuz xalqımıza yaşatdı. Yəni üç gün ərzində Cəbrayıl və Füzulinin nə az-nə çox ona yaxın yaşayış məntəqəsi erməni işğalçılarından təmizləndi. Düzdür, bu döyüşlərdə bizim itkilərimiz də oldu. Amma biz şəhid verdik, işğal altında olan torpaqlarımızı azad etməyi bacardıq. Azərbaycan Ordusu ona görə qüdrətli və güclü ordudur ki, onun generalından tutmuş sıravi əsgərinə qədər heç bir döyüşçü şəhid olmaqdan, yaralanmaqdan qorxmurdu. Əksinə, hər bir zabitimiz və əsgərimiz ona can atırdı ki, sürətlə irəliləsin, yaşayış məntəqələrimizi azad etsin və müqəddəs torpaqlarımıza qələbə bayrağımızı sancsın. Bu qələbə bayrağını Allah-Təala və döyüşçülərimiz xalqımıza yaşatdılar.

Artıq oktyabrın əvvəllərində Azərbaycan ilk böyük qələbəsini qazanmağa nail oldu. Belə ki Cəbrayıl şəhəri təpədən-dırnağadək silahlanmış erməni hərbi qüvvələrindən təmizlənərək azad edildi və Cəbrayıl şəhərinə bayrağımız sancıldı. Ordumuzun hərbi rəhbərləri bu qələbə xəbərini ilk dəfə Ali Baş Komandan, Azərbaycan prezidenti İlham Əliyevə çatdırdı. Cənab prezident İlham Əliyev isə qələbə sevincini televiziyadakı çıxışında xalqımıza ərməğan etdi. Və bu qələbədən sonra Azərbaycan Ordusu daha da həvəsləndi və hərbi əməliyyatları bir qədər sürətləndirdi. Bir neçə gündən sonra Hadrut şəhəri azad olundu. Ondan bir müddət keçməmiş Füzuli şəhəri erməni işğalçılarından azad edilərək ordumuzun nəzarətinə keçdi.

Təbii ki, bu möhtəşəm qələbənin əldə edilməsi və qazanılması hər bir Azərbaycan əsgərində, hər bir Azərbaycan vətəndaşında böyük ruh yüksəkliyi yaradırdı. Belə ki, orduya kömək məqsədilə on minlərlə gənc Səfərbərlik və hərbi çağırış xidməti idarəsinə yaxınlaşaraq könüllü surətdə cəbhəyə getmək istədiyini bildirirdilər. Səfərbərlik idarəsinin qarşısında böyük növbələr yaranmışdı. Bu növbələr Vətənə, prezidentə, xalqa olan möhtəşəm məhəbbət idi. O məhəbbət ki onun qarşısını nə düşmənin müasir silahları, nə də onların havadarları almağı bacarardı.

Aydındır ki, qüdrətli Azərbaycan ordusunun uğurlu əməliyyatları davam edirdi. Sonradan Qubadlı, Zəngilan, Şuşa erməni işğalından azad olundu.

Şuşa azad olunan kimi ermənilərin beli qırıldı və onlar məcbur olub üçtərəfli Bəyannaməyə 2020-ci il noyabrın 10-da imza atdılar. İmza atdılar ki, onlar təslim olur və bir müddətdən sonra Ağdamı, Kəlbəcəri və Laçını boşaldırlar. Və həmin rayonlar da göstərilən vaxtda işğaldan azad olundu, bu yaşayış məntəqələrində Azərbaycan bayrağı dalğalandı. 44 günlük Böyük Qarabağ savaşı Azərbaycanın böyük qələbəsi ilə başa çatdı.

**2023-cü il sentyabrın 19-20-də antitteror əməliyyatı zamanı Azərbaycan ordusu Xankəndini, Xocavəndi, Əsgəranı, Xocalını və digər erməni işğalı altında olan Qarabağ torpaqlarını azad elədi. Bununla da cəmi Qarabağ erməni işğalından xilas oldu və Azərbaycanın ərazi bütövlüyü tamamilə bərpa edildi.**

**EMİL FAİQOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# Turistlərin heyran qaldığı Səlimiyyə məscidi

**Türkiyə tarixi abidələrin, memarlıq abidələrinin sanki açıq muzeyidir. Qardaş Türkiyənin hər daşı, hər qayası bir tarixdir. Bu yazımızda Osmanlı memarlığının qızıl əsrinə öz damğasını vuran, Memar Sinanın "ustalıq əsərim" adlandırdığı Ədirnədəki Səlimiyyə məscidi haqqında məlumat vermək istəyirik.**

Qanuni Sultan Süleyman və Hürrəm Sultanın oğlu Sultan II Səlimin Memar Sinana tikdirdiyi bu məscid türk və İslam memarlığının ən mühüm əsərlərindən biridir. Məscid 2011-ci ildə YUNESKO-nun mədəni İrs siyahısına daxil edilib.

Sultan II Səlim məscidin inşası işlərini həyata keçirmək üçün 80 yaşlı Memar Sinanı yanına çağırır və heç bir xərcdən çəkinmədən Ədirnədə onun adını daşıyan bir məscid tikilməsini tapşırır. Memar Sinan qısa müddətdə padşahın verdiyi tapşırığı yerinə yetirmək üçün Ədirnəyə gedir. 1568-ci ildə məscidin inşası başlayır və 1574-cü ildə Sultan II Səlimin vəfat etməsindən dərhal sonra ibadətə açılır.

Memar Sinanın İstanbuldakı şah əsərləri "Şahzadəbaşı" və "Süleymaniyyə"məscidləri onun memarlıqdakı qabiliyyətlərini sübut edən sənət inciləridir. Memar Sinan Ser Mimaranı, yəni Dünya memarlarının şahı adına sahibdir.

Memar Sinan Səlimiyyə məscidini inşa edərkən əvvəlki heç bir məsciddə, ya da qədim dövr məbədində rast gəlinməyən bir texnikadan istifadə edib. Məscidin sütunlarını və başlıqlarını qədim Misir mədəniyyətinin lotus bəzəklərindən təsirlənərək yaratmışdı. Məscidin həyətinin ortasında yerləşən su bulağı Memar Sinanaın inşa etdiyi digər bulaqlardan çox fərqlənir. Belə ki, bulağın altına yerləşdirdiyi kiçik hovuzlara düşən su dəstəmaz alanların üzərinə sıçramır.



Bu gün də öz mövcudluğunu qoruyan minbər Türk-İslam sənətinin şah əsərlərindən biri sayılır. Mərmərin üzərində təsvir edilən bəzəklər ilk günkü kimi öz gözəlliyini qoruyur. Məsciddəki moizə köşkü də diqqəti cəlb edən məkanlardandır.

Məscidin gümbəzləri 43 metr yüksəkliyində və 32 metr diametrindədir. Qübbə 8 sütuna söykənən bir təməl üzərinə oturdulub. Məsciddə 6000 nəfər dini vəzifəsini yerinə yetirə bilər. Beləliklə, Memar Sinan əsrlər boyu öz mövcudluğunu qoruya biləcək bir şah əsər yaradıb.

Məscidin nəzərə çarpan xüsusiyyətlərindən biri də sadə olmasıdır. Qırmızı və ağ rəngin harmoniyası diqqətli nəzərlərdən qaçmaz.

Məscidin göyə ucalan dörd minarəsi İslam dünyasının qələm incəliyində və gözəlliyində ən gözəl nümunələrdən olmağa davam edir. Minarələrin balkonlarına üç ayrı pillələrdən qaxmaq olur. Azan oxumaq üçün fərqli balkona çıxan vaizlər bir-biri ilə qarşılaşmır.

Səlimiyyə məscidi Ədirnənin siluetinə hakim bir mövqedə yerləşir. Məscidi hər il həm ölkə daxilindən, həm də xaricindən minlərlə turist ziyarət edir.

Memar Sinan öz həyatından bəhs etdiyi əsərində "Bəndə Allahın qarşısında qüsursuz olmamalıdır" deyərək mükəmməl inşa etdiyi məscidə şüurlu olaraq bir qüsur əlavə edir.

Memar Sinan öz əsərinə şüurlu olaraq bir qüsur əlavə edəcək qədər fəzilət sahibi idi.

**Səlimiyyə məscidi Memar Sinan üçün böyük əhəmiyyət kəsb edirdi. O, "Gələcəkdə bu işin mütəxəssisləri mənim əsərlərimi xeyir duaları ilə anacaqlar" deyə söyləyirdi və sənətkarın bu fikri sözün həqiqi mənasında bu gün də özünü doğrultmaqdadır.**

## Xatun: "O vaxtlar kartof yeyirdim ki..."



**Müğənni Xatun aylıq gəlirini necə idarə etməyindən danışıb.**

Adalet.az xəbər verir ki, o, nə qədər qazanmaq önəmli deyil. Əsas odur ki, qazandığında bərəkət olsun.İnsan öz qazandığını yeyəndə xoşbəxt olur. Heç kəsin qarşısında əzilib- büzülüb kiminsə pulu ilə nə mahnı almışam, nə də klip çəkdirmişəm. Əsla! Hamısını özüm etmişəm.Evdə kartof yemişəm ki, məclisə tox gedim. Bir paltarı bir neçə cür dizayn etmişəm ki, eyni geyimlə efirə getməyim. Amma pulumu yığmışam ki, özüm üçün və sənətim üçün nələrsə edim.

## Nuran: "Onunla münasibətim yoxdur"



**Gənc ifaçı Nuran həmkarı Hiss ilə münasibətinin normal olmadığını etiraf edib.**

Adalet.az xəbər verir ki, o, "Rəngarəng" proqramında bu haqda danışıb: "Hazırda münasibətimiz yoxdur. Ancaq gördüyü işləri çox bəyənirəm. Uğurlar arzulayıram. Bunu hər kəs soruşur, hazırda danışmırıq. Maraqlısı da odur ki, aramızda bir danışıq olmayıb. Buna baxmayaraq münasibət də yoxdur. Bu vəziyyət bir ildən çoxdur belədir.

## Meyxanaçı: "Duet ortaqlarıma güvənmirəm"

**Hər zaman meyxanaları və maraqlı performansları ilə diqqət çəkən meyxanaçı Pərviz Bülbülə bu dəfə həmkarlarını təəccübləndirib.**

Adalet.az xəbər verir ki, o, duet ortaqlarına güvənmədiyini etiraf edib: "Mənə daha çox Türkan Vəlizadə ilə bağlı suallar verilir. Mən nəin ki, Türkana, yeni duet ifa etdiyim Pərvanə xanıma da nə inanıram, nə də güvənirəm. Bu sözüm yaxşı səslənməyə bilər. Amma kiminlə iş birliyi edirəmsə edim, ən sonra özüm qərar verirəm ki, bu iş tamdır və yaxşıdır. Yəni bu baxımdan ancaq özümə güvənirəm".

**Əntiqə**

## Valverde: "Arda Gülerə dəstək oluruq"



**"Real"ın futbolçusu Federiko Valverde komanda yoldaşı Arda Gülər haqda danışıb.**

QOL.az Madrid təmsilçisinin rəsmi saytına istinadən xəbər verir ki, o, Türkiyə millisinin üzvünün komandadan mümkün gedişi haqda belə deyib:

"Düşünürəm ki, Arda möhtəşəm oyunçudur. O, bu yaxınlarda komandaya gəlib və "Real"da böyük təcrübə yığıb. Bizim üçün xoşdur ki, o, komandada öz yeri uğrunda mübarizə aparır. O, bu klubun əfsanəsi olmaq və iz qoymaq üçün bütün keyfiyyətlərə malikdir. Komanda yoldaşları olaraq biz ona dəstək oluruq və kömək edirik.

"Real"da olan bir çox gənc futbolçular icarəyə getməli, ya da ehtiyatda qalmalı olublar. Bu isə oyunçu üçün elə də yaxşı bir şey deyil. Lakin səni yetişdirən budur ki, sabah bu klubla və bu qədər təzyiqlə qarşılaşma növbəsi sənə çatanda hazır olasan".

**Qeyd edək ki, daha öncə mətbuatda Arda Gülərin ehtiyat oyunçular arasında qalmasından narazı qalması ilə bağlı xəbərlər yayılmışdı. O, "Real"a 2023-cü ilin yayında "Fənərbaxça"dan transfer olunub və bu müddət ərzində 40 matçda 9 qol vurub və 5 qolun ötürməsini verib.**

## Azərbaycan Premyer Liqasının yeni formatı müəyyənləşdi

**SOCAR-ın inzibati binasında AFFA İcraiyyə Komitəsinin növbəti iclası keçirilib.**

QOL.az xəbər verir ki, bu haqda AFFA məlumat yayıb.

Qurumun prezidenti Rövşən Nəcəf iclasın gündəliyi barədə məlumat verib.

Daha sonra gündəlikdə duran məsələlər müzakirə olunub.

Əvvəlcə Peşəkar Futbol Liqasının hesabatı dinlənilib. Qurumun vitse-prezidenti Aslan Şahgəldiyev Misli Premyer Liqası, həmçinin I və II liqalarda mövsümün gedişi barədə məlumat verib. O, İcraiyyə Komitəsi üzvlərinin suallarını cavablandırıb, təklif və rəylərini dinləyib.

Ardından Azərbaycan Premyer Liqasında 2025/2026-cı illər mövsümünün formatı müzakirə edilib. Qərara alınıb ki, növbəti mövsüm 12 komandanın iştirakı ilə 3 dövrədən (33 tur-dan) ibarət olsun. III dövrənin oyunlarında meydan sahibi olacaq komandalar püşk əsasında müəyyənləşdiriləcək. Cari mövsüm Əsasnaməyə uyğun olaraq, sonuncu yeri tutan komanda Premyer Liqanı tərk edəcək, əvəzində I Liqadan 3 komanda birbaşa yüksək dəstəyə vəsiqə qazanacaq.

2024/2025-ci illər mövsümündə I Liqada sonuncu yeri tutmuş klub II Liqaya düşəcək, II Liqadan isə ilk 3 yeri tutmuş komanda birbaşa I Liqaya yüksələcək. I Liqada 9-cu yeri və II Liqada 4-cü yeri tutan komandalar arasında neytral meydanda bir oyundan ibarət pley-off matçı keçiriləcək. Qalib komanda I Liqada mübarizə aparmaq hüququ qazanacaq. Qeyd edək ki, cari mövsümün sonunda I Liqadan Premyer Liqaya 3 komanda yüksələcəyindən, belə bir sistem tətbiq olunacaq.

İcraiyyə Komitəsində qərara alınıb ki, 2025/2026-cı illər mövsümündə Premyer Liqada sonuncu yeri tutan



klub I Liqaya düşsün, I Liqanın qalibi isə birbaşa yüksək dəstəyə vəsiqə qazansın. Premyer Liqada 11-ci yeri və I Liqada 2-ci yeri tutan komandalar arasında neytral meydanda bir oyundan ibarət pley-off görüşü keçiriləcək. Qalib komanda Premyer Liqada iştirak hüququ əldə edəcək.

**2025/2026-cı illər mövsümündə I Liqada sonuncu yeri tutan komanda II Liqaya düşəcək, II Liqada birinci yeri tutan komanda birbaşa I Liqaya yüksələcək. I Liqada 9-cu yeri tutan komanda II Liqada 2-ci yeri tutan kollektivlə neytral meydanda bir oyundan ibarət pley-off oyunu keçirəcək.**

## Gündüz yuxusunun beyin üçün faydası

**Texas Dövlət Universitetinin alimləri müəyyən ediblər ki, gündüz yuxusu beynin problemləri həll etmək qabiliyyətini artırır və bu prosesdə REM mərhələsi (Rapid Eye Movement) əsas rol oynayır.**

Adalet.az xəbər verir ki, tədqiqat işi "Journal of Sleep Research" (JSR) jurnalında dərc olunub. Bildirilir ki, insanlar yuxudan sonra əvvəllər onlara həll edilməyən problemlərin öhdəsindən daha yaxşı gəlirlər. Tədqiqatçılar hesab edirlər ki, bu vəziyyətdə beyin yeni təcrübələri mövcud biliklərlə daha aktiv şəkildə əlaqələndirir ki, bu da gələcəkdə oxşar vəzifələrin öhdəsindən daha yaxşı gəlməyə kömək edir.

Birbaşa səbəb-nəticə əlaqəsi təsdiqlənməkdə davam etsə də, tədqiqatın nəticələri yuxunun yaradıcı düşüncəni və zehni çevikliyi yaxşılaşdırdığına dair daha geniş elmi sübutlar toplusuna uyğun gəlir.

Nəbi Muxtarov

**Zabil Tiflis oğlu Ağayevin**

vəfatından kədərləndiyini bildirir və mərhumun doğmalarına dərin hüznlə başsağlığı verir.

Aslan Mehdiyev

**Zabil Tiflis oğlu Ağayevin**

vəfatından kədərləndiyini bildirir və mərhumun doğmalarına dərin hüznlə başsağlığı verir.

Əbülfət Mədətoğlu ailə üzvləri ilə birlikdə **Rauf və Yapon Cəfərov qardaşlarına** əzizləri

**Zabil Tiflis oğlu Ağayevin**

vəfatından kədərləndiyini bildirir və mərhumun doğmalarına dərin hüznlə başsağlığı verir.


Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS

Baş redaktor:
İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 534-55-98 Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 218
Çapa imzalanmışdır: 20.02.2025